**Nurəddin ƏDİLOĞLU**

# XXI ƏSRİN QƏHRƏMANI

**Bakı-2023**

*Kitab Vətən Müharibəsi Qəhrəmanı*
*Ceyhun Aydın oğlu Həsənovun əziz xatirəsinə*
*həsr olunur.*

**İdeya müəllifi:** Xatirə Həsənova
**Məsləhətçi:** Əzizağa Nəcəfzadə,
*filologiya üzrə fəlsəfə doktoru*
**Redaktor:** Mahir Cavadlı,
*şair, hərbi jurnalist,*
*ehtiyatda olan polkovnik*

**Nurəddin ƏDİLOĞLU,**
**"XXI ƏSRİNQƏHRƏMANI", Bakı, "CBS-PP", 2023. s. 296.**

Kitaba Vətən müharibəsinin qəhrəmanı kapitan Ceyhun Həsənov haqqında bədii-publisistik məqalələr daxil edilmişdir. Oxucular bu kitab vasitəsi ilə şəhidin valideynlərinin, müəllimlərinin, yaxın qohumlarının, məktəbli və hərbçi yoldaşlarının xatirələri ilə tanış olacaqlar. Əminik ki, bu kitab gənc nəslin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayacaq və Vətən müharibəsi mövzusunda biliklərini zənginləşdirməkdə faydalı mənbə olacaqdır.

ISBN: 000-0000-000-00-0

© Nurəddin ƏDİLOĞLU, 2023





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

***Musiqi:*** **Üzeyir Hacıbəyov**
***Sözlər:*** **Əhməd Cavad**

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!
Azərbaycan! Azərbaycan!



"Ordusu güclü olan xalq hər şeyə qadirdir."

**Heydər Əliyev**
***Azərbaycan Respublikasının***
***Ümummilli Lideri***





Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu **kapitan Ceyhun Aydun oğlu Həsənova** (ölümündən sonra) “Vətən Müharibəsi Qəhrəmanı” adı verilsin.

**İlham Əliyev**
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 dekabr 2020-ci il.***



## ƏSGƏR MARŞI

***Musiqi:* Cavanşir Quliyev**

Vətən məni yetişdirib,
Bu ellərə yolladı
Bu torpağa qurban deyib,
ALLAHA ismarladı...

Boş oturma çalış dedi,
Xidmət eylə vətənə.
Südüm sənə halal olmaz,
Sən baş əysən düşmənə...

Marş irəli hey, marş irəli,
Azərbaycan Əskəri.
Dönməz geri hey, dönməz geri,
Azərbaycan Əskəri...

Yastığımız vətən daşı,
Yorğanımız qar olsun.
Biz bu yoldan dönər olsaq,
Namus bizə ar olsun...

Nə gözəldir ölmək bizə,
Sevgili vətən üçün.
Yana ürək yurd eşqinə,
Daima için - için...



# VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANLARININ SİYAHISI

**İham İsmayıl oğlu Mehdiyev**
(1965 –)
General-leytenant
Dövlət Sərhəd Xidməti



**Hikmət İzzət oğlu Mirzəyev**
(1968 –)
General-leytenant
Xüsusi Təyinatlı Qüvvələr



**Namiq Sərəfruz oğlu İslamzadə**
(1974 –)
General-mayor
Hərbi Hava Qüvvələri



**Zaur Sabir oğlu Məmmədov**
( –)
General-mayor
Xüsusi Təyinatlı Qüvvələr



**Kənan Əlihüseyn oğlu Seyidov**
(1974 –)
General-mayor
Xüsusi Təyinatlı Qüvvələr



**Ələkbər Məhəmməd oğlu Cahangirov**
(–)
Polkovnik
Xüsusi Təyinatlı Qüvvələr



**Babək Mürsəl oğlu Ələkbərov**
(1987 –)
Polkovnik
Dövlət Sərhəd Xidməti



**Telman Əsgər oğlu Hüseynov**
( –)
Polkovnik
Quru Qoşunları



**Raqif İbadulla oğlu İsrayılov**
(1975 –)
Polkovnik
Quru Qoşunları



**Babək Vahid oğlu Qurbanov**
(1982 –)
General-mayor
Sərhəd Qoşunları



**Elnur Ceerov oğlu Qebedov**
(1978 –)
Polkovnik
Hərbi Hava Qüvvələri





**Nizami Bəydəmir oğlu Mövlanov**
( –)
Polkovnik
Quru Qoşunları



**Zaur İsmayıl oğlu Nudirəliyev**
(1978 –2020)
Polkovnik
Hərbi Hava Qüvvələri



**Vüsal Eynulla oğlu Sultanov**
( –)
General-mayor
Sərhəd Qoşunları



**Zəfər Qəzənfər oğlu Yusibov**
(1982 –)
Polkovnik
Daxili Qoşunlar



**Zaur İlham oğlu Zeynalov**
(1975 –)
General-mayor
Xüsusi Təyinatlı Qüvvələr



**Zaur Hikmət oğlu Quliyev**
( –)
1-ci dərəcəli Kapitan
Hərbi Dəniz Qüvvələri



**Əfqan Ağasəf oğlu Abdurahmanov**
(1976 –2020)
Polkovnik-leytenant
Quru Qoşunları



**Səxavət Mamed oğlu Baxışov**
(1978 –)
Polkovnik-leytenant
Quru Qoşunları



**Ceyhun Fikrət oğlu Camalov**
(1982 –)
Polkovnik-leytenant
Xüsusi Təyinatlı Qüvvələr



**Ramiz Sübhan oğlu Cəfərov**
(1974 –2020)
Polkovnik-leytenant
Xüsusi Təyinatlı Qüvvələr



**Orxan Nadir oğlu Əkbərov**
(1982 –2020)
Polkovnik-leytenant
Quru Qoşunları



**Anar Vaqif oğlu Əliyev**
(1980 –2020)
Polkovnik-leytenant
Xüsusi Təyinatlı Qüvvələr





**Xaliq Arif oğlu İbrahimov**
(1985 –)
Polkovnik-leytenant
Xüsusi Təyinatlı Qüvvələr



**Füzuli Şiraslan oğlu İmrəliyev**
( –)
Polkovnik-leytenant
Daxili Qoşunlar



**Faiq Qaçay oğlu Qasımov**
(1974 –2020)
Polkovnik-leytenant
Quru Qoşunları



**Ramiz Vaqif oğlu Qasımov**
(1975 –2020)
Polkovnik-leytenant
Hərbi Hava Qüvvələri



**Anar Mehman oğlu Mirzəyev**
( –)
Polkovnik-leytenant
Xüsusi Təyinatlı Qüvvələr



**Rəşad Soltanağa oğlu Nadirov**
(1982 –)
Polkovnik-leytenant
Hərbi Hava Qüvvələri



**Vüqar Əhməd oğlu Ağayev**
(1972 –2020)
Mayor
Quru Qoşunları



**Mirdamət Səristan oğlu Bağıyev**
(1986 –)
Mayor
Quru Qoşunları



**Elbrus Eyvaz oğlu Bayramov**
(1986 –2020)
Mayor
Quru Qoşunları



**Amid Rəbbil oğlu Heydərov**
(1988 –2020)
Mayor
Quru Qoşunları



**Saleh Valeh oğlu Həsənov**
(1986 –)
Mayor
Xüsusi Təyinatlı Qüvvələr



**Şahin Yusif oğlu Hüseynquliyev**
(1991 –)
Polkovnik-leytenant
Sərhəd Qoşunları





**Zaur Rahat oğlu Hüseynov**
(1987 –)
Mayor
Xüsusi Təyinatlı Qüvvələr



**Şıxamir Oruc oğlu Qaflanov**
(1986 –2020)
Mayor
Daxili Qoşunlar



**Anar Misir oğlu Qasımov**
( –)
Mayor
Quru Qoşunları



**Röyal İlham oğlu Quliyev**
( –)
Mayor
Sərhəd Qoşunları



**Səfər Qurban oğlu Qurbanov**
( –)
Polkovnik-leytenant
Hərbi Hava Qüvvələri



**Elçin Elşən oğlu Mansurov**
(1984 –2020)
Mayor
Quru Qoşunları







**Anar İbrahim oğlu Məmmədov**
( –)
Mayor
Sərhəd Qoşunları



**İlqar Rəhman oğlu Orucov**
(1984 –)
Polkovnik-leytenant
Xüsusi Təyinatlı Qüvvələr



**Gündüz Ağəmməd oğlu Səfərli**
( –)
Polkovnik-leytenant
Xüsusi Təyinatlı Qüvvələr



**Elvin Sərraf oğlu Səfərov**
( –)
Mayor
Sərhəd Qoşunları



**Elnur Ramiz oğlu Şirinov**
(1987 –)
Mayor
Xüsusi Təyinatlı Qüvvələr



**Anar Mehman oğlu Şükürov**
(1977 –2020)
Mayor
Xüsusi Təyinatlı Qüvvələr





**Ceyhun Aydın oğlu Həsənov**
(1985 –2020)
Kapitan
Quru Qoşunları



**Nihad Akif oğlu Babayev**
(1991 –2020)
Kapitan
Xüsusi Təyinatlı Qüvvələr



**Qəzənfər Kərim oğlu Bağırlı**
( –)
Mayor
Xüsusi Təyinatlı Qüvvələr



**Nicad Mehman oğlu Bədəlov**
( –)
Mayor
Daxili Qoşunlar



**Fərid Vaqif oğlu Əliyev**
( –)
Kapitan
Xüsusi Təyinatlı Qüvvələr



**Rəşad Arif oğlu Abdullayev**
(1991 –2020)
Kapitan
Xüsusi Təyinatlı Qüvvələr



**Ramazan İzzət oğlu Hudulov**
(1994 –)
Kapitan
Quru Qoşunları



**Rəşad Məzahir oğlu Qasımlı**
(1991 –)
Mayor
Hərbi Hava Qüvvələri



**Cavid Hilal oğlu Mahmudov**
(1988 –2020)
Kapitan
Quru Qoşunları



**Veysəl Yadulla oğlu Musibov**
(1988 –2020)
Kapitan
Xüsusi Təyinatlı Qüvvələr



**Surxay Əbdül oğlu Noçuyev**
(1988 –2020)
Kapitan
Quru Qoşunları



**İsmayıl Məhəmməd oğlu Səmədov**
(1990 –2020)
Kapitan
Xüsusi Təyinatlı Qüvvələr





**Renat Güləmməd oğlu Şıxnəbiyev**
(1990 –)
Kapitan
Xüsusi Təyinatlı Qüvvələr



**Qəzənfər Mahmud oğlu Ağayev**
(1996 –)
Baş leytenant
Xüsusi Təyinatlı Qüvvələr



**İzzət Zakir oğlu Balacayev**
(1993 –)
Baş leytenant
Xüsusi Təyinatlı Qüvvələr



**Cavid Ədalət oğlu Behbudov**
(1994 –)
Baş leytenant
Xüsusi Təyinatlı Qüvvələr



**Valeh Vahid oğlu Bədəlov**
(1990 –2020)
Baş leytenant
Xüsusi Təyinatlı Qüvvələr



**Azad Arif oğlu Hümbətov**
(1996 –2020)
Baş leytenant
Quru Qoşunları



**Adil Asəf oğlu İbrahimli**
(1992 –2020)
Baş leytenant
Xüsusi Təyinatlı Qüvvələr



**Şahin Hüseynbala oğlu Allahyarov**
(1992 –2020)
Baş gizir
Sərhəd Qoşunları



**Sübhan Rahim oğlu Cəbrayılov**
(1982 –2020)
Baş gizir
Xüsusi Təyinatlı Qüvvələr



**Yaşar Əhəd oğlu Hüseynov**
(1980 –)
Baş gizir
Xüsusi Təyinatlı Qüvvələr



**Camal Vidadi oğlu İsmayılov**
(1984 –2020)
Baş gizir
Xüsusi Təyinatlı Qüvvələr



**Mehrab Söhrab oğlu Niftəliyev**
(1985 –2020)
Baş gizir
Xüsusi Təyinatlı Qüvvələr





**Azər Nazim oğlu Yusifli**
(1994 –2020)
Baş gizir
Sərhəd Qoşunları



**Azər Nazim oğlu Yusifli**



**İntiqam Bayram oğlu Əsgərli**
(1990 –2020)
Gizir
Xüsusi Təyinatlı Qüvvələr



**Elyar Arif oğlu Vəliyev**
(1991 –2020)
Gizir
Xüsusi Təyinatlı Qüvvələr



**Orxan Rövşən oğlu Cabbarov**
(1995 –2020)
Kiçik gizir
Xüsusi Təyinatlı Qüvvələr



**Yaşar Mirağa oğlu Əhmədov**
( –)
Kiçik gizir
Xüsusi Təyinatlı Qüvvələr



**Əli Rəşid oğlu Hüseynov**
( –)
Kiçik gizir
Xüsusi Təyinatlı Qüvvələr

**Nail Nəriman oğlu İbrahimli**
(1994 –2020)
Kiçik gizir
Sərhəd Qoşunları



**Amin Taciddin oğlu Novruzov**
(1996 –2020)
Kiçik gizir
Sərhəd Qoşunları



**Fəqan Amil oğlu Zalov**
(1997 –2020)
Kiçik miçman
Hərbi Dəniz Qüvvələri



**Azər Rizvan oğlu Abdullazadə**
(2001 –)
Əsgər
Quru Qoşunları



**Murad İlyas oğlu Əflətov**
( –)
Əsgər
Quru Qoşunları



**Vüsal Elşən oğlu Yaqubov**
(2001 –)
Əsgər
Quru Qoşunları





# Ön söz

## Vətən qəhrəmanları ilə tanınar

Tarix boyu Vətənin taleyüklü məqamlarında onu ağır sınaqlardan çıxarmaq missiyası yurdumuzun qorxmaz, fədakar, mərd və cəsur oğullarının üzərinə düşüb. XX əsrin sonlarında dünyada cərəyan edən geosiyasi proseslər fonunda müstəqil Azərbaycan Respublikasının yaranması böyük tarixi nailiyyət olmaqla bərabər, eyni zamanda milli dövlətçilik uğrunda mübarizə aparan xalqımızın iradə və cəsarətinin məntiqi nəticəsi idi. Qarabağ münaqişəsi başlayandan bu yana on minlərlə vətən övladı Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı yolunda canından keçdi, şəhid oldu. Minlərlə azərbaycanlı yaralandı, xəsarət aldı, ömürlük şikəst, əlil oldu, yüzlərlə insanımız əsir və itkin düşdü. ŞƏHİDLİK Vətənə olan sonsuz sevginin təcəssümü, Vətənə can fəda etməkdir. 20 Yanvar və Xocalıya faciələrinin, Birinci və İkinci Qarabağ müharibəsinin ağrı-acısını ifadə edən ŞƏHİD sözü həm də qəhrəmanlıq simvolu kimi bu gün hər kəsdə qürur hissi oyadır. Ermənistanın Azərbaycana hərbi təcavüzü zamanı müstəqilliyimiz, ərazi bütövlüyü uğrunda canlarından keçərək qurban gedənlər müasir qəhrəmanlıq tariximizin səhifələrini öz dönməzlikləri, ölümün gözünə dik baxmaq bacarıqları ilə yazdılar.

Azərbaycanın hər bölgəsində and yeri kimi müqəddəslik qazanmış igidlər Şəhidlər xiyabanlarında, Qəhrəmanlıq parklarında əbədi məskən salmaqla gənclərimizə örnək oldular. Şəhidlərimiz ölümləri ilə bir həqiqəti təsdiqlədilər: Qəhrəman o insandır ki, öz idealları uğrunda mübarizələrdə ölümə qalib gəlməklə əbədi olaraq tarixin və xalqının yaddaşına köçür.

Vətəni qibləgah edən şəhidlərin hər birinin döyüş yolu bir əfsanə, bir dastan, bir tarixdir... Bu igidlər qısa bir ömür yaşadılar, əsl vətən oğlunun çətin məqamlarda edə biləcəyi son borcu şərəflə yerinə yetirdilər. Şəhidlərimizin şərəfli ömür yolu hər birimiz üçün örnəkdir. Eləcə də bu gün məkanından asılı olmayaraq onların uyuduqları son ünvan müqəddəs ziyarət yerimiz olmalıdır. Vətən şəhidlərimizin qanının töküldüyü, qoynuna sığındığımız yerdən başlanır. Hər qarışı şəhid qanı ilə yoğrulan, şəhid qoxusu duyulan bu  Vətən bizə ötürülən əmanətdir. Ovuc-ovuc torpaq qaytarıb, zərrə-zərrə Vətəni bütövləşdirən oğullar heç vaxt unudulmaz.

"Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir” demişlər babalarımız. Torpağı qoruyarsan, əzizləyərsən, uğrunda fədakarlığa hazır olarsan, Vətən olar. Vətən torpağını müqəddəsləşdirir şəhidlər... Odlar yurdunun qəhrəman şəhidləri, siz ölməzsiniz, siz əbədisiniz!

2020-ci ilin payızında düşmənin 30  ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoyulması xalqımızın tükənməz iradəsinin və vətənpərvərlik ruhunun əbədi təntənəsidir…

Müharibələr və  azadlıq mübarizələri itkisiz olmur. Vətən torpaqlarının azadlığı da, müdafiəsi də qurbanlar tələb edir. Tariximizin qəhrəmanlıq salnaməsinə  xüsusi həssaslıqla yanaşmış, ümummilli lider Heydər Əliyev  hələ 20 Yanvar faciəsinin 5-ci ildönümünə həsr olunmuş xatirə gecəsindəki çıxışında vurğulamışdı ki, hər bir şəhidin tökülən qanı Azərbaycanın müstəqilliyini təmin etdi: “Biz bu dərdi, bu qəmi daim qəlbimizdə saxlayacağıq. Ancaq eyni zamanda, bu şəhidlərin qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün örnək olub. Bundan sonra da örnək olacaqdır. Mən tam əminəm ki, Azərbaycanın bugünkü nəsli də, gələcək nəsilləri də bu şəhidlərin qəhrəmanlığından nümunə götürəcəklər. Azərbaycan xalqının milli azadlığını qorumaq üçün, respublikamızın müstəqilliyini qorumaq üçün daim mübarizədə olacaqlar. Daim qəhrəmanlıq nümunələri, vətənpərvərlik nümunələri göstərəcəklər...”



Sözsüz ki, müharibə varsa, demək, şəhid də olacaq, qazi də, itkin də... Bəli, 44 günlük Vətən müharibəmiz də qurbansız-şəhidsiz ötüşmədi. Azərbaycanın üç minə yaxın qəhrəmanı torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucaldı, minlərlə igid qazi adını qazandı. Vətən müharibəsi həm də Azərbaycan xalqının nə qədər məğrur, yenilməz xalq olduğunu bir daha dünyaya nümayiş etdirdi.

Vətən sevgisi ilə Vətənin qoynunda əbədiyyət, ucalıq, şərəf, qəhrəmanlıq ünvanına qovuşan kapitan Ceyhun Həsənovun müxtəlif illərdə hərbi mundirdə çəkilmiş şəkilləri sanki dil açıb onun şərəfli ömür yolundan danışırlar. Ceyhun 34 illik qısa ömrünə nələri sığdırmadı… Qəhrəmanlığa can atmaq qələbə deməkdir, qəhrəmanlığa susamaq uğur deməkdir, qəhrəmanlığı arzulamaq tarixin səhifəsində əbədi iz qoymaq deməkdir...

Tanrı dərgahında seçilmiş elə insanlar var ki, onlar ölmürlər, cismən bu dünyanı tərk edib, ruhən əbədiyyətə qovuşurlar. Taleyinə şəhidlik qismət olan kapitan Ceyhun Həsənov da hər kəsə nəsib olmayan mərtəbəyə - Vətənə özünün sonsuz sevgisi ilə ən uca zirvəyə ucalanlardandır…

Gənc ömrünü doğma Vətənin ömrünə calayan, haqqın dərgahına ucalan hər bir şəhid bizə doğmadır. Bu da həqiqətdir ki, müqəddəs Vətən torpaqlarında uyuyan hər bir şəhidimizin öz ünvanı, öz taleyi, öz həyat hekayəsi var.

Vətənimizin düşmən tapdağından xilas olması üçün igid Azərbaycan oğuları şirin canından keçiblər. Onlar Azərbaycan adlı bir məmləkətin, xalqımızın - ulu bir millətin varlığını yaşatmaq üçün şəhid olublar. Əcdadlarımızın ruhları dolaşan Vətən göylərində minlərlə şəhidimiz kimi, Ceyhun da haqqın dərgahına ucalıb...

O müqəddəs dərgahdan uğrunda canını fəda etdiyi və bizə əmanət qoyduğu yurd yerlərimizə boylanır. Və gündüzlər günəş nuruna qərq olan, gecələrin kəhkəşanında ulduz kimi sayrışan müqəddəs şəhid ruhlarının cərgəsində sanki o, Vətən haqqında əzəli və əbədi nəğmənin bu misralarını pıçıldayır:

Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim.
Vətən – əcdadımızın mədfənidir,
Vətən – övladımızın məskənidir.
Vətənin sevməyən insan olmaz,
Olsa, o şəxsdə vicdan olmaz.

***

Vətən sevgisi beşikdən, ana laylasından, ailədən başlanır.

Xalqımızın üzləşdiyi faciələr zamanı ən çox kövrələn, vaxtından əvvəl saçları ağaran, yaraları köz bağlamayanlar da analardır. Azərbaycanın bütün şəhid anaları qəhrəman analardır. Onların hər birinə sayğı və ehtiram Azərbaycan vətandaşı olaraq hamımızın borcudur. Çünki şəhid analarının canından can qopdu, bu Vətən üçün əziz övladlarını qurban verdilər. Heç kimsə ana qədər övlad itkisinin ağrı-acısını duya bilməz, bu dərdin ağırlığını da heç kimsə ana qədər hiss edə bilməz. Övlad acısı dərdlərin ən böyüyü, ən ağrılısı, ən çarəsizidir.

...Şəhid anası Səmayə xanımın qəlbinin dərinliyində dolaşan ağısı da, bayatısı da, səssiz göz yaşları da ürəyimizi göynədir. Fəqət, övlad itirmək nə qədər ağır olsa da, zəfər sevinci Həsənovlar ailəsini ovundurur. Şəhidlər bizim həm nisgilimiz, kədərimiz, ürək ağrımızdır, həm də qürurumuz, vüqarımız, fəxrimiz, ölməzliyimiz, örnəyimizdir...

Unudulmaz Xalq şairi Mirvarid Dilbazinin dünyaya Ceyhun kimi igid oğullar gətirən analara xitabən yazdığı şeirdən bu misralara nəzər salaq:

Səngərdir, sipərdir – dincliyi saxlar,
Kişisiz Vətəni düşmən ayaqlar, -
Kişi anası ol, ana olanda!



…"Mərd anadan mərd oğul,
Yada ağa, mərdə qul.
Qorxaq töhmət gətirər,
Baş ucaldar mərd oğul"

deyiblər. Mərd anaları, şəhid anaları ruha dönüb ucalıq əmanətini yaşadan əziz-xələf övladlarının şəkilləri, yadigar əşyaları ilə söhbətləşirlər. O oğullar ki, Vətən torpğının hər qarışı 44 günlük Vətən müharibəsində həmin mərd, igid, qorxmaz qəhrəmanlarımızın qanı bahasına azad olundu.

Bəli, əsrlər ötəcək, nəsillər bir-birini əvəz edəcək, amma 8 Noyabrı-Zəfər Gününü tarix səhifəmizin ən şanlı gün kimi yaddaşlara həkk edən kapitan Ceyhun Həsənov kimi qəhrəmanlar heç vaxt unudulmayacaq!..

***05.05.23***



# VƏTƏN QƏHRƏMANI-
# KAPİTAN CEYHUN HƏSƏNOV





Həsənov Ceyhun Aydın oğlu 29 oktyabr 1985-ci ildə Tovuz rayonunun Çeşməli kəndində anadan olmuşdur. Ailəsi ilə Bakı şəhərinə köçəndən sonra  Xətai rayonunun Gəncə prospektindəki 50-ci binanın 4-cü mənzilində yaşayıb və 1992-2001-ci illərdə Bakı şəhəri Xətai rayonu Ədalət Abbasov adına 257 saylı orta məktəbdə təhsil alıb. Orta məktəbdə oxuduğu müddətdə "Basketbol" yarışlarında fəal iştirak edib. Həmçinin məktəbdə keçirilən bir çox "Fənn" olimpiyadalarında iştirak edərək naliyyətlər qazanmışdır.

2001-ci ildə Cəmşid Naxçıvanski adına hərbi litseyə daxil olub. 1022-ci tağımın müdavimi olub. Orada oxuduğu müddətdə tağım komandiri vəzifəsini icra edib. ”Güləş” üzrə keçirilən yarışlarda fərqlənib. 2002-ci ildə C. Naxçıvanski adına Hərbi Litseydə 26 iyun Silahlı Qüvvələr gününə həsr olunmuş "Azərbaycan Əsgəri " bədii qiraət müsabiqəsində uğurlu çıxışına görə diplomla təltif olunmuşdur.

2004-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Orada təhsil aldığı müddətdə manqa komandiri vəzifəsini icra edib. 2008-ci ildə həmin məktəbi "Motoatıcı"ixtisası üzrə bitirib və ona "Leytenant" rütbəsi verilib. C. Həsəsnov təhsilini davam etdirmək üçün Təlim Tədris Mərkəzinə Zabit İxtisası kursuna göndərilib. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin "Cüdo"birinciliyində fəxri fərmanla təltif olunub.

2009-cu ildə Zabit ixtisası kursunu müvəffəqiyyətlə bitirən C. Həsənov Müdafiə Nazirinin müvafiq əmrinə əsasən Naxçıvan Muxtar Respublikasına göndərilib. O, 2 iyun 2010-cu ildə N saylı hərbi hissəyə tağım komandiri  vəzifəsinə təyin olunub.

27 iyun 2011-ci ildə ona "Baş leytenant" hərbi rütbəsi verilib. Əlahiddə Ümumqoşun Ordu komandanının əmrinə əsasən 4 noyabr 2011-ci ildə N saylı hərbi hissədə bölük komandiri, 17 yanvar 2013-cü ildə eyni hərbi hissədə tağım komandiri vəzifəsinə təyin olunub. 2 iyul 2013-cü il N saylı hərbi hissəyə tağım komandiri vəzifəsinə göndərilib. 27 avqust 2014-cü ildə N saylı hərbi hissəyə bölük komandiri vəzifəsinə təyin olunub.

15 sentyabr 2015-ci ildə C. Həsənova növbəti "Kapitan" hərbi rütbəsi verilib.

23 iyul 2016-cı il N saylı hərbi hissəyə tağım komandiri vəzifəsinə təyin olunub.

20 iyun 2019-cu il N saylı hərbi hissəyə tağım komandiri vəzifəsinə təyin olunub.

Culfa, Şahbuz, Ordubad, Qıvraq, Şərur, Sədərək rayonlarında ön xətdə Əlahiddə Ümumqoşun Ordu komandasında hərbi vəzifəsini qüsursuz yerinə yetirib.

2019-cu il 21 oktyabr Beyləqan rayon N saylı hərbi hissəsinin korpusunda qərargah rəisi vəzifəsində işləyib. 2020-ci il avqust ayında Beyləqanda keçirilmiş hərbi təlimlərdə 1-ci yer qazandığına, eyni zamanda qüsursuz fəaliyyətinə görə komandanlıq tərəfindən qol saatı ilə mükafatlandırılıb.

Atası Həsənov Aydın Əli oğlu 05.05.1959-cu ildə Tovuz rayonu Çeşməli kəndində anadan olub. Anası Həsənova Səmayə Əliqulu qızı 02.04.1964-cü ildə Tovuz rayonu Çeşməli kəndində anadan olub. Bacısı Həsənova Xatirə Aydın qızı 25.05.1988-ci ildə Gürcüstan Respublikası Rustavi şəhərində anadan olub. Hal-hazırda ibtidai sinif müəllimidir.

Ceyhun Həsənov 01.07.2018-ci ildə ailə həyatı qurmuşdu. 06.08.2019-cu ildə Cavidan və Cahid adında əkiz oğlan övladları dünyaya gəlib.

Azərbaycan Ordusunun kapitanı Ceyhun Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb və elə həmən gün-sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olub. 29.09.2020-ci ildə İkinci Fəxri Xiyabanda dəfn olunub.

İkinci Qarabağ müharibəsindən sonra göstərdiyi şəxsi şücaətə və Azərbaycan ərazi bütövlüyünün bərpa edilməsinə görə Prezi-



dent İlham Əliyev tərəfindən kapitan Həsənov Ceyhun Aydın oğlu 09.12.2020-cı ildə "Vətən Müharibəsi Qəhrəmanı", 15.12.2020-ci ildə "Vətən uğrunda", 25.12.2020-ci ildə "Füzulinin azad olunmasına görə", .29.12.2020-ci ildə "Qubadlının azad olunmasına görə", 24.06.2021-ci ildə "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

29.07.2021- ci ildə Vətən Müharibəsi Qəhrəmanı kapitan Ceyhun Həsənovun Gəncə prospekti 50 ünvanında yaşadığı binanın önündə xatirə lövhəsinin açılışı olub. 01.11.2021 -ci ildə Bakı şəhər İcra Hakimiyyətinin sərəncamına əsasən Sadıqcan küçəsi adı dəyişdirilərək, kapitan Həsənov Ceyhun Aydın oğlunun adına verilib. Həmçinin Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən Müharibəsi Qəhrəmanlarının və Azərbaycanın Milli Qəhrəmanlarının adlarının əbədiləşdirilməsini təmin etmək məqsədilə həyata keçirilmiş müvafiq tədbirlər əsasında Bakı şəhəri 48 saylı tam orta məktəbə kapitan Ceyhun Həsənovun adı verilmişdir.





"VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANI"
ADININ VƏSİQƏSİ
№ I-53
Azərbaycan Respublikası Prezidentinin
2020-ci il 9 dekabr tarixli
2336 nömrəli Sərəncamı ilə

Həsənov Ceyhun
Aydın oğluna
(ölümündən sonra)
"Vətən Müharibəsi Qəhrəmanı"

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti





AZƏRBAYCAN RESPUBLİKASI
MEDALININ VƏSİQƏSİ
№ I-961
Azərbaycan Respublikası Prezidentinin
2020-ci il 15 dekabr tarixli
2349 nömrəli Sərəncamı ilə

Həsənov Ceyhun
Aydın oğlu
(ölümündən sonra)
"Vətən uğrunda"
medalı

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti





AZƏRBAYCAN RESPUBLİKASI
MEDALININ VƏSİQƏSİ
№ I-561
Azərbaycan Respublikası Prezidentinin
2020-ci il 25 dekabr tarixli
2362 nömrəli Sərəncamı ilə

Həsənov Ceyhun
Aydın oğlu
(ölümündən sonra)
"Füzulinin azad olunmasına görə"
medalı

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti





AZƏRBAYCAN RESPUBLİKASI
MEDALININ VƏSİQƏSİ
№ I-307
Azərbaycan Respublikası Prezidentinin
2020-ci il 29 dekabr tarixli
2369 nömrəli Sərəncamı ilə

Həsənov Ceyhun
Aydın oğlu
(ölümündən sonra)
"Qubadlının azad olunmasına görə"
medalı

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti





AZƏRBAYCAN RESPUBLİKASI
MEDALININ VƏSİQƏSİ
№ I-4862
Azərbaycan Respublikası Prezidentinin
2021-ci il 24 iyun tarixli
2716 nömrəli Sərəncamı ilə

Həsənov Ceyhun
Aydın oğlu
(ölümündən sonra)
"Şuşanın azad olunmasına görə"
medalı

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti





# TOVUZUN FƏXRİ



Tovuz rayonu — Azərbaycan Respublikasında inzibati – ərazi vahidi. İnzibati mərkəzi Tovuz şəhəridir.

Tovuz etnotoponiminin etimologiyasına dair mülahizədə bildirilir ki, tav, tov - dağ, ikinci tərəfi isə uzus - yüksəliş, zirvə kimi izah olunur. İkincisi, “Ta ust” qala türkcədən tərcümədə “dağ üstündə yerləşən qala” mənasını verir. Eyni zamanda Tovuz öz çeşmə bulaqları, təbii sərvətləri ilə zəngin diyardır.

5 avqust 1992-ci ildə Çəmbərək və Başkənd ətrafında döyüşlər baş vermişdir. 1992-cü ilin avqustunda, Birinci Qarabağ müharibəsinin əvvəllərində, Ermənistan Silahlı Qüvvələri və Daxili İşlər Nazirliyi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə qarşı Başkənd,

o cümlədən Gədəbəy rayonunun Mutudərə və Qasımağalı kəndlərinin nəzarəti uğrunda başladılan hərbi hücum əməliyyatı zamanı İsgəndər Aznaurovun artilleriya bölmələri və Eldar Salmanovun rəhbərlik etdiyi tankçılar bölüyü əraziyə göndərilir. Planlaşdırılan əməliyyatlara xüsusi təyinatlı qüvvələr də cəlb edilir.

6 avqust 1992-ci ildə erməni qüvvələri Başkənd ilə əlaqə qurmaq üçün Mutudərə və Qasımağalı kəndlərini işğal etmişdir. Azərbaycanın hücum əməliyyatı 8 avqustda başlayır. Dilqəm Əliyevin komandanlığındakı qüvvələr Mutudərə və Qasımağalı kəndlərini işğaldan azad edir. Qalan qüvvələr Başkəndə doğru irəliləyir. Azərbaycan qüvvələri Ermənistan Daxili İşlər Nazirliyinin sərhəd alayının bölmələrini anklavdan qovaraq kəndi azad edir, lakin Ermənistan mənbələri yerli əhalinin təslim olaraq kəndi Azərbaycana təhvil verdiyini bildirir. Ermənilərin ciddi müqavimətinə baxmayaraq, onlar həmin gün təslim olaraq kəndi təhvil vermişdir. Ermənilər bu istiqamətdə minə yaxın canlı qüvvə, 4 tank, 14 zirehli maşın və digər texnika yeritmişdilər. İlk zərbəni baş leytenant Məzahir Rüstəmovun dəstəsi öz üzərinə götürdü, axıra qədər vuruşdu, əsgərlər və komandirləri qəhrəmanlıqla həlak oldular, lakin qarşı tərəfin hücumunu ləngitdilər. Azərbaycan Ordusu əks hücum planını həyata keçirməyə başladı. Əməliyyata korpus komandiri general-mayor Dadaş Rzayev, polkovnik Cahangir Rüstəmov, polkovnik Rəfayıl Əsədov, polkovnik Hamlet Hüseynov rəhbərlik edirdilər. Ermənilərin Mutudərə istiqamətində hücumunun qarşısı alındı və avqustun 8-də Başkənd üzərinə hücum başladı. Erməni silahlı birləşmələrinin ciddi müqavimətinə baxmayaraq axşama yaxın Başkənd azad edildi, erməni tərəfinin 300-dən çox canlı qüvvəsi, 4 topu, 3 tankı, 1 BMP və və digər texnikası məhv edildi. Tovuzun hər bir obası, hər bir kəndi böyük bir tarix yaşadır.

Vətən Müharibəsi Qəhrəmanı Ceyhun Həsənov da Tovuzda anadan olmuşdur. Adətən, o, yay tətilini hər zaman olduğu kimi



əmisigildə - Tovuzun Çeşməli kəndində keçirirdi. Elə məhz, Başkənd əməliyyatı da Ceyhunun kənddə istirahət vaxtına təsadüf edirdi. Həmin vaxtlar kəndin başında post qurulmuşdu. Kənd sakinləri növbə ilə postda dayanıb, düşmən mövqeyini izləyirdilər. Elə o vaxt Ceyhun da əmisi ilə posta gedib, binokl ilə müşahidələr aparırdı. Demək olar ki, hərbi sirlərə 7 yaşından bələd olmağa başlamışdı. İlk dəfə postda dayanmaq, silah atmaq Ceyhunu hərbçi olmağa çox həvəsləndirmişdir. Atdığı ilk atəş onda maraqlı hislər oyatmışdı. Hər kəsə silahdan atəş açanda qollarının necə silkələndiyindən ağız dolusu danışırdı. Onun üçün bu başqa bir sevinc, qürur idi. Kiçik bədəninin silaha tab gətirməsi özünü də qürurlandırırdı.

Bir dəfə Ceyhun həyətdə oynayarkən, birdən atəş səsləri eşidir. Daha sonra səslər şiddətlənməyə başlayır. Elə bu vaxt adamlar o tərəf – bu tərəf qaçmağa başlayırlar. İlk dəfə idi ki, Ceyhun bu cür təlaşa düşmüşdü. Evə qaçıb əmisini səsləyir. "Əmi bu nə səsdir?" Əmisi cavabında deyir ki, ermənilərdir, sən narahat olma, keç evdə otur, məni gözlə. Həyətə qayıdan əmisi evlərinə yaxınlaşan hərbi texnikaları görüb deyir, köməyə ehtiyac var? Bu an Ceyhun əmisinin səsini eşidib yenidən həyətə düşür. İlk dəfə idi, Ceyhun tankı yaxından görürdü. Qaçıb tez minmək istəyir, amma əmisi cəld onu saxlayır. Sənə ora getmək olmaz deyir. Tankdan başını çıxaran hərbiçilər Ceyhuna əl edib gülümsəyərək, "böyüyüb sonra ardımızca gələrsən" deyib, uzaqlaşırlar.

Düşmənlə təmas xətti elədə uzaqda deyildi. Aranı bir dağ kəsirdi. Döyüş maşınları əmisinin yaşadığı evin önündən keçib gedirdi.

Döyüşlərin başlanmasına baxmayaraq, kənd camaatı evlərini tərk etmirdilər, kişilər isə hərbi texnikaların ardınca gedirdilər. Ceyhun tam olaraq nə olduğunu anlamırdı. Ağır artilleriya səsləri evləri sirkələyirdi. Amma uşaq olsa da Ceyhun qorxu hissi keçirmirdi. Kənd əhalisi ayağa qalxmışdı. Tovuz xalqı hər zaman

öz cəsurluğu ilə seçilib. Ermənilər günü bu günə kimi Tovuz istiqamətində apardığı əks-hücum həmlələrində həmişə məğlub olub.

Artıq sevinc səsləri ucalmağa başlamışdı. Hərbiçilər düşmənin hərbi qənimətləri ilə geri qayıdırdı. Ceyhun bu mənzərəni görüb tez özünü çölə atdı. Bu dəfə hərbçilər özləri evin qarşısında dayandılar. Burada Ceyhun anadan olanda atası Aydın onun adına bulaq çəkdirmişdi. Hərbçilər hərbi texnikadan düşüb su içib sərinləyirdilər. Bu fürsətdən istifadə edən Ceyhun tanka mindi. Hələ bu azmış kimi zabit ona silahına da toxunmağa da icazə verdi. Həmin gün Ceyhun üçün unudulmaz bir tarixə çevrildi. Komandir onu yanına çağırıb, əlini telinə çəkib alnından öpdü. Görürəm çox cəsur oğlansan, adın nədir?

Ceyhun: "Adım Ceyhundur" deyə dilləndi.

Zabit: "Ceyhun, sən gələcəyin qəhrəmanısan!"- dedi:

Əmisi Balakişi Ceyhunun komandirlə söhbət etməyini fürsət bilərək heyvan kəsir, onlara süfrə açır, evə dəvət edir. Azdan- çoxdan yemək masasında gedən söhbətləri Ceyhun eşidir. Gələcək günlərinin xəyalını qurur. Ceyhun tarixlə yaşayır, tarixə söykənir.

Elə o vaxtdan Ceyhunun gözünün önündən neçə-neçə savaşlar keçdi. Hər birində də iştirak etmək həvəsi var idi. Amma hələ onun yaşı, hərbi sirlərə tam yiyələnməməyi buna imkan vermirdi.

İllər ötdü artıq Ceyhun da zabit olmuşdu. Aprel döyüşləri zamanı məzuniyyətdə olmağı onu bərk məyus etmişdi. Həddindən artıq orada onun iştirak etməməsi ona təsir etmişdi. Amma sonra Günnüt döyüşündə iştirak etməsi onu müəyyən qədər arzusuna çatdırmışdır. Tovuz döyüşləri zamanı isə Naxçıvan Muxtar Respublikasında xidmət edirdi.

2020-ci ilin iyul ayında Tovuz Ermənistanla baş verən döyüşlərin əsas ərazisinə çevrilmişdir. İyul ayının 12-23-nə kimi düşmən ağır artirelliya atəşinə başlayaraq Azərbaycan Respulbikasının

ərazisi olan Tovuzun Ağdam, Dondar Quşçu, Əlibəyli, Hacıalılı, Koxanəbi, Əsrikcırdaxan, Gədəbəyin Əlili, Zamanlı kəndlərini atəşə tutmuşdur. Ağır döyüşlər zamanı hörmətli millət vəkilimiz Qənirə Paşayeva xalqla bir yerdə olmuş həm döyüşçülərimizə, həm də yerli əhaliyə dəstək olmuşdur.

Bu döyüş nəticəsində 14 iyul 2020-ci ildə Azərbaycan generalı (Polad Həşimov-red) həlak olmuşdur. Generalın həlak olması Ceyhuna çox təsir etmişdi. O həmin an bu sözləri dedi: "Generalı həlak olmuş ordu sakit dayanmamalıdır". Həqiqətən də belə oldu. Həmin gündən 2 ay sonra Azərbaycan üçün, Azərbaycan zabiti üçün şərəf, qisas günü başladı. Kapitan Ceyhun Həsənov Aydın oğlu da həmin günün qəhrəmanına çevrildi.

***

**Sovet İttifaqı Qəhrəmanları**

Tovuz yetişdirir və yetişdirəcək. Örnək göstəriləsi qəhrəmanlar.

- Yusif Mehdi oğlu Sadıqov – 1918–1971-ci illərdə yaşamışdır, rayonun Ağdam kəndindəndir.
- Mərdan Məhəmməd oğlu Musayev – 1907–1982-ci illərdə yaşamışdır. Rayonun Əlimərdanlı kəndindəndir.
- Məstan Aslan oğlu Əliyev – 1918–1945-ci illərdə yaşamışdır. Rayonun Əsrik Cırdaxan kəndindəndir.

**Azərbaycanın Milli Qəhrəmanları**

Hər yaşda qəhrəman böyüdən Tovuz.

- Naiq Nəsir oğlu Yusifov – 1970–1992-ci illərdə yaşamışdır, rayonun Ağdam kəndindəndir.
- Qasım Qara oğlu Rzayev – 1971–1992-ci illərdə yaşamışdır, rayonun Əlibəyli kəndindəndir.

**Vətən Müharibəsi Qəhrəmanı**

Əgər zabit düşünməyə başlasa orduda heç kim qalmaz. Qəhrəmanlıq zaman işi deyil, bir anın işidir. Sonunu düşünən qəhrəman ola bilməz.

Ceyhun Aydın oğlu Həsənov – 1985-2020- ci illərdə yaşamışdır, rayonun Çeşməli kəndindəndir.





# QƏHRƏMANLIQ

***Ordu ölkəmizin, millətimizin,***
***dövlətimizin, müstəqilliyimizin dayağıdır!***

**Heydər Əliyev**

Azərbaycan ədəbiyyatı tarixinə tarixi roman janrının banisi kimi düşən Məmməd Səid Ordubadi "Qılınc və Qələm" əsərində baş qəhrəman, dahi şair Nizaminin dilindən deyir ki, qəhrəmanlıq yalnız silah deyil, bilik də tələb edir. Hər bir insan dünyaya bir missiya ilə gəlir. Vətəndaş sözü vətən sözündən yaranıb. Artıq dünyaya göz açdığın gündən etibarən insan vətəninin canlı vətəndaşına çevrilir. Dünyasını dəyişdikdən sonra isə vətəninin bir hissəsinə çevrilmiş vətəndaş olaraq yaddaşlara həkk olur.

Vətənpərvərlik sözünün kökündə də vətən dayanır. Vətənin hər bir qarışının vətəndaş üçün fərqi olmur. Sadəcə Vətəni dirçəldib, yeniləşdirən vətəndaşları olur. Necə ki, Ceyhun haqqında əsgərinin bu fikri tam olaraq yerinə düşür. Ceyhun öz ölkəsinin vətəndaşlarına belə qayğısını əsirgəməyib. Gənc əsgəri olmuş Pərviz Cabbarov 2011-2012-ci illərdə komandiri olmuş şərəfli komandiri Ceyhun haqqında belə deyirdi: "İndiyə kimi komandirin səsi qulağımdadır. Ay əsgər, sənə görə deyirəm durma o günün altında! Qızdıracaqsan." Eh komandir, Allah sənə rəhmət etsin. Hələ Naxçıvanın soyuq iqlimində şaxtalı, çovğunlu günləri postda duran əsgərlərinin botinkasını soyundurub, qızdırıcıda isidib, dəyişdirməyini demirəm. Sanki əsgərlərin ata əvəzi idi...

Əsgərlərinin ad günündə, bayramlarda öz şəxsi hesabına onlar üçün şənlik təşkil edib, darıxmağa qoymurdu.







29.10.1985–27.09.2020

Vətən Müharibəsi Qəhrəmanı Şəhid kapitan Ceyhun Aydın oğlu Həsənov. 44 günlük Vətən Müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına həlak olmuşdur. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli sərəncamı ilə Ceyhun Aydın oğlu Həsənova ölümündən sonra « Vətən Müharibəsi Qəhrəmanı » adı verilmişdir. Azərbaycan Respublikası Prezidentinin digər sərəncamı ilə « Vətən uğrunda » (15.12.2020) , « Füzulinin azad olunmasına görə » (25.12.2020), « Qubadlının azad olunmasına görə » (29.12.2020), « Şuşanın azad olunmasına görə » (24.06.2021) medalları ilə təltif olunmuşdur. Bakı şəhər İcra hakimiyyəti Başçısının 01.11.2021-ci il tarixli sərəncamı ilə Xətai rayonunda yerləşən Sadıqcan küçəsinin adı dəyişdirilərək Ceyhun Həsənov küçəsi adlandırılmışdır. Rayon ərazisində yerləşən 48 nömrəli tam orta məktəb də Şəhid kapitan Ceyhun Həsənovun adını daşıyır.



Eyni zamanda ailə üzvləri ilə telefon bağlantısı yaratmağa kömək edərdi.

Beyləqanda isə əsgərlərinin su tələbatını ödəməyi öz boynuna götürmüşdür. Ceyhunun vətənə sevgisinin sərhəddi olmayıb. Bütün bu etdiyi yaxşılıqlar onun ailəsindən qaynaqlanırdı.

Vətən sərhəddən başlayır. O sərhəd ki, düşmənlə üz-üzə dayanır. 34 yaşlı kapitan, Vətən Müharibəsi Qəhrəmanı Həsənov Ceyhun Aydın oğlu deyərdi ki, Qarabağ adlı bir diyarın olsun, amma o diyar üzünə həsrət qalasan. Öz-özünə düşünərdi: Qara sözününün mənası böyük deməkdir. Qarabağın da böyük dərdi vardı. Dərdə məlhəm isə Odlar diyarı Azərbaycanın oğulları oldu. Diyarımızı talamaq istəyən, torpaqlarımıza göz dikən çox olub. Odumuzu söndürməyə çalışıblar. Amma od oğulları ocağı sönməyə qoymayıblar. Tabut üstə bayraqla gəlib, bayrağın ayparası ulduzu ilə ətrafa nur saçıblar. O nurun hər bir şöləsindən yeni bir igid doğulub.

Ceyhun torpağa tapşırılanda, atası bayrağı təhvil alan zaman belə bir söz işlətdi. "Mənim oğlum öldürmədən ölməz". Hər bir valideyn öz övladının kim olduğunu çox yaxşı bilir. Həqiqətən biz hələ onun necə qəhrəmanlıq göstərdiyini bilmədən, onun Vətən qəhrəmanı olduğunu bilirik...

Əkiz övladlarıda Cavidan Cahid atalarının qəhrəmanlığını yaşa dolduqca öyrənəcəklər. Ceyhun onların dilindən sadəcə "dədə" sözünü eşidib getdi bu dünyadan, amma indi onlar "dədə" sözünün yanında "qəhrəman dədə" deyərək, hər kəsə danışacaqlar.

...2023-cü il avqust ayından artıq Füzuliyə köç başlayıb. Cehun, sənin ruhun gəzən torpaqlarda, xalqın gəzir. Qəhrəmanın azad etdiyi torpaq öz sakinlərini qarşılayır.

Ceyhun tarixlə böyüdü, tarixlə yaşadı, fəxr və qürurla tarixə qovuşdu. Ceyhun Azərbaycan tarixinin şahidi və həmçinin vətəninin qəhrəman şəhidi oldu.

# CEYHUNUN DÖYÜŞ YOLU.




27.09.2020-ci il, təxminən saat 07.50 radələrində Füzuli, Cəbrayıl, Xocəvənd istiqamətində şiddətli döyüş başlayır. Kapitan Ceyhun Həsənov Füzuli rayonunun Alxanlı kəndində döyüş əmri verərək, 7 BMP, 4 Tank, 1 neçə texnika, 80 nəfər şəxsi heyəti ilə açıq səma altında döyüşə girir. Özü 310 nömrəli BMP hərbi maşının sağ tərəfində, sürücüsü Qərib Balacayev sol tərəfdə, tuşlayıcısı Şahin Mehdiyev ortada 5 əsgər isə arxa tərəfdə əyləşir.

Döyüş getdikcə şiddətlənir və səngimək bilmir. Düşmən dayanmadan mövqelərimizi ağır artilleriyadan atəşə tutur. Ordumuz isə əks-hücumla öz gücünü göstərməyə başlayır. Hərbi texnikalar işə düşür. Topların, silahların, raketlərin səsi bir-birinə qarışır. Tüstü-duman göyə qalxır. Düşmən tərəf ağır itkilərə məruz qalır.



Kapitan Ceyhun Həsənovun əmri ilə döyüş əməliyyatı qalibiyyətə doğru gedir. Düşmənin bir neçə postu məhv edilir. Bunu görən mənfur düşmən hərbi texnikalarımızı sıradan çıxarmağa çalışır və buna qismən nail olur. Düşmən mina təmizləyənlərimizə atəş açır. Artıq ilk şəhidlərimiz vardı. Kapitan C. Həsənvun əmrində olan texnikalar artıq bir-bir sıradan çıxır. O qədər şiddətli döyüş gedir ki, bir saniyə belə dayanmaq mümkün deyildi. Bunu görən kapitan 70-ə yaxın piyada əsgərlərin mühasirəyə düşəcəyini görüb. "İrəli!" əmrini verir. Özünün əyləşdiyi 310 nömrəli BMP-nin mahir sürücüsü Qəriblə düşmənin keçilməz Ohanyan səddini yarıb keçir. BMP sanki quş kimi irəli uçur. Minalanmış əraziyə keçirlər. Əsgərləri mühasirəyə düşməkdən xilas edirlər. Komandir təyin etdiyi kordinantlar sayəsində məlumatları tuşlayıcısı Şahinə ötürür. Düşmən mövqeləri tez bir zamanda tam məğlubiyyətə uğradılır. Artıq bir neçə kənd düşməndən azad olunur və 7 düşmən postu ələ keçirilir. Sonuncu postu məhv etmək vaxtı gəlir. Koordinantlar təyin edilir. BMP sağ tərəfə istiqamət alanda minaya düşür. Kapitan Ceyhun Həsənov yaralı halda əlini uzadıb Şahindən soruşur. “Sonuncu mövqeni vura bildikmi?” Şahin cavab verir: “Vurduq komandir, vurduq!” Ceyhun gülümsəyir. Elə bu an birinci zərbənin təsirindən BMP 2-ci dəfə minaya düşür. Füzuli rayonu Qaraxanlı kəndində Kapitan Həsənov Ceyhun Azərbaycana həm qələbə sevinci yaşadır, həm də elə həmin an şəhidlik zirvəsinə ucalır. Zərbənin təsirindən BMP-nin üst hissəsində olduğundan tuşlayıcı Şahin Mehdiyev yerə yıxılır. Sürücü Qərib Balacayev özü BMP-ni tərk edir. Təxminən 30-40 dəqiqə ağrılar içində qalır. Sonra o da şəhidlik zirvəsinə ucalır. Şahini tez döyüş meydanından təxliyə edirlər. Şiddətli döyüşlər getdiyindən şəhidləri bir müddət səngərdə saxlamalı olurlar.

28.09.2020-ci ildə sanitarlar şəhid zabit və əsgərlərimizi döyüş bölgəsindən çıxarıb, Füzuli rayonunun Əhmədbəyli kəndinə apara bilirlər.

# FÜZULİ QƏHRƏMANI

Ceyhun zabit kimi Naxçıvanda xidmətə başlamışdı. Oranın hər bir postuna bələd idi. Ön xəttin daim müdafiəsində dayanıb, təlimlərin mühüm iştirakçısı olmuşdu. Kursant vaxtının ilk praktikalarını Gəncə və Beyləqandan  başlamışdır. Bu da bir təsadüf idi ki, döyüşə Beyləqan N saylı hərbi hissədən qatılmış, Füzulidə qəhrəmancasına döyüşmüşdür.

Bildiyimiz kimi müharibənin ilk günü ən çətin və ən şiddətli döyüşlər gedən hissəsi Füzuli rayonundan başlamışdır.

Sentyabrın 26-dan 27-nə keçən gecə saat 4-də düşmən növbəti dəfə təxribata əl atır. Saat 7-də əks hücum əməliyyatına başlamaq əmri verilir. Həyəcan siqnalı çalınır.

Düşmən artıq hücuma başlamışdır. Motoatıcı kapitan Həsənov 7 PDM, 4 tank, bir neçə hərbi texnika, 80 nəfər şəxsi heyət ilə, Alxanlı istiqamətindən döyüşə başlayır. Füzuli, Cəbrayıl, Xocavənd uğrunda şiddətli savaş başlayır. Döyüşə ən çətin istiqamətdən başlamaq, yəni minalanmış ərazidə döyüş aparmaq kapitan Ceyhun Həsənova həvalə edilmişdir. Düşmənin inadlı müqavimətinə, əlverişli mövqelərində dayanmalarına baxmayaraq, kapitan Həsənov düşmənin mövqelərini, kordinantları düzgün və dəqiq təyin edərək atəş əmrini verir. Artıq düşmənin bir neçə postu darmadağın edilir.

Düşmən kapitan Həsənovun tabeliyində olan texnikaları məhv edir. PUA və hava hücumundan müdafiəyə ehtiyac düymayan Ceyhun sol cinahdan qarşıya qoyulmuş döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirir. Düşməni tam məğlubiyyətə uğradır. Yarılması mümkün olmayan Ohanyan səddinin saat yarıma 6 müdafiə xəttini qıraraq zəfərə yol açır.



Kapitan Ceyhun Həsənovun igidliyi sayəsində artıq Füzulinin 5 kəndi, Cəbrayılın 2 kəndi işğaldan azad olunmuşdu. Eyni zamanda 7 əhəmiyyətli postu məhv edilən düşmən xeyli sayda canlı qüvvə və texnika itkisi ilə üzləşmişdi.

Buna baxmayaraq düşmən sağ cinahdan hücuma keçərək 80 nəfər şəxsi heyəti mühasirəyə almaq istəyirdi. Bunu görən kapitan Həsənov mahir sürücüsü Qəribə Balacayev 310 nömrəli PDM-i sağa doğru irəliləməsini əmr etdi. Minalanmış ərazi olmasına, düşmənin ağır artilleriyadan atəş açmasına baxmayaraq, ani qərar verərək, düşmənlə təkbətək savaşa girir. 80 nəfər şəxsi heyəti mühasirədən çıxarır.

Şiddətli döyüşlər getməsinə baxmayaraq, düşmən kapitan Həsənovun 310 nömrəli PDM – ni dəqiq nişan ala bilmirdi. Şəxsi heyəti mühasirədən çıxardıqdan sonra geri qayıdarkən sağ istiqamətdən tank əleyhinə PDM-i iki dəfə minaya düşür. Ömrünün 34-cü yaşında kapitan Ceyhun Həsənov adının yanına şəhid və Vətən Müharibəsi Qəhrəmanı sözünü yazdırır. Qarabağın hava qapısı hesab olunan Füzuli işğaldan azad edilir.

2-ci Qarabağ müharibəsindən sonra göstərdiyi şəxsi şücaətə, Azərbaycan ərazi bütövlüyünün bərpa edilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Kapitan Həsənov Ceyhun Aydın oğluna 09.12.2020 Vətən Müharibəsi Qəhrəmanı adına və medalına layiq görüldü.

29.07.2021-ci ildə Bakının Gəncə prospekti 50 ünvanında yaşadığı binanın önündə Ceyhun Həsənovun xatirə lövhəsinin açılışı olub.

01.11.2021-ci ildə Bakı şəhər İcra Hakimiyyətinin sərəncamına əsasən Sadıqcan küçəsi adı dəyişdirilərək kapitan Həsənov Ceyhun Aydın oğlunun adına verilib.

04.11.2021-ci ildən Bakı şəhəri Xətai rayonu 48 nömrəli mək-

təbin Kapitan Həsənov Ceyhun Aydın oğlu adına verilmişdir.

Bu gün demək olar ki, bir sıra məktəblərdə Ceyhunun adını daşıyan siniflər var. Onun adı qəhrəman olaraq şagirdlərin dillərində əzbərə çevrilib. Həmçinin Ceyhun Həsənovun bacısı qızı Gülay da dövlət tədbirlərində dayısına həsr olunmuş şeirlərlə çıxış edir.

Müharibənin ilk günü qələbə qazanmaq hər ordunun işi deyildi. Belə bir deyim var: Sərkərdə güclü olsa, ordunu bada verməz. Dövlət başçısının rəhbərliyi altında xalq və ordu bir yumruq olub Qarabağ Azərbaycandır dedilər. Ordu birliyi, xalq birliyi, vətəndaş birliyi bütün dünyaya sübut etdi ki, güc birlikdədir. Xalqımızın və ölkəmizin başını ucalardan ucalara qaldırdılar. Azərbaycan ordusu Ceyhunun timsalında xalqımıza qələbə sevinci yaşatdı. Zəfərə doğru yol açdı. Xarı bülbülə, Şuşaya və digər rayonlarımıza istək və arzularımıza qovuşdurdu. Şair və yazıçılarımızı riqqətə gətirdi. Yeni-yeni kitablar, əsərlər, şeirlər yazmağa sövq etdi.

44 günlük müharibənin Zəfər ilə nəticələnməsi ilə əlaqədar olaraq cənab Ali Baş Komandan bir sıra sərəncamlar verirdi.

Anım Günü — Azərbaycan Respublikasında 2020-ci il sentyabrın 27-dən noyabrın 10-a qədər davam edən İkinci Qarabağ müharibəsində həyatını itirən şəhidlərin xatirəsinin anılması. Anım Günü müharibənin başlandığı gün sentyabrın 27-də keçirilir. Prezident İlham Əliyevin 2020-ci il dekabrın 2-də imzaladığı "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" sərəncama əsasən qeyd edilir.

Zəfər Günü — Azərbaycan Respublikasında İkinci Qarabağ müharibəsində qələbə şərəfinə qeyd edilən gündür. Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" sərəncama əsasən Zəfər Gününün hər il noyabrın 8-də təntənəli şəkildə qeyd edilməsi qərara alınmışdır.

Zəfər Muzeyi — Azərbaycan Respublikası Prezidentinin 3 de-



kabr 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində yaradılması nəzərdə tutulan abidə-kompleksin inşası. Memar Muxtar Ərturanın rəhbərliyi altında onun müəllifi olduğu bu layihə yerli və türkiyəli memarların və mühəndislərin qarşılıqlı əməkdaşlığı çərçivəsində həyata keçiriləcəkdir.

İki ölkənin peşəkar memarlarının iştirakı ilə hazırlanacaq çoxmərtəbəli kompleks milli atributlarımızdan olan Aypara və Səkkizguşəli ulduz şəklində, ultramüasir formatda bütün standartlara cavab verəcək. Hilal formasında, iki girişli muzey kompleksinin teleqüllənin qərb hissəsində inşa edilməsi nəzərdə tutulur.

2020-ci il dekabrın 10-da Bakıda Azadlıq Meydanında Qələbə Paradı və ya Zəfər Paradı — İkinci Qarabağ Müharibəsində (Vətən Müharibəsində) Azərbaycanın qələbəsi şərəfinə Bakıda keçirilən tarixi hərbi parad. Paradda 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı və türk əsgər və zabitləri də iştirak etmişdir.

Paradı Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı Azərbaycan Prezidenti İlham Əliyev və fəxri qonaq qismində dəvət olunmuş. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan qəbul etmişdir.

Parada Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin rəisi və müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev komandanlıq etmişdir. Şuşa şəhəri azad edildikdən sonra, Azərbaycan hərbçiləri tərəfindən şəhər üzərində qaldırılan Zəfər bayrağı parada gətirilmişdir.

Müharibə zamanı qənimət kimi ələ keçirilmiş Ermənistan Silahlı Qüvvələrinə məxsus hərbi texnikanın bir qismi nümayiş olunmuşdur. Azadlıq Meydanında keçirilən hərbi paradda 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müa-

sir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirilmişdir.

Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyib Ərdoğanla yanaşı, tədbirdə yerli və xarici rəsmi qonaqlar, diplomatik korpusların nümayəndələri də iştirak etmişdilər.

Qələbə Paradının ssenari müəllifi və aparıcısı, əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani olmuşdu. Hərbi parad Azərbaycan Dövlət Televiziyası ilə canlı yayımlanmışdır. Təntənəli yürüş Azərbaycanın Əməkdar İncəsənət Xadimi polkovnik-leytenant Rüfət Axundzadənin rəhbərliyi altında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərbi Orkestri ilə müşayiət olundu, parada "Azərbaycan Fanfarı" kompozisiyası ilə başlandı.

Dəmir yumruq — Xocavənd rayonunun Hadrut qəsəbəsində qoyulmuş abidədir. Abidə 2021-ci ildə qoyulub. Hadrut qəsəbəsində yerləşən zəfər şəhidlərinin xatirə kompleksinin qarşısında yerləşən abidənin üzərində əsgər təsviri və Azərbaycan Silahlı Qüvvələrinin arsenalında yer alan pilotsuz uçuş aparatları əks olunub.

"Dəmir yumruq" Azərbaycan Ordusunun işğal altında olan torpaqların azad edilməsi uğrunda başlatdığı döyüş əməliyyatlarının adı olub.

"Plener Group" tərəfindən hazırlanmışdır. Layihənin memarı gənc memar Gülər Elxan qızıdır. Yumruq üzərində işləyən rəssamlar: Elxan Əliyev, Azər Məmmədov, Fərid Nəcəfov. Layihənin təşkilatçısı Cavid Əhmədovdur.

12 aprel 2021-ci ildən yaradılmış Hərbi Qənimətlər parkı Bakının Dənizkənarı Milli Parkında yerləşir. Park Azərbaycan Silahlı Qüvvələrinin İkinci Qarabağ müharibəsində qazandığı qələbəyə həsr olunub.

Şəhidlərimizin xatirəsinə Qaraxanbəyli kəndinin yaxınlığında



qaya parçasında abidə ucaldılıb. Qaraxanbəyli kəndi və digər beş kənd İkinci Qarabağ müharibəsinin ilk günündə azad edilmişdir".

Prezident İlham Əliyev Füzuli rayonunun Qaraxanbəyli kəndində 27 Sentyabr – Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önündə çıxışı zamanı deyib:

"Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı - Füzuli rayonunun kəndləri və Cəbrayıl rayonunun kəndləri - Böyük Mərcanlı və Nüzgar kəndi müharibənin ilk günündə azad edilmişdir. İlk şəhidləri biz məhz burada, bu yerdə vermişik. Bu abidənin yanında düşmənin səngəri yerləşirdi. Bu istiqamətdə beş-altı müdafiə xətti mövcud idi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bu müdafiə xəttini və bundan sonrakı müdafiə xətlərini yarmaq üçün ölümə gedirdi. Sözün əsl mənasında ölümə gedirdi, öz canını fəda edirdi ki, üçrəngli Bayrağımız Şuşada və o vaxt işğal altında olan digər bütün torpaqlarda dalğalansın. Öz canını fəda edirdi ki, Azərbaycan xalqı ləyaqətini bərpa etsin, ədaləti bərpa etsin və xalqımız öz torpaqlarına qayıtsın.

Bu istiqamətdən düşmənin birinci müdafiə xəttini yararaq bizim Zəfər yürüşümüz başlamışdır. 44 gün ərzində Azərbaycan Ordusu hər gün irəliyə gedirdi. Dayanmadan, durmadan, usanmadan hər gün qan tökərək, şəhidlər verərək irəliyə gedirdi, Zəfərə doğru gedirdi. Bir gün belə dayanmadı, bir gün belə geriyə addım atmadı, ancaq irəli getdi, düşməni qova-qova döyüş meydanında tarixi Zəfər çaldı. 44 gün ərzində 300-ə yaxın şəhər və kənd düşməndən azad edilmişdir. Düşmən məcbur olub kapitulyasiya aktını imzalayaraq məğlubiyyətini qəbul etdi və o vaxt hələ işğal altında olan torpaqlardan çıxmağa məcbur olmuşdur".

Bu tarixi Zəfəri bizə yaşadan şəhidlərimizə rəhmət diləyirik, qazilərimizə şəfa arzulayırıq! Gənclərimizə isə bu mühüm tarixi hadisəni unutmamağı tövsiyyə edirik.

Cəbrayıl: 04.10.2020
Füzuli: 17.10.2020
Zəngilan: 20.10.2020
Qubadlı: 25.10.2020
Şuşa: 08.11.2020
Xocavənd: 10.11.2020
Xankəndi: 10.11.2020
Xocalı: 10.11.2020
Ağdam: 20.11.2020
Kəlbəcər: 25.11.2020
Laçın:01.12.2020

***Qeyd:*** "Tovuzun fəxri". "Qəhrəmanlıq" və "Füzuli qəhrəmanları" yazılarını kitabın ideya müəllifi Xatirə Həsənova tərəfindən hazırlanmışdır.




Balacayev Qərib Nəsib oğlu 1997 - ci ildə Ağcabədi rayonunun Yuxarı Qiyəməddinli kəndində anadan olub. Ailəsi Ağdam rayonun Mərzili kəndindən məcburi köçkün olaraq Beyləqan rayonunun

Təzəkənd kəndində məskunlaşıb. Qərib 2005 - ci ildə Beyləqan rayon Təzəkənd kəndində şəhid Əliheydər Məmmədov adına tam orta məktəbə 1 - ci sinfə gedib. 2016 - ci ildə həmin məktəbi bitirib. Elə həmin ilin 8 iyulunda Ağdam rayon hərbi komissarlığından həqiqi hərbi xidmətə çağırılıb. N saylı hərbi hissədə "Rabitə kəşfiyyatşısı" kimi xidmət etmişdir. 8 yanvar 2018 - ci ildə hərbi xidməti başa vurmuşdur. 2019 - ci ildə özəl şirkətlərin birində sürücü kimi əmək fəaliyyətinə başlamışdır. Lakin işini yarımçıq qoyaraq 2019 - cu ildə 181 saylı hərbi hissədə MAXE olaraq "Baş mexanik sürücü" kimi hərbi xidmətə başlamışdır. Qərib hərbi hissədə keçirilən bir neçə yarışlarda öz ekibaj qrupunu 1 - ci yerə çıxarmışdır. O PDM 310 maşınını idarə edirdi. Qərib evin tək oğlu və subay idi. O bir çox idman yarışlarında 1 - ci və 2 - ci yerləri tutmusdur. 27 sentyabrda başlayan döyüşlərdə öz PDM ilə ilk sədd yaranlardan olub və düşmənin 8 - ə yaxın postunu məhv ediblər. 100 - ə yaxın hərbçinin həyatını xilas ediblər. Elə həmin vaxt öz komandiri kapitan Ceyhun Həsənovla birlikdə minaya düşərək qəhrəmancasına şəhid olub .

28 sentyabrda Beyləqan rayonun Təzəkənd kəndində dəfn olunub. İki bacının tək qardaşı idi. Ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və “İgidliyə görə" medalları ilə təltif olunub. Qərib də Ceyhun qədər şücaətli, Ceyhun qədər vətən sevən oğul idi. Hər ikisi eyni gündə vətənə borclarını layiqincə yerinə yetirdilər və əbədiyyətə qovuşdular.

Allah şəhidlərimizə rəhmət eləsin.



# ŞƏHİDLƏR ÖLMƏZ – VƏTƏN BÖLÜNMƏZ

Kapitan Ceyhun Həsənovun və Müddətdən Artıq Xidmət Edən Hərbi Qulluqçu Qərib Balacayevin şəhadətə qovuşması, iki ailənin ən gözəl arzularını, xəyallarını gözündə qoydu. Amma böyük bir xalqı sevincə qərq eləyən Azərbaycan zabiti və əsgəri Ana Vətənimiz qarşısında öz övladlıq borclarını layiqincə yerinə yetirdilər. Məhz Ceyhun və Qərib kimi igid oğulların qanı bahasına Vətən müharibəsində qələbə qazandıq. ŞƏHİDLİK məqamına ucalan belə oğulların adı hər birimizin dilinin əzbərinə çevrildi...

Bu gün üzərində gəzdiyimiz Vətən torpağının o igidlərin qanı ilə suvarıldığını hər bir Azərbaycan vətəndaşı dərk etməlidir. Gələcək nəsillər` üçün misilsiz qəhrəmanlıq örnəyidir şəhidlərimiz.

Bu gün müqəddəs amal uğrunda şəhadətə yüksələn oğullarımızın ruhu rahatdır. Bəli, həyat nə qədər şirin olsa da, ölüm-itim heç bir insan övladının qaça bilməyəcəyi tale yazısıdır. Amma Allah qatında seçilmiş elə insanlar var ki, onlar ölmür, cismən bu dünyanı tərk edib, ruhən Yaradana - əbədiyyətə qovuşurlar. Ölümlərin ən şərəflisi də deyirlər buna. Bu, müqəddəs şəhidlik zirvəsidir ki, hər kəsə qismət olmaz. Şəhidlər ölməz -Vətən bölünməz. deyiblər.

Unudulmaz xatirəsinə kitab həsr etdiyimiz kapitan Ceyhun Həsənovla haqqında ölkənin tanınmış ictimai-siyasi xadimlərinin fikirlərini, görkəmli elm adamlarının və jurnalistlərin nüfuzlu qəzetlərdə dərc olunmuş yazılarını oxuculara təqdim edirik.

# UNDULMAZ ÖMÜR YAŞAYAN CEYHUN



**Qənirə PAŞAYEVA**
***Milli Məclisin Mədəniyyət Komitəsinin sədri***

Azərbaycan Respublikasının ən yüksək fəxri adına – Vətən Müharibəsi Qəhrəmanı adına, dünyadakı ən yüksək titulu qazanan – qəhrəman şəhid zabitimiz Ceyhun Aydın oğlu Həsənov adına, ata adına və soyadına layiq ömür yaşayıb.

O, milli, vətəncanlı, kükrək, öz soykökünə bağlı, epos təfəkküründən gələn gənc aydınımız və gözəl simalı, gözəl ürəkli, gözəl ömürlü şəhid qəhrəmanımız oldu!

Ceyhun mənim doğulub, boya-başa çatdığım Tovuz elində, məndən 10 il sonra dünyaya gəlib. 1985-ci il oktyabrın 29-da Tovuzun dağ kəndi Çeşməlidə anadan olan Ceyhun 1992-2001-ci illərdə Xətai rayonunda Ə.Abbasov adına 257 saylı tam orta məktəbdə, 2001-2003-cü illərdə isə C.Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2004-2008-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indi Mü-



dafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən, xüsusi təyinatlı ali təhsil müəssisəsi – Heydər Əliyev adına Hərbi İnstitutda) "Motoatıcı" ixtisası üzrə ali hərbi biliklərə yiyələnib. Ceyhun 2009-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmət edib. 2019-cu ildən isə o, Beyləqanda yerləşən "N" saylı hərbi hissədə xidmət edirdi. Azərbaycan Silahlı Qüvvələrinin kapitanı Ceyhun Həsənov, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Füzuli istiqamətində qəhrəmanlıqla döyüşüb və döyüşlərin ilk günü şəhid olub. Kapitanımız İkinci Fəxri Xiyabanda dəfn edilib. 2 əkiz oğlu qəhrəmanımızdan xalqımıza əziz əmanət və yadigar qaldı.

Bəli, 35 yaşı ərəfəsində şəhid olan, yüksək ad alan bir Azərbaycan zabitinin şərəfli ömür yolundan danışırıq. Ata-anası, bacısı, bütün doğmaları, övladları və döyüşçü yoldaşları, məktəb yoldaşları, qonşuları – bir sözlə, onu tanıyan insanlar onun haqqında məhəbbətlə danışır. Xalq, dövlət tərəfindən yüksək ad almaq, bütün etimadları doğrultmaq hər kəsə nəsib olmur. Nəzərə alsaq ki, Ceyhun döyüşlərin ilk günü şəhid olub, demək, o, döyüşlərin məhz ilk günündə, belə demək mümkünsə, ən məsuliyyətli, ən çox cəsarət tələb olunan gündə elə bir qəhrəmanlıq göstərib ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev onu ən yüksək ada layiq görüb! Bu faktın özü çox şeyi ifadə edir. – "Vətən Müharibəsi Qəhrəmanı" adı Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin azad olunması zamanı düşmənin əlverişli ərazilərdə yerləşməsinə və inadlı müqavimətinə baxmayaraq, düşmən qüvvələrinin tam məğlub edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırıqlarına və Azərbaycan Respublikasının dövlət sərhədinin bərpa edilməsi üzrə döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik edilməsinə, həmçinin döyüş əməliyyatlarında göstərdiyi şəxsi qəhrəmanlığa görə verilir. Bu yüksək ad, Ceyhun Həsənova Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adının ve-

rilməsi haqqında” 09 dekabr 2020-ci il tarixli Sərəncamı əsasında verilib. Qəhrəmanımız həmçinin, “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə” medalları ilə də təltif edilib.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən Müharibəsi Qəhrəmanlarının və Azərbaycanın Milli Qəhrəmanlarının adlarının əbədiləşdirilməsini təmin etmək məqsədilə həyata keçirilmiş müvafiq tədbirlər əsasında Bakı şəhəri 48 saylı tam orta məktəbə Ceyhun Həsənovun adı verilib. Şəhid zabitimizin şəxsi əşyaları ailəsi tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin Vətən Müharibəsi Fonduna təhvil verilib.

Turançı şair Hüseyn Nihal Atsız necə deyirdi? –

“Qəhrəmanlıq nə yalnız bir yüksəliş deməkdir,
Nə də ulduzlar kimi parlayıb sönməməkdir.
Bunun üçün ölümə bir atılış gərəkdir.
Atıldıqdan sonra bir daha dönməməkdir!..”

Anası Səmayə xanım qəhrəman oğlu haqqında qürurla danışır:

“Oğlumun ruhu azad olunan torpaqlarda gəzib dolaşır. Əkiz oğulları Cahid və Cavidan böyüyəndə biləcəklər ki, onların atası kimdir.

Balaların səni şəkillərdə, tarixlərdə axtaracaq, səninlə fəxr edəcək! Vətənini balalarından, anasından yüksəkdə tutan Komandir! Ruhun şad olsun. Həyatda sənə nə əziyyət çəkmişəmsə halal edirəm. Sən də haqqını mənə halal et!”

Təsadüfi deyil ki, şəhidin atası Aydın müəllim də, qəhrəmanımızın dəfn günü həm özünə, həm də başsağlığına gələnlərə bu sözlərlə təsəlli verirdi: “İndi o, tək bizim ailənin deyil, bütün Vətənin övladıdır”.

Bəli, fiziki cəhətdən qısa, amma çox anlamlı, undulmaz ömür yaşayan Ceyhun Həsənovun işıqlı xatirəsi Dünya Azərbaycanlıları, Azərbaycanın qardaşları, dostları üçün, qəhrəmanlığı, qorxmazlığı, mərdliyi bir dəyər kimi qəbul edən hər kəs üçün əzizdir.

Qəhrəmanımızın ruhuna əbədi ehtiram!

# BİZ CEYHUNLARIN SAYƏSİNDƏ QƏLƏBƏ QAZANDIQ!



**Arzu Nağıyev,**
***Milli Məclisin deputatı***

27 sentyabr 2020-ci il Azərbaycan tarixində yeni səhifə açıldı və 44 gün ərzində bu səhifəyə qızıl hərflərlə dastan yazıldı. Bu müddətdə Vətən torpağı uğrunda canını fəda edən üç mindən çox Azərbaycan oğlu bu dastanın baş qəhrəmanlarıydı. Ali Baş Komandan İlham Əliyevin işğal altında olan torpaqlarımız uğrunda başlatdığı haqq savaşında igid oğullarımız onun səsinə səs verdi. Belə bir deyim var ki, şəhid qanı axmayan torpaqdan Vətən olmaz. Onlar bu torpaqları bizə Vətən etdilər. Əziz canlarını Vətən torpağı uğrunda fəda edib, şəhidlik zirvəsinə ucaldılar.

Birinci Qarabağ savaşı iştirakçısı və Azərbaycan Respublikası Milli Məclisinin deputatı olaraq igidlərimizin bu fədakarlıqlarını yüksək qiymətləndirirəm. Qeyd edim ki, mənim deputat seçildiyim 104 saylı Tovuz-Gədəbəy seçki dairəsi ərazisində İkinci Qarabağ savaşı və ondan sonrakı erməni təxribatlarında 55 şəhid (iki rayondan isə ümumi İkinci Qarabağ savaşında 126 nəfər) qeydə alınıb. Onlardan biri də Azərbaycan Silahlı Qüvvələrinin kapitanı Həsənov Ceyhun Aydın oğludur.

Ceyhun Həsənov İkinci Qarabağ müharibəsi şəhididir. O, 27 sentyabr 2020-ci ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Müharibənin ilk günü adını tarixə yazdıran şəhidimiz yüksək insani keyfiyyətləri, mərdliyi, qorxmazlığı və intelekti ilə fərqlənənlərdən olub. O, qısa ömrünə leytenant, kapitan, tağım komandiri, bölük komandiri hərbi rütbələrini sığdırıb. Onu da vurğulayım ki, Qarabağ uğrunda gedən mübarizədə Ceyhun Həsənovlar ailəsinin verdiyi ilk şəhid deyil. Onun iki yaxın qohumu Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalıb. Şəhidimiz iki əkiz oğul atasıdır və mən əminəm ki, övladları böyüyəndə ataları ilə fəxr edəcəklər. Azərbaycan dövlətinin şəhidlərimizə və onların ailələrinə olan xüsusi diqqət və qayğısından Ceyhun Həsənova da xüsusi pay düşür. Prezidentimizin sərəncamı ilə Ceyhun Həsənov ölümündən sonra bir neçə medalla təltif olunmuşdur, ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" (09.12.2020) adı, "Vətən uğrunda" (15.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020), "Qubadlının azad olunmasına görə" (29.12.2020) medalları verilmişdir.

Bu gün bizim ən böyük təsəllimiz odur ki, Ali Baş Komandanın qətiyyətli siyasəti, sarsılmaz iradəsi və Ordumuzun şücaəti nəticəsində şəhidlərimizin qanı yerdə qalmadı. Biz qələbə qazandıq!

Azərbaycan Respublikasının vətəndaşı olaraq, Ceyhun Həsənovun timsalında tarixin bütün dövrlərində Azərbaycan torpağına qanı tökülən şəhidlərimizə Tanrıdan rəhmət diləyirəm və ruhları qarşısında baş əyirəm!



# YUSİF SURƏTLİ, DƏMİR SƏSLİ ŞƏHİDİMİZ




**Əzizağa Nəcəfzadə,**
***filologiya üzrə fəlsəfə doktoru, dosent,***
***2002-2014-cü illərdə C. Naxçıvanski adına Hərbi Liseyin***
***Azərbaycan dili və ədəbiyyat müəllimi***

Mən pedaqoji fəaliyyətə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycan dili və ədəbiyyat müəllimi kimi başlamışam. Əsası Ümummilli lider, ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu liseydə ilk dərsim 1 sentyabr 2002-ci il tarixində 2022-ci tağımda olub. Sinfə girdiyimdə məni gülər üzlü, eyni zamanda yaşlarına müxalif olan ciddi simalı kursantlar qarşılamışdı. Onların içərisində Yusif surətli, dəmir səsli Ceyhun Həsənov da var idi. O, manqa komandiri kimi, mənə raport verib, dərsə hazır olduqları-




nı bəyan etdi. Elə o an başa düşdüm ki, Ceyhun komandir olmaq üçün doğulanlardandır.

İki tədris ili ərzində (Mən onlara II kursda müəllim təyin olunmuşdum) əksər kursantlarla aramızda müəllim-şagird münasibətindən daha çox, dost, böyük-kiçik qardaş münasibəti yaranmışdı. Axı onlar ilə mənim aramda cəmi 5-6 yaş fərq var idi. Liseydə mənim təşəbbüsüm, məktəb rəhbərliyinin icazəsi və dərs dediyim kursantların iştirakı ilə mütəmadi hərbi-vətənpərvərlik tədbirləri, fənn gecələri təşkil olunurdu. Lisey divarları arasında hər şənbə “Kursant səhəri” radiosunda gənc müdavimlər vətənpərvər mövzuda şeirlər səsləndirirdi, ayda bir dəfə “Naxçıvanskinin səsi” divar qəzeti hazırlanırdı. Biz müəllimlər, komandirlər çalışırdıq ki, kursantları gələcəyin komandirləri kimi tərbiyə edək. Kursantlar özləri də bu işdə fəal iştirak edir, bizə yardım göstərir, maraqlı təkliflərlə çıxış edirdilər. Onların içərisində Ceyhun Həsənov xüsusi seçilirdi. O hər tədbirdə mənə kömək edirdi. Gözəl nitq qabiliyyəti, komandir səsi olduğundan hər tədbirdə aparıcı olur, şeir oxuyur, səhnəciklərdə baş rol ifa edirdi. Axı Ceyhun liseydə fəaliyyət göstərən Gənc natiqlər dərnəyinin də üzvü idi. Yaxşı yadımdadır, böyük türk ədbi və mütəfəkkiri Namik Kamalın həyat və yaradıcılığına həsr etdiyimiz ədəbiyyat gecəsində o, böyük vətənpərvər şairin obrazını canlandırmışdı. Bu uğuru sonralar qələmə aldığım və Ulu öndər Heydər Əliyevin əziz xatirəsiə həsr etdiyim “Həmişəyaşar məhəbbət” adlı bir pərdəli dram əsərində baş qəhrəmanı canlandırmaq üçün seçim edərkən onun üzərində dayanmağıma səbəb oldu. Ceyhun da ona tapşırılan bu məsuliyyətli işin öhdəsindən müvəffəqiyyətlə gəldi.

O, əslən Tovuzdan idi. Azərbaycanın bu dilbər guşəsindən olub, ədəbiyyata, şeirə, sənətə həvəs göstərməmək olmur axı. Heç qəribə deyil ki, liseydə kursantlar arasında təşkil olunan hərbi-vətənpərvərlik mövzusunda inşa müsabiqəsində də, bədii qiraət müsabiqələrində də Ceyhun həmişə qaliblər sırasında



olurdu. Müəlliminin başını həmkarları arasında uca edirdi. Onun dəmir səsinə, lətif nitqinə hər şeir uyuşur, Nizami, Füzuli əsərləri Ceyhunun ifasında daha gözəl səslənir, Səməd Vurğun, Bəxtiyar Vahabzadə Ceyhunun dili ilə daha inamla, daha mətin, daha qətiyyətli danışırdı.

O, eyni zamanda dərslərini də yaxşı oxuyur, kursant yoldaşları arasında seçilirdi. Ceyhun liseyi bitirəndə boylu-buxunlu, enlikürək gənc olmuşdu. Axı o həm də idmanla məşğul olurdu. Güləş yarışlarında təmsil etdiyi liseyin komandasına dəfələrlə fəxri fərman, kubok və medal gətirmişdi. Əlamətdar günlərdə sıra toplantılarında, hərbi keçidlərdə liseyin bayrağını daşıyan üçlükdə Ceyhun daim yer alırdı, avtomatı sinəsinə basıb, üçrəngli bayrağa qürurla baxaraq mətn addımlarla irəliləyirdi.

Hamı Ceyhunu sevir, onunla fəxr edirdi. O, dostlarının da istəklisi idi. Yaşıdları arasında hörməti vardı. Artıq danışmaz, yersiz zarafat etməz, boş vaxtlarında mütaliə edərdi. O elə gəncəliyindən bir ağsaqqal idi.

Ceyhun heç zaman nailiyyətləri ilə qürrələnməzdi, əksinə müəllimləri və komandirləri onu tərif edəndə yanaqları qızarar, başını aşağı salardı.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirəndən sonra uzun müddət onu görməmişdim. Ali məktəbi "Motoatıcı" ixtisası üzrə bitirən Ceyhun Naxçıvanda, Beyləqanda xidmət etmişdi. Eşitmişdim ki, kapitan rütbəsinə qaədər yüksəlib, uğurlu xidmət tarixçəsi var, şəxsi heyət də, komandirləri də onu sevir, ona hörmət edirlər.

27 sentyabr 2020-ci il tarixində kapitan Ceyhun Həsənovun Füzuli döyüşləri zamanı şəhadət şərbətini içdiyi xəbərini aldım. Televiziya ekranında onun nurlu şəklini görəndə sarsıldım. Hər zaman birincilər sırasında olan Ceyhun Vətən müharibəsi şəhidləri arasında da birincilərdən oldu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali baş komandanı İlham Əliyevin müva-





fiq Sərəncamlarıına əsasən, Ceyhun Həsənovun ölümündən sonra 09 dekabr 2020-ci il tarixində Qarabağımızın düşmən tapdağından azad edilməsi uğrunda aparılan döyüş əməliyyatları zamanı şəxsi igidliyinə və şücaət nümayiş etdirdiyinə görə “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görülməsi, 15 dekabr 2020-ci il tarixində qarşısında qoyulmuş döyüş tapşırıqlarının icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün “Vətən uğrunda” medalı ilə, 25 dekabr 2020-ci il tarixində “Füzulinin azad olunmasına görə” medalı ilə, 29 dekabr 2020-ci il tarixində “Qubadlının azad olunmasına görə” medalı ilə, 24 iyun 2021-ci il tarixində “Şuşanın azad olunmasına görə” medalı ilə təltif edildiyi xəbərlərini aldıqca bu Vətən oğlunu tanıdığım üçün qürur duyur, hər dəfə daha çox fərəhlənirdim. Gözümün önündə Ceyhunun: “Müəllim, yenə medalla təltif olundum”, “Yenə birinci yerə çıxdım”, – deyərək auditoriyaya daxil olduğu günləri xatırlayırdım.

Onun haqqında mətbuatda, sosial şəbəkələrdə çox yazılır, televiziya ekranlarında çox danışılır. Lakin bunlar Ceyhunu anlatmağa yetmir. Onun içi bir dərya, çölü bir əzəmətli qaya kimi idi. Nə qədər sərt idisə, bir o qədər həssas idi Ceyhun.

Ceyhunun həyatının böyük bir hissəsi Bakı şəhərinin Xətai rayonu ilə bağlıdır. O, bu rayonun ərazisində yaşayıb, boya-başa çatıb, orta məktəbə gedib, hərbi liseydə oxuyub. Bu xatirələrin əbədiləşdirilməsi üçün artıq bir sıra mühüm addımlar atılıb.

29 iyul 20021-ci il tarixində Xətai rayonu ərazisində möhtəşəm xatirə lövhəsi ucaldılıb. 1 noyabr 2021-ci il tarixində Bakı şəhər İcra Hakimiyyətinin müvafiq sərəncamı ilə Sadıqcan küçəsinə, 4 noyabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti, Ali baş komandan İlham Əliyevin fərmanı ilə Bakı şəhəri Xətai rayonu 48 saylı tam orta məktəbə onu adı verilib.

İndi “Vətən müharibəsi qəhrəmanı” kaptan Ceyhun Həsənovdan bizə iki əkiz oğul övladı – Cahid və Cavidan yadigar qalıb. Onun əmanətləri, atası, anası, həyat yoldaşı bu gün bizə, dövləti-



mizə, xalqımıza əmanətdir. Çünki Ceyhun həmişə: "Öncə Vətən, sonra ana!" – deyərdi.

Bu günlərdə İctimai Televiziya Ceyhun haqında sənədli film çəkilişləri edirdi. Mən də Ceyhunun müəllimi kimi atası Aydın müəllim tərəfindən çəkilişdə iştirak etmək üçün dəvət olunmuşdum. O zaman balaca Cahid və Cavidanın əlində üçrəngli bayraq, "Azərbaycan" deyərək atalarının abidəsinə doğru qaçdıqlarını görəndə ürəyim fərəhlə doldu. Anladım ki, nə qədər qəlbimizdə Vətən eşqi var, bu elin-obanın igidləri tükənməyəcək.

Mənim bu həyatda çox nailiyyətlərim olub. Onlarda mənim müəllimlərimin, valideynlərimin, ustadlarımın rolu böyükdür. Lakin vaxtılə hərbi liseydə dərs dediyim Ceyhun kimi kursantlarım mənə bir şərəfli ad da qazandırıb: "Vətən Müharibəsi Qəhrəmanı"nın müəllimi. Ceyhun, buna görə sənin ruhun qarşısında baş əyir, səni dünyaya gətirən, tərbiyə edən ata-ananın əllərindən öpürəm. Sənin xatirən mənim qəlbimdə əbədi yaşayacaq, o Yusif surətli çöhrən gözümün önündən heç zaman getməyəcək, dəmir səsin hər zaman qulaqlarımda səslənəcəkdir.

Allah bütün şəhidlərimiziə rəhmət eləsin!

Ruhun şad olsun, öpüb and içdiyin o üçrəngli bayrağın kölgəsində rahat uyu. Qarabağ azaddır, bunda sənin də payın var. Sən öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirə bildin. Şəhidlər ölmür, sən də əbədi yaşayacaqsan!



## Şəhidlərin xatirəsinə həsr olunan "Şəhidlər ölməz - Vətən bölünməz!" adlı anım mərasimləri keçirilib





Vətən Müharibəsi Qəhrəmanlarımız

## "Öncə Vətən, sonra ana!" - deyən şəhidimiz





Filologiya üzrə fəlsəfə doktoru, dosent



# ŞAH XƏTAİNİN ADINI DAŞIYAN RAYONUN İGİD OĞLU



**Əkbər QOŞALI,**
***Beynəlxalq "Alaş" Ədəbiyyat Mükafatı laureatı***

Ceyhun Aydın oğlu Həsənov Tovuzun Çeşməli kəndində doğulub, sonra ailəsi ilə birgə paytaxt Bakının Xətai rayonuna köçüb. 1992-ci ildə Xətaidəki 257 saylı orta məktəbə gedib. Məktəb şəhid Ədalət Abbasovun adını daşıyır. Orta məktəbdə oxuduğu müddətdə basketbol yarışlarında, habelə fənn olimpiadalarında uğurla iştirak edib.

2001-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olan Ceyhun Aydınoğlu, oxuduğu müddətdə tağım komandiri olub.

Təhsil illərində güləş, cüdo, eləcə də, bədii qiraət yarışlarına qatılıb, fəxri yerlər tutub, "Diplom"larla təltif olunub. – Göründüyü kimi, onda fiziki hazırlıqla yanaşı ədəbi-mədəni, mənəvi hazırlıq da yerində olub və belə bir hazırlıq içində olması, onun gələcəkdə kamil zabit olaraq yetişməsinə də təsirsiz ötüşməyib.

Taleyin təvafüqlüyüdür hər halda: dağlar qoynunda doğulub, dəniz qıyısına köçüb, ulu şahımız-şairimiz Xətainin adını daşıyan rayonda yaşayıb, şəhid adı daşıyan məktəbdə, ardınca Hərbi Liseydə oxuyub, hər iki təhsil ocağında oxuyarkən fərqlənib. – Adı kimi, atasının adı kimi və də soyadı kimi kimi yetişib: milli, soykökə bağlı, vətəncanlı, xeyirxah... aydın kimi aydın... və də gözəl ürəkli, gözəl qamətli – əsl Azərbaycan zabiti necə olarsa, Ceyhun Aydın oğlu Həsənov elə zabit olub. – Bunu onun sonrakı ömür yolu təsdiq edir:

Ceyhun 2004-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indi Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən, xüsusi təyinatlı ali təhsil müəssisəsi – Heydər Əliyev adına Hərbi İnstituta) daxil olub. Orada təhsil aldığı müddətdə manqa komandiri vəzifəsini icra edib. 2008-ci ildə həmin məktəbi "Motoatıcı" ixtisası üzrə bitirib, leytenant rütbəsi alıb.

2009-cu ildə Müdafiə Nazirinin əmri ilə Naxçıvan Muxtar Respublikasına göndərilib. 02 iyun 2010-cu ildə "N" saylı hərbi hissəyə tağım komandiri təyin edilib.

27 iyun 2011-ci ildə Baş leytenant hərbi rütbəsi alan Ceyhun Həsənov, Əlahiddə Ümumqoşun Ordu komandanının Əmrinə əsasən 4 noyabr 2011-ci ildə "N" saylı hərbi hissədə bölük komandiri təyin edilib.

Ceyhun Həsənov 15 sentyabr 2015-ci ildə növbəti – kapitan hərbi rütbəsi alıb. Kapitan ön xətdə - Culfa, Şahbuz, Ordubad, Qıvraq, Şərur və Sədərəkdə xidmət edib.

Cəsur zabitimiz 21 oktyabr 2019-cu ildə Beyləqandakı "N"



saylı hərbi hissəyə göndərilib.

O, 01.07.2018-ci ildə həyatı qurub. 2019-cu il avqustun 6-da əkiz oğulları dünyaya gəlib.

Azərbaycan Vətən Müharibəsi başladığı ilk gün kapitan Ceyhun Həsənov da ön cəbhədə, döyüşlərdəydi. O, Füzuli, Cəbrayıl, Xocavənd yönündəki uğurlu əks-həmlədə, torpaqlarımızın düşmən tapdağından qurtuluşunda bir cəsur Bölük komandiri olaraq fədakarlıqla iştirak edib, öndə gedib. Əsl Azərbaycan zabiti kimi, "Ardımca!" deyib – əsgərlərini özündən irəli buraxmayıb. Ceyhun qutsal görəvdə olduğunu idrak edən, əsgərlərinə örnək olan zabit idi!

Kapitan Həsənov 35 yaşında Füzuli yönündə gedən döyüşlərdə şəhid oldu – 44 gün sürəcək II Qarabağ müharibəsinin ilk günü!.. Şəhid kapitanımız 2020-ci il sentyabrın 29-da Bakıdakı II Fəxri Xiyabanda canından artıq sevdiyi Vətən torpağına tapşırıldı.

Azərbaycan Respublikası Prezidentinin 09 dekabr 2020-ci il tarixli Sərəncamı ilə ona dövlətimizin ən yüksək – "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi. Bu möhtəşəm təltif Ceyhunun Vətən qarşısındakı xidmətinin dərəcəsini, əyarını ifadə edir – döyüşlərin ilk günü şəhid olan zabitimiz adına, görəvinə, zabit şəxsiyyətinə uyğun xidmət göstərib!

Ruhu şad olsun! Şuşada dalğalanan və yeni milli hədəflərimizi göstərən müqəddəs bayrağımızdan qəhrəman şəhidlərimizin ruhuna salam var!

Şəhidlər ölməz, Vətən bölünməz!

VƏTƏN SAĞ OLSUN!



## QƏHRƏMANLAR ÖLMÜR
## (Vətən Müharibəsi Qəhrəmanı
## Ceyhun Həsənov)



Bir türk bir orduya bərabərdir - deyimi günümüzə qədər təsdiqini tapmaqdadır. Vətən Müharibəsi Qəhrəmanı Ceyhun Həsənov da həmin türklərdəndir. Ceyhun Həsənovun doğulduğu Tovuz rayonu düşmənə bir qarış da torpağını verməmişdi. Şəhidlik zirvəsinə ucaldığı Füzuli rayonu isə otuz ilə yaxın düşmən tapdağında qalmışdı.

Ceyhun Həsənov canından keçdi, amma Füzuli rayonunu da öz doğma rayonu Tovuz kimi azadlığına qovuşdurdu. Bu fədakarlıq Qarabağın xilasının bünövrəsini qoydu.

Onun kimi oğulların cəsurluğu sayəsində döyüşlərin ilk günündəcə düşmənin gözünün odu alındı. Bir gün içərisində Cəbrayıl, Xocavənd, Füzuli istiqamətində apardığı uğurlu əks-həmlə döyüşlərində qələbənin təməlini qoydu.

Bir günlük həyati əhəmiyyətli döyüş yolu üçün 35 illik ömür yolu keçmişdi kapitan Ceyhun Aydın oğlu Həsənov. Tovuz rayonunun Çeşməli kəndində doğulmuş, Bakıda böyümüş, Naxçıvanda və Beyləqanda işləmiş, Füzulidə şəhid olmuşdu. 35 ilin qısaca xronikası belədir. Bu illərin içərisində şəxsiyyəti və ləyaqəti ilə özünə



hörmət qazanmağı bacarmışdı. Uşaqlığından bir çox sahələrdə uğurlu addımlar atmışdı. Lakin ən böyük uğuru əsl peşəkar hərbçi kimi özünü təsdiqləməsi idi.

Bir Azərbaycan zabiti kimi ömrünü qələbəyə həsr etmişdi. Hələ müharibədən əvvəl, üç aya yaxın təlimlərdə iştirakçı olmuşdu. Onun şəxsi heyətində 80-ə yaxın canlı qüvvə var idi. Müharibəyə öz şəxsi heyəti və ona aid 7 BMP, 4 tank, bir neçə texnika ilə başlamışdı. Klassik türk komandanları kimi komandir Ceyhun Həsənovun BMP-si döyüşün önündə gedirdi. Şəxsi heyətinə isə "ardımca irəli!" - əmrini vermişdi. Hətta özü vurularsa da, əsgərlərinə onu xilas etməyi yox, döyüşü davam etdirməyi tapşırmışdı. Ceyhun Həsənovun sərkərdəlik məharəti sayəsində bir neçə yüksəkliyi, üç erməni postunu məhv edən ordumuz ermənilərin birinci eşalonunu darmadağın etmişdi. Mənfur düşmən isə hər tərəfdən, hər növ silahdan istifadə edərək müqavimət göstərməyə can atırdı.

Düşmənlərin sağ tərəfdən döyüşçülərimizi mühasirəyə almaq üçün hərəkətə keçdiyini görən Ceyhun Həsənov çox təhlükəli olduğunu bilərək, sağ tərəfdən düşmənin üzərinə yeridi. 60-a yaxın döyüşçünün mühasirəyə düşməməsi üçün çox riskli addım atdı və istəyinə nail oldu. Düşmənləri tamamilə məğlubiyyətə uğratdı. Həmin yerdən geri dönəndə BMP-si tank əleyhinə minaya düşmuş və kapitan Ceyhun Həsənov qəhrəmancasına şəhid olmuşdur. Beləliklə, onun şəxsi heyəti Füzulinin azadlığı uğrunda ilk səddi yaran heyət oldu. Düşmənin keçilməz adlandırdığı səddi komandir Ceyhun Həsənovun rəhbərliyi altında döyüşənlər darmadağın etdi.

Vətən müharibəsinin şəhidi Ceyhun Həsənov ikinci Fəxri xiyabanda - general-mayor Polad Həşimovun məzarının yaxınlığında torpağa tapşırıldı. Ruhun şad olsun, ölməz şəhidimiz. Qalib Azərbaycan ordusu qanını yerdə qoymadı, uğrunda canından keçdiyin vətən torpaqları azadlığına qovuşdu. Tanrı hər birinizə rəhmət etsin!

**Gülnar Səma**

# ŞƏHİD KAPİTAN CEYHUN HƏSƏNOVUN DÖYÜŞKƏN YOLU





Azərbaycan Silahlı Qüvvələrinin kapitanı, Vətən müharibəsinin şəhidi Ceyhun Aydın oğlu Həsənov 1985-ci il oktyabrın 29-da Tovuz rayonunun Çeşməli kəndində dünyaya göz açmışdı. Bakıda böyümüş, Naxçıvanda və Beyləqanda işləmişdi. Vətən müharibəsinin ilk günündə – 27 sentyabr 2020-ci ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə canını vətənə fəda etdi.

O, ilk təhsilini Xətai rayonunda Ədalət Abbasov adına 257 nömrəli tam orta məktəbdə (1992-2001) almışdı. Sonralar Cəmşid Naxçıvanski adına Hərbi Liseydə (2001-2003) və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (2004-2008) hərb elminin sirlərinə yiyələnmişdir. Təhsilini davam etdirmək üçün Təlim Tədris Mərkəzinə Bakı Ali Birləşmiş Komandirlər məktəbində zabit ixtisası kursuna göndərilmişdir.

Orta məktəbdə oxuduğu müddətdə basketbol yarışlarında, fənn olimpiadalarında, müdavim vaxtlarında güləş yarışlarında, sonralar Azərbaycan Respublikası Silahlı Qüvvələrinin cüdo birinciliyində qalibiyyətin qürurunu yaşamışdı. Ailəsinin yaxın qohumu, Müdafiə Nazirliyi mətbuat xidmətinin zabiti şəhid İlqar Verdiyevin uğurları Ceyhunun hərb sənətini seçməsinə həvəs yaratmışdı. Bununla belə, dayısı Məstan Novruzov və iki yaxın qohumu birinci Qarabağ döyüşlərində şəhidlik zirvəsini fəht etmişdi. Ailə gələnəklərini peşəsi ilə davam etdirən Ceyhun 2018-ci ilin 1 iyulunda ailə qurmuş, 2019-cu ilin 6 avqustunda əkiz oğlanları Cahid və Cavidan dünyaya gəlmişdir.

2008-ci ildə leytenant, 27 iyun 2011-ci ildə baş leytenant, 15 sentyabr 2015-ci ildə kapitan hərbi rütbəsinə yiyələnmişdi. Cəmşid Naxçıvanski adına hərbi litseydə oxuduğu müddətdə tağım komandiri, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil aldığı müddətdə manqa komandiri vəzifəsini icra etmişdir. 2010-cu ilin 2 iyun tarixindən N saylı hərbi hissəyə tağım komandiri, 04 noyabr 2011-ci ildən Əlahiddə Ümumqoşun Ordu komandanının Əmrinə əsasən N saylı hərbi hissəyə bölük komandiri təyin

olunmuşdu.

2008-ci ildə AAHM-i “Motoatıcı” itisası üzrə bitirdikdən sonra 2009-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən N saylı hərbi hissəsində, Culfa, Şahbuz, Ordubad, Qıvraq, Şərur və Sədərəkdə ön xətdə hərbi vəzifəsini yerinə yetirmişdir. 21 oktyabr 2019-cu ildən Beyləqandakı N saylı hərbi hissədə çalışırdı. Vətən müharibəsi başlayan gün Cəbrayıl, Xocavənd, Füzuli istiqamətində uğurlu əks-həmlə döyüşlərində tarix yazanlardan oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Ceyhun Həsənova ölümündən sonra “Vətən Müharibəsi Qəhrəmanı” (09.12.2020) adı, “Vətən uğrunda” (15.12.2020), “Füzulinin azad olunmasına görə” (25.12.2020), “Qubadlının azad olunmasına görə” (29.12.2020) medalları verilmişdir.

Evin tək oğlu olan şəhid kapitanımızın örnək həyat tarixçəsi yaddaşlara həkk olunsun deyə barəsində bir neçə yazı dərc olunmuşdur. Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva şəhidlər haqqında silsilə yazılarında Vətən Müharibəsi Qəhrəmanı, şəhid kapitan Ceyhun Həsənovdan da söz açıb. “525-ci qəzet”in “Əbədiyyətdəki əziz ünvanlarımız” rubrikasında Şahanə Müşfiq onun da ömür yolundan bəhs edib. Bunlardan başqa “İgid oğulların qələbə əzmi tükənməzdir”, “Zirvəyə ucalan ömür – kapitan Ceyhun Həsənov” və başqa məqalələrdə onun döyüşkən ömür yoluna nəzər salınmışdır. Həmçinin, vikipediyası hazırlanmış, yutubda çoxlu video-görüntüləri yerləşdirilmişdir.

Bütün bunlardan əlavə onun ilk və son savaş gününün təfərrüatlarını döyüş yoldaşlarından biri, çavuş Şahin Mehdiyev belə nəql edir: “Biz bir yerdə üç aya yaxın idi ki, təlim keçirdik. Komanda çox böyük ruh yüksəkliyi ilə çalışırdı. Demək olar ki, üç ay idi gecə-gündüz daim bir yerdə olurduq, komandirə məxsus olan heyətlə birlikdə. Ceyhun Həsənov Beyləqan rayonunda N say-



lı hərbi hissədə bölük komandiri vəzifəsində çalışırdı. Ceyhunun şəxsi heyətində 80-ə yaxın canlı qüvvə var idi. Həmçinin Ceyhun Həsənov BMP komandiri də olub.

Nankor düşmənlərimiz, yəni ermənilər atəşkəsi yenidən pozdular. Artıq bunları susdurmaq zamanı çatmışdı, bu erməni vandallarını yerində oturtmalıyıq – deyə Prezidentimiz əmr verdi: “Bu gözüdönmüşləri rədd edin Azərbaycan torpaqlarından”. Ordumuz bu əmri çoxdan gözləyirdi. Hamı bir nəfər kimi böyük ruh yüksəkliyi ilə hərəkətə başladı. Həmin anı gözləyən kapitan Həsənov Ceyhun komandirinin tapşırığı ilə 27 sentyabr 2020-ci ildə döyüşə hazırlaşdı. Ceyhun öz şəxsi heyəti və ona məxsus olan 7 BMP, 4 tank, bir neçə texnika ilə hərəkətə keçdi.

Ceyhun şəxsi heyətini hərtərəfli təlimatlandırdı: “Biz güclü olmalıyıq, hamı bir nəfər kimi ardımca irəli”. Onu da demişdi ki, “ola bilər mənfur düşmən mən oturduğum BMP-ni vurar, amma mənim igidlərim, birdən dayanarsınız ki, mənə kömək göstərəsiniz. Sizə mən əmr verirəm və tapşırıram ki, dayanmadan irəli”. Necə demişdi, elə də oldu. Hücuma keçdik. Komandirin BMP-si öndə idi. Şiddətli döyüş gedirdi. Hər tərəfdən bizi atəşə tutmuşdular. Bir neçə texnikamız sıradan çıxdı. Şəhidlərimiz var idi. Buna baxmayaraq Ceyhun Həsənovun bacarığı sayəsində bir neçə yüksəkliyi aldıq, üç erməni postunu məhv etdik. Füzulinin azadlığı uğrunda gedən şiddətli döyüşdə idik. Uğurlarımızı gördükcə sevincimizin həddi-hüdudu yox idi. Ermənilərin birinci eşalonunu darmadağın etdik. Komandirin hər an bir sözü var idi: “İgidlərim, arxamca irəli”. Döyüş çox şiddətləndi. Mənfur düşmən hər tərəfdən, hər növ silahdan istifadə edirdi. Bizi məğlub etməyə çalışırdı, amma ordumuz elə həvəslə vuruşurdu ki, belə ordunun qabağını kəsmək mümkün deyildi. Ağır artilleriyaların atılmasına məhəl qoymayan komandir – “igidlərim, irəli” – deyə qışqırırdı. Komandir kordinatları bir-bir mənə ötürürdü, mən həmin hədəfləri vururdum.

Mən Şahin Mehdiyev komandir oturduğu BMP-nin tuşlayıcısı





idim. BMP-nin sürücüsü isə Qərib Balacayev idi. Komandir tez-tez deyirdi: “Afərin, igidlərim”. Əlbəttə, bu söz bizə böyük ruh yüksəkliyi verirdi. Bizə verilən tapşırığı yerinə yetirdik, istədiyimiz mövqeləri tutduq. Komandir gördü ki, mənfur düşmən sağdan bizim heyəti mühasirəyə almaq üçün hərəkətə keçib, əmr verdi ki, Qərib, BMP-ni çevir sağa. Komandir bilirdi ki, ora girmək çox təhlükəli idi. O, bizə dedi, “yoldaşlar, başqa yolumuz yoxdur. Yoxsa bizim 60-a yaxın heyəti mühasirəyə alacaqlar”. “Qərib, irəli” – deyərək əmr verdi. Komandir Ceyhun Həsənov istədiyinə nail oldu. Düşmənlər tam məğlubiyyətə uğradıldı. Amma çox təəssüf ki, biz geri dönəndə BMP tank əleyhinə minaya düşdü. Kapitan Ceyhun Həsənov qəhrəmancasına şəhid oldu…

O, son nəfəsində belə dedi: “Şahin, sonuncu mövqeni vurduq?” Mən isə cavab verdim, bəli, komandir, vurduq. Gülümsəyərək əlimi sıxdı. Gözlərini yumaraq şəhidlik zirvəsinə yüksəldi. Mən özüm də yaralanmışdım. Sonra bilmədim necə oldu… Ceyhunda o qədər qəhrəmanlıq hissi, qorxmazlıq, mərdlik hissi var idi ki. Ona bu qəhrəmanlıq adı azdır. O, çox böyük hünərli, savadlı, həm də bacarıqlı idi. Ruhun şad olsun, Komandir!

Füzulinin azadlığı uğrunda ilk səddi yaran heyət bizim heyət idi. Düşmənin keçilməz adlandırdığı səddi komandir Ceyhun Həsənovun rəhbərliyi altında darmadağın edib keçdik. Eyni zamanda komandirin BMP-sini idarə edən sürücü Qərib Balacayev də şəhid oldu. Komandirlə Qərib ikisi birlikdə şəhid oldu. Ruhunuz şad olsun. Bütün şəhidlərimizə Allah rəhmət eləsin. Kapitan Həsənov Ceyhunun timsalında öz qanları ilə tarix yazanlar, haqqınız ödənməzdir”.

Nurəddin Muğanlının “İki sahil” qəzetində çap olunan “İgid oğulların qələbə əzmi tükənməzdir” yazısından şəhid kapitanımızla vida mərasiminin detallarını öyrənmək mümkünür: “Kapitan Ceyhun Həsənovun üçrəngli bayrağımıza bürünmüş cənazəsini Xətai rayonunun ictimaiyyət nümayəndələri, sadə vətəndaşları



böyük bir qələbəliklə qarşıladı. Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quliyev, Müdafiə Nazirliyinin nümayəndələri, rayonun gəncləri şəhidin cənazəsini vaxtilə yaşadığı binanın qarşısından fəxri qarovulun və izdihamın müşayiətilə son mənzilə yola saldılar. Azərbaycan Respublikasının Himninin sədaları və fəxri qarovul dəstəsinin yaylım atəşi altında ikinci Fəxri xiyabanda – general-mayor Polad Həşimovun məzarının yaxınlığında torpağa tapşırılandan sonra şəhid zabitimizin tabutu üzərindəki Azərbaycanın üçrəngli bayrağı atası Aydın Həsənova təqdim edildi".

Bir oğul anası olub, onu da vətən uğrunda şəhid vermiş Həsənova Səmayə xanım balası haqqında qürurla danışır: "Oğlum, azad etdiyin torpaqlarda ruhun gəzəcək. Bir də, onu demək istəyirəm ki, avqustun 6-da əkiz oğul övladlarının ad gününü, ilk yaşlarını qeyd etdin, amma bir daha qeyd edə bilməyəcəksən. Böyüyəndə biləcəklər ki, onların atası kimdir. Balaların səni şəkillərdə, tarixlərdə axtaracaq, səninlə fəxr edəcək məsum körpələrin. Vətənini balalarından, anasından yüksəkdə tutan Komandir. Ruhun şad olsun. Həmişə atalar deyərdi: "Anaların borcunu heç nə ilə qaytarmaq olmaz". Amma indi mən belə deyirəm ki, oğul, sənin borcunu heç nə ilə qaytara bilmərəm. Həyatda sənə nə əziyyət çəkmişəmsə halal edirəm. Sən də haqqını mənə halal elə!"

**Gülnar Səma**

***Hərbi And.- 2021.- 9 aprel.- S.9.***



***Zəruri qeyd:*** Gülnar Səma - Gülnar Vaqif qızı Qasımlı Prezident təqaüdçüsü, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutun İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri, Azərbaycan Yazıçılar Birliyinin və Dünya Gənc Türk Yazarlar Birliyinin üzvü, Beynəlxalq Mahmud Kaşğari Mükafatı laureatıdır. AMEA Ədəbiyyat İnstitutunun 29 yanvar 2021-ci il tarixində keçirilən Elmi şurasının qərarı ilə "İlin gənc alimi-2020" nominasiyasına layiq görülüb."Gənc Ədiblər Məktəbi"nin müdavimi, Azərbaycan Jurnalistlər Birliyinin Sumqayıt şəhər təşkilatının "Gündəlik Analitik İnformasiya Agentliyi"nin və Azərbaycanın Mədəniyyət və Ədəbiyyat Portalının Tovuz bürosunun rəhbəridir. **Şəhid kapitan Ceyhun Həsənov haqqında silsilə yazıların müəllifidir.**

***

Azərbaycan Silahlı Qüvvələrinin kapitanı, Vətən müharibəsinin şəhidi Ceyhun Aydın oğlu Həsənov 1985-ci il oktyabrın 29-da Tovuz rayonunun Çeşməli kəndində dünyaya göz açmışdı. Bakıda



böyümüş, Naxçıvanda və Beyləqanda işləmişdi. Vətən müharibəsinin ilk günündə - 27 sentyabr 2020-ci ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə canını vətənə fəda etdi.

O, ilk təhsilini Xətai rayonunda Ədalət Abbasov adına 257 nömrəli tam orta məktəbdə (1992-2001) almışdı. Sonralar Cəmşid Naxçıvanski adına Hərbi Liseydə (2001-2003) və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (2004-2008) hərb elminin sirlərinə yiyələnmişdir. Təhsilini davam etdirmək üçün Təlim Tədris Mərkəzinə Bakı Ali Birləşmiş Komandirlər məktəbində zabit ixtisası kursuna göndərilmişdir.

Orta məktəbdə oxuduğu müddətdə basketbol yarışlarında, fənn olimpiadalarında, müdavim vaxtlarında güləş yarışlarında, sonralar Azərbaycan Respublikası Silahlı Qüvvələrinin cüdo birinciliyində qalibiyyətin qürurunu yaşamışdı. Ailəsinin yaxın qohumu, Müdafiə Nazirliyi mətbuat xidmətinin zabiti şəhid İlqar Verdiyevin uğurları Ceyhunun hərb sənətini seçməsinə həvəs yaratmışdı. Bununla belə, dayısı Məstan Novruzov və iki yaxın qohumu birinci Qarabağ döyüşlərində şəhidlik zirvəsini fəht etmişdi. Ailə gələnəklərini peşəsi ilə davam etdirən Ceyhun 2018-ci ilin 1 iyulunda ailə qurmuş, 2019-cu ilin 6 avqustunda əkiz oğlanları Cahid və Cavidan dünyaya gəlmişdir.

2008-ci ildə leytenant, 27 iyun 2011-ci ildə baş leytenant, 15 sentyabr 2015-ci ildə kapitan hərbi rütbəsinə yiyələnmişdi. Cəmşid Naxçıvanski adına hərbi litseydə oxuduğu müddətdə tağım komandiri, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil aldığı müddətdə manqa komandiri vəzifəsini icra etmişdir. 2010-cu ilin 2 iyun tarixindən N saylı hərbi hissəyə tağım komandiri, 04 noyabr 2011-ci ildən Əlahiddə Ümumqoşun Ordu komandanının Əmrinə əsasən N saylı hərbi hissəyə bölük komandiri təyin olunmuşdu.

2008-ci ildə AAHM-i "Motoatıcı" itisası üzrə bitirdikdən sonra 2009-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan

şəhərində yerləşən N saylı hərbi hissəsində, Culfa, Şahbuz, Ordubad, Qıvraq, Şərur və Sədərəkdə ön xətdə hərbi vəzifəsini yerinə yetirmişdir. 21 oktyabr 2019-cu ildən Beyləqandakı N saylı hərbi hissədə çalışırdı. Vətən müharibəsi başlayan gün Cəbrayıl, Xocavənd, Füzuli istiqamətində uğurlu əks-həmlə döyüşlərində tarix yazanlardan oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Ceyhun Həsənova ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" (09.12.2020) adı, "Vətən uğrunda" (15.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020), "Qubadlının azad olunmasına görə" (29.12.2020) medalları verilmişdir.

Evin tək oğlu olan şəhid kapitanımızın örnək həyat tarixçəsi yaddaşlara həkk olunsun deyə barəsində bir neçə yazı dərc olunmuşdur. Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva şəhidlər haqqında silsilə yazılarında Vətən Müharibəsi Qəhrəmanı, şəhid kapitan Ceyhun Həsənovdan da söz açıb. "525-ci qəzet"in "Əbədiyyətdəki əziz ünvanlarımız" rubrikasında Şahanə Müşfiq onun da ömür yolundan bəhs edib. Bunlardan başqa "İgid oğulların qələbə əzmi tükənməzdir", "Zirvəyə ucalan ömür – kapitan Ceyhun Həsənov" və başqa məqalələrdə onun döyüşkən ömür yoluna nəzər salınmışdır. Həmçinin, vikipediyası hazırlanmış, yutubda çoxlu video-görüntüləri yerləşdirilmişdir.

Bütün bunlardan əlavə onun ilk və son savaş gününün təfərrüatlarını döyüş yoldaşlarından biri, çavuş Şahin Mehdiyev belə nəql edir: "Biz bir yerdə üç aya yaxın idi ki, təlim keçirdik. Komanda çox böyük ruh yüksəkliyi ilə çalışırdı. Demək olar ki, üç ay idi gecə-gündüz daim bir yerdə olurduq, komandirə məxsus olan heyətlə birlikdə. Ceyhun Həsənov Beyləqan rayonunda N saylı hərbi hissədə bölük komandiri vəzifəsində çalışırdı. Ceyhunun şəxsi heyətində 80-ə yaxın canlı qüvvə var idi. Həmçinin Ceyhun Həsənov BMP komandiri də olub.



Nankor düşmənlərimiz, yəni ermənilər atəşkəsi yenidən pozdular. Artıq bunları susdurmaq zamanı çatmışdı, bu erməni vandallarını yerində oturtmalıyıq - deyə Prezidentimiz əmr verdi: "Bu gözüdönmüşləri rədd edin Azərbaycan torpaqlarından". Ordumuz bu əmri çoxdan gözləyirdi. Hamı bir nəfər kimi böyük ruh yüksəkliyi ilə hərəkətə başladı. Həmin anı gözləyən kapitan Həsənov Ceyhun komandirinin tapşırığı ilə 27 sentyabr 2020-ci ildə döyüşə hazırlaşdı. Ceyhun öz şəxsi heyəti və ona məxsus olan 7 BMP, 4 tank, bir neçə texnika ilə hərəkətə keçdi.

Ceyhun şəxsi heyətini hərtərəfli təlimatlandırdı: "Biz güclü olmalıyıq, hamı bir nəfər kimi ardımca irəli". Onu da demişdi ki, "ola bilər mənfur düşmən mən oturduğum BMP-ni vurar, amma mənim igidlərim, birdən dayanarsınız ki, mənə kömək göstərəsiniz. Sizə mən əmr verirəm və tapşırıram ki, dayanmadan irəli". Necə demişdi, elə də oldu. Hücuma keçdik. Komandirin BMP-si öndə. Şiddətli döyüş gedirdi. Hər tərəfdən bizi atəşə tutmuşdular. Bir neçə texnikamız sıradan çıxdı. Şəhidlərimiz var idi. Buna baxmayaraq Ceyhun Həsənovun bacarığı sayəsində bir neçə yüksəkliyi aldıq, üç erməni postunu məhv etdik. Füzulinin azadlığı uğrunda gedən şiddətli döyüşdə idik. Uğurlarımızı gördükcə sevincimizin həddi-hüdudu yox idi. Ermənilərin birinci eşalonunu darmadağın etdik. Komandirin hər an bir sözü var idi: "İgidlərim, arxamca irəli". Döyüş çox şiddətləndi. Mənfur düşmən hər tərəfdən, hər növ silahdan istifadə edirdi. Bizi məğlub etməyə çalışırdı, amma ordumuz elə həvəslə vuruşurdu ki, belə ordunun qabağını kəsmək mümkün deyildi. Ağır artilleriyaların atılmasına məhəl qoymayan komandir – "igidlərim, irəli" – deyə qışqırırdı. Komandir kordinatları bir-bir mənə ötürürdü, mən həmin hədəfləri vururdum.

Mən Şahin Mehdiyev komandir oturduğu BMP-nin tuşlayıcısı idim. BMP-nin sürücüsü isə Qərib Balacayev idi. Komandir tez-tez deyirdi: "Afərin, igidlərim". Əlbəttə, bu söz bizə böyük ruh yüksəkliyi verirdi. Bizə verilən tapşırığı yerinə yetirdik, istədiyimiz





mövqeləri tutduq. Komandir gördü ki, mənfur düşmən sağdan bizim heyəti mühasirəyə almaq üçün hərəkətə keçib, əmr verdi ki, Qərib, BMP-ni çevir sağa. Komandir bilirdi ki, ora girmək çox təhlükəli idi. O, bizə dedi, "yoldaşlar, başqa yolumuz yoxdur. Yoxsa bizim 60-a yaxın heyəti mühasirəyə alacaqlar". "Qərib, irəli" - deyərək əmr verdi. Komandir Ceyhun Həsənov istədiyinə nail oldu. Düşmənlər tam məğlubiyyətə uğradıldı. Amma çox təəssüf ki, biz geri dönəndə BMP tank əleyhinə minaya düşdü. Kapitan Ceyhun Həsənov qəhrəmancasına şəhid oldu...

O, son nəfəsində belə dedi: "Şahin, sonuncu mövqeni vurduq?" Mən isə cavab verdim, bəli, komandir, vurduq. Gülümsəyərək əlimi sıxdı. Gözlərini yumaraq şəhidlik zirvəsinə yüksəldi. Mən özüm də yaralanmışdım. Sonra bilmədim necə oldu... Ceyhunda o qədər qəhrəmanlıq hissi, qorxmazlıq, mərdlik hissi var idi ki. Ona bu qəhrəmanlıq adı azdır. O, çox böyük hünərli, savadlı, həm də bacarıqlı idi. Ruhun şad olsun, Komandir!

Füzulinin azadlığı uğrunda ilk səddi yaran heyət bizim heyət idi. Düşmənin keçilməz adlandırdığı səddi komandir Ceyhun Həsənovun rəhbərliyi altında darmadağın edib keçdik. Eyni zamanda komandirin BMP-sini idarə edən sürücü Qərib Balacayev də şəhid oldu. Komandirlə Qərib ikisi birlikdə şəhid oldu. Ruhunuz şad olsun. Bütün şəhidlərimizə allah rəhmət eləsin. Kapitan Həsənov Ceyhunun timsalında öz qanları ilə tarix yazanlar, haqqınız ödənməzdir".

Nurəddin Muğanlının "İki sahil" qəzetində çap olunan "İgid oğulların qələbə əzmi tükənməzdir"yazısından şəhid kapitanımızla vida mərasiminin detallarını öyrənmək mümkünür: "Kapitan Ceyhun Həsənovun üçrəngli bayrağımıza bürünmüş cənazəsini Xətai rayonunun ictimaiyyət nümayəndələri, sadə vətəndaşları böyük bir qələbəliklə qarşıladı. Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quliyev, Müdafiə Nazirliyinin nümayəndələri, rayonun gəncləri şəhidin cənazəsini vaxtilə yaşadığı binanın qarşı-

sından fəxri qarovulun və izdihamın müşayiətilə son mənzilə yola saldılar. Azərbaycan Respublikasının Himninin sədaları və fəxri qarovul dəstəsinin yaylım atəşi altında ikinci Fəxri xiyabanda - general-mayor Polad Həşimovun məzarının yaxınlığında torpağa tapşırılandan sonra şəhid zabitimizin tabutu üzərindəki Azərbaycanın üçrəngli bayrağı atası Aydın Həsənova təqdim edildi".

Bir oğul anası olub, onu da vətən uğrunda şəhid vermiş Həsənova Səmayə xanım balası haqqında qürurla danışır: "Oğlum, azad etdiyin torpaqlarda ruhun gəzəcək. Bir də, onu demək istəyirəm ki, avqustun 6-da əkiz oğul övladlarının ad gününü, ilk yaşlarını qeyd etdin, amma bir daha qeyd edə bilməyəcəksən. Böyüyəndə biləcəklər ki, onların atası kimdir. Balaların səni şəkillərdə, tarixlərdə axtaracaq, səninlə fəxr edəcək məsum körpələrin. Vətənini balalarından, anasından yüksəkdə tutan Komandir. Ruhun şad olsun. Həmişə atalar deyərdi: "Anaların borcunu heç nə ilə qaytarmaq olmaz". Amma indi mən belə deyirəm ki, oğul, sənin borcunu heç nə ilə qaytara bilmərəm. Həyatda sənə nə əziyyət çəkmişəmsə halal edirəm. Sən də haqqını mənə halal elə!"

**Gülnar Səma**
***"Pillələr" 6 aprel 2021-ci il.***



## "YALNIZ İRƏLİ!"
## (Gülnar Səma şəhid kapitan Ceyhun Həsənovu anır)

## ŞƏHİD KAPİTAN, VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANI CEYHUN HƏSƏNOV MİSİLSİZ RƏŞADƏTİ İLƏ NƏSİLLƏRƏ NÜMUNƏ OLDU



Azərbaycan Silahlı Qüvvələrinin kapitanı, Vətən müharibəsinin şəhidi Ceyhun Aydın oğlu Həsənov 1985-ci il oktyabrın 29-da Tovuz rayonunun Çeşməli kəndində dünyaya göz açmışdı. Bakıda böyümüş, Naxçıvanda və Beyləqanda işləmişdi. Vətən müharibəsinin ilk günündə – 27 sentyabr 2020-ci ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə canını vətənə fəda etdi.

O, ilk təhsilini Xətai rayonunda Ədalət Abbasov adına 257



nömrəli tam orta məktəbdə (1992-2001) almışdı. Sonralar Cəmşid Naxçıvanski adına Hərbi Liseydə (2001-2003) və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (2004-2008) hərb elminin sirlərinə yiyələnmişdi. Təhsilini davam etdirmək üçün Təlim Tədris Mərkəzinə Bakı Ali Birləşmiş Komandirlər məktəbində zabit ixtisası kursuna göndərilmişdi.

Orta məktəbdə oxuduğu müddətdə basketbol yarışlarında, fənn olimpiadalarında, müdavim vaxtlarında güləş yarışlarında, sonralar Azərbaycan Respublikası Silahlı Qüvvələrinin cüdo birinciliyində qalibiyyətin qürurunu yaşamışdı. Ailəsinin yaxın qohumu, Müdafiə Nazirliyi mətbuat xidmətinin zabiti şəhid İlqar Verdiyevin uğurları Ceyhunda hərb sənətini seçməsinə həvəs yaratmışdı. Bununla belə, dayısı Məstan Novruzov və iki yaxın qohumu birinci Qarabağ döyüşlərində şəhidlik zirvəsini fəth etmişdi. Ailə gələnəklərini peşəsi ilə davam etdirən Ceyhun 2018-ci ilin 1 iyulunda ailə qurmuş, 2019-cu ilin 6 avqustunda əkiz oğlanları Cahid və Cavidan dünyaya gəlmişdi.

21 oktyabr 2019-cu ildən Beyləqandakı N saylı hərbi hissədə xidmət edirdi. Vətən müharibəsi başlayan gün Cəbrayıl, Xocavənd, Füzuli istiqamətində uğurlu əks-həmlə döyüşlərində tarix yazanlardan oldu kapitan Ceyhun Həsənov.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Ceyhun Həsənov ölümündən sonra “Vətən Müharibəsi Qəhrəmanı” (09.12.2020) fəxri adına layiq görülüb, və “Vətən uğrunda” (15.12.2020), “Füzulinin azad olunmasına görə” (25.12.2020), “Qubadlının azad olunmasına görə” (29.12.2020) medalları ilə təltif edilib.

Ceyhunun ilk və son savaş günü haqqında onun döyüş yoldaşlarından olan çavuş Şahin Mehdiyev deyir: “Füzuli istiqaməti uğrunda düşmənin ilk müdafiə səddini yaranlar sırasında bizim heyət də vardı. Biz bir yerdə üç aya yaxın idi ki, təlim keçirdik. Ceyhun Həsənov Beyləqan rayonunda N saylı hərbi hissədə bölük ko-

mandiri vəzifəsindəydi. O, həm də PDM komandiri olub. 27 sentyabr 2020-ci ildə müharibə başlananda Ceyhun öz şəxsi heyəti və 7 BMP, 4 tank, bir neçə başqa texnika ilə hərəkətə keçdi.

Komandirin PDM-i öndəydi. Şiddətli döyüş gedirdi. Hər tərəfdən bizi atəşə tutmuşdular. Bir neçə texnikamız sıradan çıxdı. Şəhidlərimiz var idi. Buna baxmayaraq Ceyhun Həsənovun bacarığı sayəsində bir neçə yüksəkliyi aldıq, üç erməni postunu məhv etdik. Komandir tez-tez bizə səslənirdi: İgidlər, dayanmaq olmaz! Yalnız irəli!" Döyüş daha da şiddətləndi. Ermənilərin birinci eşalonu darmadağın olmuşdu. Ancaq mənfur düşmən hər tərəfdən, hər növ silahdan istifadə edirdi. Mən komandirin oturduğu PDM-in tuşlayıcısı idim. Sürücümüz isə Qərib Balacayev idi. Komandir tez-tez "Afərin, igidlərim!" hayqıraraq bizə böyük ruh yüksəkliyi verirdi. O döyüşdə bizə verilmiş tapşırığı yerinə yetirdik, istədiyimiz mövqeləri tutduq. Komandir gördü ki, mənfur düşmən sağdan bizim heyəti mühasirəyə almaq üçün hərəkətə keçib, Qəribin PDM-i sağa döndərməsini əmr etdi. Bilirdik ki, ora girmək çox təhlükəlidi. Amma komandir dedi ki, igidlər, başqa yolumuz yoxdur, düşmən bizim 60-a yaxın heyəti mühasirəyə ala bilər. Balacayev ləngimədən PDM-i onun əmr etdiyi tərəfə sürdü. Komandir Ceyhun Həsənov istədiyinə nail oldu, düşmən itki verib geri çəkildi. Amma çox təəssüf ki, sonra biz dönəndə tank əleyhinə minaya düşdük. Cəsur komandirimiz kapitan Ceyhun Həsənov və PDM-i idarə edən Qərib Balacayev qəhrəmancasına şəhid oldular, mən isə yaralandım. Komandir son nəfəsində məndən soruşdu: "Şahin, sonuncu mövqeni vurduqmu?" Cavab verdim ki, bəli, komandir, vurduq. Gülümsəyərək əlimi sıxdı. Gözlərini yumaraq şəhidlik zirvəsinə yüksəldi. Ruhu şad olsun!"

Bir oğul anası olan və onu da vətən uğrunda şəhid vermiş Səmayə xanım qəhrəman övladı haqqında qürurla danışır və şəhid kapitanın ruhuna xitabən deyir: "Oğlum, azad etdiyin torpaqlarda daima ruhun dolaşacaq. Əkiz övladların səni şəkillərdə, tarixlərdə

axtaracaq, qəhrəmanlığınla fəxr edəcəklər. Sən Vətənini balalarından da, anandan da yüksəkdə tutdun, Ceyhun. Həyatda sənə nə əziyyət çəkmişəmsə, halalın olsun, oğlum! Vətənimiz, xalqımız səni unutmayacaq!"

***Azərbaycanın Mədəniyyət və Ədəbiyyat Portalı,***
***22 Aprel 2021***



## Getmə desəm, qalarmı görən...
**(Ceyhun Həsənovun qəhrəmanlıq dastanı)**



**Ötərxan ELTAC**
**jurnalist, ssenari müəllifi,**
**"Qızıl qələm" mükafatı laureatı**



“Evin tək oğlu ərköyün olar” deyimi Ceyhuna aid deyildi. O, sakit, səmimi, mehriban, dostcanlı və sədaqətli oğul idi. Hər addımı yüz ölçüb bir biçər, atası ilə məsləhətləşmədən qərar verməzdi. Diribaşlığı və qətiyyəti ilə tay-tuşlarından seçilən Ceyhun böyüyəndə polis olacağını dilə gətirəndə atası uğurlar diləmişdi ona.

İllər sürətlə irəliləyirdi. Ceyhun Əli babasının sovet-alman müharibəsində Ukrayna, Belarusiya, Çexoslavakiya çöllərində qanı ilə yazdığı qəhrəmanlıq dastanlarını dinlədikcə köksü qabarır, babasının orden-medallarını sinəsinə taxaraq qürurlanırdı. Bir qədər sonra Xocalı soyqırımını, Ballı qaya dəhşətini, Qaradağlı faciəsini, neçə-neçə rayon və şəhərlərin, kənd və qəsəbələrin düşmən caynağında olduğunu anlayanda isə: “ata, mən daha polis olmayacağam” -dedi.

-Niyə, ay oğul, nə tez qərarını dəyişdin, - Aydın kişi dilləndi.

-Ata, torpaqlarımızı düşmən işğalından azad etmək üçün hərbçi olacağıma söz verdim. Əli babam kimi qəhrəmanlıq göstərəcəyəm, şəhidlərimizin qisasını alıb torpaqlarımızı geri qaytaracağam, - dedi.

Aydın kişi oğlu ilə bir daha qürur duydu o gün və inandı ki, Ceyhun sözünə əməl edəcək.

Qeyd edək ki, Ceyhunun iki qohumu və dayısı Məstan Novruzov Birinci Qarabağ savaşında igidlik, şücaət göstərərək şəhadət şərbətini içiblər. Elə o vaxtdan qarşısında büstü qoyulan Çeşməli kənd məktəbi Məstan Novruzovun adını daşıyır. Ceyhun fürsət tapan kimi, əsasən də yay tətilində kəndə gedər, öncə dayısını ziyarət eləyərdi. “Dayı, rahat uyu, böyüyən kimi sənin qisasını alcağam, söz verirəm haaa” deyib halallaşardı. Sonra da kənd uşaqlarına qoşulub üz tutardı meşəliklərə...

Ceyhun Tovuzun Çeşməli kəndində doğulsa da, paytaxtdakı 257 nömrəli tam orta məktəbdə təhsil aldı. Hələ uşaqlıqdan karate və güləşlə məşğul olan Ceyhun dəfələrlə yarışların qalibi oldu. C.Naxçıvanski adına hərbi liseyə qəbul olunanda isə sevincinin

həddi-hüdudu yox idi. Çünki arzularına doğru addımlayırdı. Liseyi müvəffəqiyyətlə başa vuran Ceyhun az sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbin kursantı olmağı bacardı.

Aydın kişinin dediyinə görə Ceyhunun vətənpərvərliyi lap elə uşaq yaşlarından büruzə verib. Həsənovlar nəsli Birinci Cahan savaşında, İkinci Cahan savaşında, Birinci Qarabağ müharibəsində neçə-neçə davamçılarını itirib. Onların əksəriyyəti əsl şücaət göstərərək qəhrəmanlıq tarixi yazıb, sinələrini orden və medallar bəzəyib. Doğmalarının qəhrəmanlıq tarixi ilə yaxından maraqlanan Ceyhun da onlardan nümunə götürərək, böyüyəndə hərbçi olacağını qarşısına məqsəd qoyub.

Hərbi təhsilini başa vuran gənc leytenant Ceyhun Həsənov Naxçıvanda "N" nömrəli hərbi hissədə xidmətə başladı. Qısa zamanda zabit və əsgər kollektivi arasında böyük nüfuz və hörmət qazanan Həsənov 2019-cu ilə qədər Şahbuz, Culfa, Ordubad, Şərur və Sədərəkdə, sonra isə Beyləqandakı hərbi hissələrin birində xidmətini davam etdirdi. Artıq qarı düşmənlə üzbəüz idi Ceyhun. İnam və ümidlə döyüşün başlayacağı günü gözləyirdi. Çünki həmin günə özünü lap uşaqlıqdan hazırlamışdı. Qisas hissi onu o qədər səbirsiz etmişidi ki, bir anda düşmənin içərilərinə girib hər kəsi gülləbaran etmək istəyirdi. Amma anasının "oğul, hər addımı yüz ölç, bir biç" kəlamı onu daha səbirli olmağa səsləyirdi.

O gün kapitan Ceyhun Həsənov bölüyün qarşısında son nitqini söylədi: "Düşmənin sonuna çıxmaq üçün biz güclü olmalıyıq, şəhidlərimizin qanını almaq bizim borcumuz və vəzifəmizdir, hamı bir nəfər kimi ardımca İRƏLİ!" dedi. Onu da əlavə etdi ki, "ola bilər oturduğum PDM hədəfə tuş gələr, mənə kömək göstərmək üçün kimsə dayanmasın! Bir daha sizə tapşırıram və əmr edirəm ki, yalnız İRƏLİ!"

O gün göy gurladı, yer titrədi tankın, topun səsindən. Toya-bayrama gedirlərmiş kimi düşmənin üzərinə şığıdılar azman oğullar. Döyüşün ilk günündə "keçilməz Ohanyan səddi"nin yarılması, ağır



texnikaların ələ keçirilməsi, canlı qüvvənin məhv edilməsi düşməni elə sarsıtdı ki, nə edəcəklərini şaşırdılar. Betonlaşdırılmış bunkerlər bir anda darmadağın edildi. Ceyhun və Ceyhun kimi qurd ürəkli oğulların sayəsində ağır itkiyə məruz qalan düşmən geri çəkilməyə məcbur oldu o gün.

Aydın kişi ilə Ceyhunlu günləri xatırlamağa çalışdıq. Bəzən qəhərdən boğazı quruyan ata, hıçqırtısını da gizlətməyə çalışdı. Gözlərinin dərinliyindən boylanan kədərin içində ümidin işığını sezmək elə də çətin olmadı. Kövrək və həssas olduğu qədər də mətin və qürurlu olan Aydın kişi yeganə oğul övladını bu müqəddəs yurd uğrunda qurban verdiyi üçün məmnundur. Çünki Ceyhunun “ata, oğlun böyüyəndə qəhrəman olacaq, baxıb qürur duyacaqsan” kəlməsi hələ də qulaqlarında cingildəyir. Ona görə də sızlamağın, sıtqamağın şəhid ruhuna hörmətsizlik olduğunu düşünür Aydın kişi və elə bu düşüncələrlə də amansız müharibənin amansızlığını vərəqləməyə çalışır.

-44 günlük Vətən müharibəsindən uzun zaman ayırmır bizi. O gün uzun illərdən bəri düşmənin caynağında inləyən o torpaqları azad etmək üçün Azərbaycan ordusu namərd düşmənin üzərinə yeridi. O oğulların arasında qəhrəmanlığı ilə dastan yazan cəngavərlərdən biri də oğlum, qardaşım, dostum, arxam, köməyim və Azərbaycan ordusunun zabiti, kapitan Ceyhun Həsənov idi.

Onu qeyd edim ki, bir atanın şəhid övladı haqqında danışmağı nə qədər ağırdırsa, o qədər də qürurludur. Ona görə qürurludur ki, Vətənimizin, dövlətimizin bütövlüyü uğrunda o məqama ucalıb. Və ona görə fərəhlidir ki, Azərbaycan var olduqca, Ceyhun və Ceyhun kimi yurd aşiqləri könüllərdə yaşayacaq.

Son kərə Ceyhunla əlaqə saxladığım gün sentyabrın 24-ü idi. Amma düşünməzdim, heç ağlıma gəlməzdi ki, o gün oğlumla vidalaşıram. Kaş ki, çox danışaydım, deyə özümü qınayıram bəzən. Axı biz yalnız ata-bala deyil, həm də mehriban dost idik. Bir-birimizlə məsləhətləşər, bölüşərdik dərd-sərimizi.

Yaxın günlərdə baş verəcək müharibədən bir kəlmə də kəsmədi o gün. “Ata, hər bir şey yaxşıdır və lap yaxşı olacaq, təki siz salamat olun, özünüzü qoruyun” dönə-dönə vurğuladı, Allaha ismarladı dönə-dönə. Amma yenə də bu duaların vida olduğunu zənn etmədim. Sonda başqa yerə gedəcəyini söylədi, onu da dedi ki, “ola bilər zəng çatmasın, amma narahat olmayın, vaxt tapan kimi əlaqə saxlayacağam”. Yenə də ürəyim dözmədi. Hər gün zəng etməyə çalışdım. Telefonu bağlı idi. Sən demə, işğal olunmuş ərazilərdən düşmənin çıxarılması üçün aylardan bəri hazırlıq gedirmiş. Amma bir dəfə də olsun dilinə gətirmədi. Yəqin narahat olacağımızı düşündü. Çünki ailəmizin ümid işığı idi o. Onunla fəxr edir, qürur duyurduq. Arxam, söykənəcəyim, dayağım da məhz o idi. O həm də zabit olduğu üçün bu sirri saxlamalı idi.

6.08.2019-cu il... O gün Ceyhun məzuniyyətə gəlmişdi. Bəlkə də ürəyinə dammışdı, dammışdı ki, ata olacaq, bəlkə də məzuniyyətinin vaxtı həmin günə təsadüf etmişdi. Bəlkə də İlahi bir qüvvə onu çəkib gətirmişdi o gün. Bəlkə də...

O gecə əkiz övladları gəldi dünyaya, adını Cavidan və Cahid qoydular. Bəxtəvər bir gün idi o gün. Hər kəsin yanağına təbəssüm qonmuşdu. Həsənovlar ailəsində bir çal-çağır vardı ki, gəl görəsən.

Ceyhun Həsənovlar ailəsinin tək oğul övladı idi (Xatirə adlı bir bacısı da var). Aydın kişi əkiz nəvələrinin dünyaya gəlişi üçün uca Rəbbinə dualar edir, hər qapını döyənə muştuluq paylayırdı.

...Ceyhun hərbi hissəyə yola düşdü. Amma hələ də körpələr xəstəxanada idi. Bir qədər sonra geri dönəcəyini bilsə də, heç getmək istəmirdi. Amma məcbur idi. Düz iyirmi bir gündən sonra Bakıya döndü Ceyhun ata. O gün göydən çiçək yağışı yağırdı. Yollar, küçələr al-əlvan güllərlə bəzədilmişdi. Hətta qonşular da əkizlərin pişvazına çıxmışdı. Artıq geniş otaqlar körpə qığıltısı ilə hərarətlənmiş, göz aydınlığına gələnlərin sayı artmışdı. Ceyhun ilk dəfə əkizləri bağrına basıb ətrini duydu o gün. Hətta sevincindən gözləri yaşardı.





Zamanın saatı elə bil irəli qaçır, Ceyhunu yola çıxmağa tələsdirirdi. Obaşdan sağollaşacaqdı körpələrlə... İsti nəfəsi və əlinin hərarəti ilə körpələri yatırtdıqdan sonra mışıltının sehrindən ayrıla bilmədi Ceyhun. Qoşa beşiyin arasında əyləşib gah Cavidana baxdı, gah da Cahidə. Hər ikisinin əlindən tutub qəlbindən keçənləri axıtdı onların ruhuna. Və inandı ki, davamçısı olmaqla yanaşı, xalqına, dövlətinə layiqli övlad olacaqlar.

Övladlarını tez-tez görmək, nəfəslərini duymaq üçün Naxçıvandan Beyləqana təyinat aldıqdan az sonra əkizlərin bir yaşını qeyd etməyə gəlmişdi Ceyhun. O zaman 12 iyul - Tövuz döyüşləri baş vermişdi. Mənfur düşmənə layiqli cavab verilsə də, məşhur general Polad Həşimovla bərabər 12 əsgər və zabit şəhidlik məqamına ucalmışdı. Xatirə cəbhədə baş verənləri soruşmaq istəsə də, Ceyhun barmağını dodağına yaxınlaşdırıb “sus” işarəsi verdi. Narahatlığı bir qədər də artdı Xatirənin. Çünki qardaşının getməsini heç istəmirdi. “Getmə desəm, qalarmı görən?” düşünsə də cəsarət edib dillənə bilmədi. Çünki qardaşının qətiyyətinə bələd idi.

O gün tarixin 7.08.2020-ci ili idi. Ceyhun əkizlərlə sağollaşıb qapıdan çıxmaq istəyirdi ki, Gülay işəri girdi və bir uşaq cəldliyi ilə dayısının boynuna sarıldı. Mən də fürsətdən istifadə eləyib şəkillərini çəkdim. Sonra Ceyhun anamın boynunu qucaqlayıb: “daha sənin bir yox, üç oğlun var, məğrur ol, başını da dik tut” dedi. Anam kövrəlmişdi. O gün binaya qalxan pilləkənləri Ceyhun sonuncu

dəfə düşürdü. Xatirə qardaşı ilə son görüşü belə xatırladı.

Ceyhun ağır addımlarla taksiyə tərəf irəliləyir, daha doğrusu, ayaqlarını sürüyürdü. Bəlkə də o, son gediş olduğunu zənn etmişdi.

Səmayə ana bişirdiyi dadlı yeməklərdən, şirniyyatlardan yığıb zənbil hazırlamışdı oğlu üçün. Həmişə etiraz eləyən Ceyhun nədənsə “nə qoysan, aparacağam, ana” demişdi. Ana da ürəklənib zənbilin sayını artırmışdı bu dəfə. Ceyhun taksiyə əyləşdi. Gülay dayısının arxasınca əl edir, uğurlar diləyirdi ona. Taksi qarşı döngədən itənə qədər Ceyhun hələ də eyvanda dikilib qalmış ana və bacısından gözünü çəkə bilmirdi.

***

...Gözətçi işlədiyim idarəyə yenicə çatmışdım. Həm yorğun idim, həm də narahat. Çünki nə qədər çalışsam da Ceyhunla əlaqə qura bilməmişdim. Televizorun pultunu axtardım, tapa bilməyəndə bir az da əsəbləşdim. Elə bil yüklər üst-üstə gəlirdi. Həyətdəki uşaqların qışqırtısı da bir yandan artırırdı narahatlığımı. Nəhayət ki, televizoru açdım. Eşitdiklərimə inana bilmirdim. Torpaqlarımızın azadlığı uğrunda savaş başlamışdı. O gün 27 sentyabr 2020-ci il idi. İlk hücumda erməninin iki tankı, üç zabiti məhv edilmiş, digər istiqamətlərdə üstünlüyü ələ almışdı ordumuz. Çox qürurlu anlar idi.

Aydın kişi neçə gündür əlaqə saxlaya bilmədiyi oğlunu düşündü. Narahatlığı daha da artdı. Çünki oğlunun ön cəbhədə olduğundan xəbərdar idi. O gecə sübhə qədər aranı dağa, dağı arana çəkdi Aydın kişi. Odun-alovun içində nələrin baş verəcəyini düşünəndə ağlını şaşıracaqdı az qala. Birtəhər sabahı açıb evə tələsdi Aydın kişi. Cəbhədə baş verənləri xanımına danışmaq istəsə də, bacarmadı. Çünki Səmayə ana çox həssas biri idi, eşidəcəklərinə tablaşa biləcəkdimi, - düşündü Aydın kişi. Amma ananın haqqı idi baş verənlərdən xəbər tutmaq.

Aydın kişi ordumuzun gücünə bələd olduğu üçün Qələbəmi-



zin də uzaqda olmadığına inanırdı. İnanırdı ki, qurd ürəkli azman oğulların sayəsində mənfur düşmən Qarabağımızdan birdəfəlik çıxarılacaq. İnanırdı ki, ordumuz düşmənə elə bir zərbə vuracaq ki, Birinci Qarabağ savaşından bu günə qədər bütün şəhidlərin qisası alınacaq. İnanırdı ki, Meşəlinin, Quşçuların, Başlıbelin, Ağdabanın, hətta Qarakənd səmasında düşmən gülləsinə tuş gələnlərin qanı yerdə qalmayacaq. Amma köksünü çulğayan alov onu tərk etmirdi. Elə Aydın kişini də qorxudan bu idi. Ürəyinə damdığından qorxurdu və getdikcə artırdı şübhələri. Bu qara fikirlərdən qurtulmağa çalışsa da, bacarmırdı. Tez-tez kanalları dəyişir, yeni-yeni xəbər gözləyirdi mavi ekrandan.

Aydın kişi "Xəbərlər" proqramından eşidiklərini bircə-bircə Səmayə xanıma danışdı. Təəccüb və heyrətlə daha nələrin baş verdiyini dinləməklə özünü ovundurmağa çalışan ana: "Ay kişi, sonra noldu, qədəmlərim qırıldı ta, danışsana" həyəcanını gizlədə bilmədi.

-Nolacaq, ay arvad, döyüş başlayıb, Ceyhundan da xəbər yoxdur, -dilləndi Aydın kişi.

-Sən Allah bir az aydın danış, məndən bir şey gizlədib eləmirsən ki?

-Nə gizlədəcəyəm, ay arvad, mənim də bildiklərim televizordan eşitdiklərimdir. Allah xeyir eləsin, ordumuza güc-qüvvət versin.

-Amin, ay kişi, amin!

Məlul, kövrək baxışlar toqquşdu bir-biri ilə. Aydın kişi özünü tox tutmağa çalışsa da, bacarmadı. Qara fikirlər onu tənha buraxmırdı. Bəlkə də bəd xəbərə hazırlayırdı özünü, axı ürəyinə dammışdı. Dammışdı ki...

Aydın kişi oğlunun qəhrəmanlığı ilə qürur, iftixar duyduğunu bir daha dilə gətirdi. Amma qürur duyulacaq bu oğullar bir atanın, bir ananın övladı deyil, bütöv xalqın övladı olmağı bacardı. Çünki bu oğulların sayəsində torpaqlarımız namərd düşməndən azad edildi. Çünki bu oğulların sayəsində otuz ilə yaxın bir müddətdə

didərgin düşdüyümüz o torpaqlara yenidən dönə bildik. Artıq o torpaqlardan hər birimizin səsi gəlir, artıq Azərbaycan əsgərinin nəfəsi bürüyür o dağları. Əlbəttə ki, qürur duymağa dəyər.

Aydın kişi hələ də döyüşün səsini, güllələrin vıyıltısını eşidirmiş kimi dilləndi:

-O gün 80 nəfərlik dəstəsi ilə 4 tank, 7 PDM və bir neçə zirehli maşınla döyüşə girdi Ceyhun. İldırımsürətli irəliləyiş qarşısında tab gətirə bilməyən düşmən ağır itkiyə məruz qalaraq geri çəkilməyə məcbur oldu. Cəsarətli komandir qısa zaman ərzində “Ohanyan xətti”ni darmadağın etməklə, həm kifayət qədər silah-sursatı, həm də bir neçə ağır texnikanı məhv etdi. Gözünü qan örtmüş oğullar qisas hissi ilə daha da irəli atılır, düşmənin hansı istiqamətdə yerləşdiyinin fərqinə varmırdılar. Yer-göy alova bürünmüşdü. Alovlar içində nərildəyən tanklar, toz-dumanını yarıb keçən raketlər, mahir nişançılar hədəf axtarışında ikən komandir Ceyhun Həsənov girdiyi ərazinin hər tərəfində erməni postlarının olduğunu anladı. Artıq gec idi, geri çəkilmək ağır itkiyə səbəb ola bilərdi. Ona görə də döyüşü davam etdirərək, aldadıcı manevrlə mühasirəni yarmaq olardı. Artıq öndəki iki tank, bir PDM sıradan çıxmışdı. Odur ki, Ceyhun irəli keçmək üçün sürücüsü Qərib Balayevə əmr etdi.

Bəli, Ceyhun öz dəstəsi ilə hərəkətə keçdi. Mənfur düşmən hələ də pusquda idi. Amma düşmən istər pusquda, istərsə açıq döyüşdə olsun, Ceyhun sürətlə irəliəyir, qorxmadan, çəkinmədən onların üzərinə şığıyırdı.

“Ohanyan xətti” yarılandan sonra beş post və bir qərargah canlı qüvvəsi ilə birgə darmadağın edildi. Ceyhunun silahdaşlarının dediyinə görə hər bir postda 8-10 nəfərlik silahlı varmış. Ceyhun son kərə tuşlayıcı Şahin Məmmədova komanda verir ki, “düşmənin bir postu qalıb, onu da vursan, əhsən sənə”. Şahin bir daha hədəfi dəqiqləşdirib atəş açır və beləliklə, sonuncu düşmən postu da havaya sovrulur. Bax ondan sonra qismən sakitlik çökdü, sanki qurbağa gölünə daş atıldı.



Artıq qarşıda dura biləcək bir qüvvə yox idi. Amma sağ və sol cinahlarda döyüş şiddətlənmişdi xeyli. Onlara yardım etmək üçün istiqaməti dəyişmək lazım idi. Füzulinin Qaraxanbəyli kəndi istiqamətində baş verən bu döyüşdə əsas hədəfləri susdurub sag cinaha yön alan komandir Ceyhun Həsənovun tankı təəssüf ki, minaya tuş gəldi. Partlayışdan beş nəfər salamat qurtulsa da, sürücü Qərib Balayev və komandir Həsənov şəhadət şərbətini içməli oldu.

Hər zaman döş cibində - köksündə bayraq gəzdirirdi Ceyhun. Azad edəcəkləri yüksəkliklərdə dalğalandıracaqdı ki, dost da görsün, düşmən də. Çünki bayraq Qələbə nişanıdır, uğur əlamətidir, -deyirdi. Təəssüf ki, hər zaman "İgidlərim, arxamca irəli!" deyən cəsur komandir Qələbə gününü görə bilmədi, amma Şahin Məmmədov, Emin Eminov kimi silahdaşları onun köksündəki bayrağı ən yüksək zirvələrə taxmağı bacardılar. Ceyhunun ruhu rahatlıq tapdı o gün. Qəhrəmanlığı dildən-dilə keçib dastanlaşdı, kitablaşdı, yaddaşlara hopdu. Və nə yaxşı ki, Həsənovlar ocağında şam yandıracaq və atalarının yolunu davam etdirəcək Cahid və Cavidan adlı əkiz qardaşlar böyüyür.

Hazırda paytaxtımızdakı 48 nömrəli tam orta məktəb və Xətainin mərkəzi küçələrindən biri Vətən Müharibəsi Qəhrəmanı, kapitan şəhid Ceyhun Aydın oğlu Həsənovun adını daşıyır. Rəsmi həkk olunan səkkiz guşəli abidə isə yaşadığı binanın önündə yenicə salınmış parkda qoyulub – Ceyhun Həsənov parkında. Elə o gündən hər kəsin ziyarət yerinə çevrilib o park.

Qeyd edək ki, kapitan Ceyhun Həsənov döyüşlərdə göstərdiyi rəşadətə görə ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda" medallarına və "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb.

**Ötərxan ELTAC**
***Dalidag.az***

# İGİD OĞULLARIN QƏLƏBƏ ƏZMİ TÜKƏNMƏZDİR

Son 30 ildə həyatıməzda kimləri itirməmişik – əzizlərimizi, məktəb və tələbə yoldaşlarımızı, dostlarımızı, yaxın qohum – qonşularımızı... Bir də Vətənimizin ərazi bütövlüyü uğrunda ölüm-dirim savaşı apararaq həlak olan dağ cüssəli igid əsgər və zabitlərimizi. Yurdumuzun arxa-dayağı olan, "Vətən sağ olsun" deyərək canından keçən Milli Ordumuzun qəhrəman oğullarının hər birinin xatirəsi bizə əzizdir.

Tarix boyu Azərbaycanın mərd, cəsur oğulları ölümün gözünə qorxmadan dik baxıblar. İşğalçı Ermənistanın dinc əhalimizə qarşı yönəlmiş hərbi təxribatına cavab olaraq Azərbaycan ordusunun əks-hücumu ilə başlayan Vətən müharibəsində şəhid olan zabitimiz Ceyhun Aydın oğlu Həsənov da belə igidlərin cərgəsindədir. Bu günlərdə Kapitan Ceyhun Həsənovun üçrəngli bayrağımıza bürünmüş cənazəsini Xətai rayonunun ictimaiyyət nümayəndələri, sadə vətəndaşları böyük bir qələbəliklə qarşıladı. Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quliyev, Müdafiə Nazirliyinin nümayəndələri, rayonun gəncləri şəhidin cənazəsini vaxtilə yaşadığı binanın qarşısından fəxri qarovulun və izdihamın müşayiətilə son mənzilə yola saldılar.

Azərbaycan Respublikasının Himninin sədaları və fəxri qarovul dəstəsinin yaylım atəşi altında ikinci Fəxri xiyabanda - general mayor Polad Həşimovun məzarının yaxınlığında torpağa tapşırılandan sonra şəhid zabitimizin tabutu üzərindəki Azərbaycanın üçrəngli bayrağı atası Aydın Həsənova təqdim edildi. Şəhidimizin məzarı üstünə tər qərənfil və qızılgüllər düzüldü. "Şəhidlər ölməz, Vətən bölünməz!", "Başını dik tut, şəhid anası!", "Başını dik tut, şəhid atası!" şüarları və alqışlar səsləndi.

Ceyhun 1985-ci ildə Tovuz rayonunun Çeşməli kəndində dün-





yaya göz açmışdı. Hələ uşaqkən ailəsi Bakıya köçmüşdü. Əvvəlcə o, C. Naxçıvanski adına hərbi liseyi bitirmiş, sonra Bakı Ali Birləşmiş Komandirlər məktəbində təhsil almışdı. Hərbi sirlərə dərindən bələd olduqdan sonra Naxçıvanda xidmətə başlamışdı. Ceyhunun dayısı Məstan Novruzov 90-cı illərdə Qarabağ uğrunda döyüşdə həlak olmuşdu. Hazırda Tovuzun Çeşməli tam orta məktəbi şəhid Məstan Novruzovun adını daşıyır. Məktəbin qarşısında şəhidin xatirəsinə abidə ucaldılmışdır. Ceyhunun daha iki yaxın qohumu Qarabağ uğrunda döyüşlərdə şəhid olmuşdular. Doğma Vətəni bütün varlığı ilə sevən kapitan Ceyhun Həsənov da düşmən əlində əsir qalan, nalə çəkən Qarabağı azad etmək arzusu ilə yaşayırdı. Elə bu arzu ilə də son vaxtlar hərbi xidmətini ön cəbhədə davam etdirirdi. Bu dünyada iki əmanətinin -ekiz övladları Cahid və Cavidanın bir yaşını yenicə qeyd edib, qulluq etdiyi hərbi hissəyə dönmüşdü.

Əmisi Balakişi Həsənov deyir: “Acımız böyükdür, heç vaxt

yaddan çıxmaz, amma inanırıq ki, Ceyhun kimi igid oğulların qanı yerdə qalmayacaq...”

Atası Aydın özündə bu yeganə oğlunun itkisinə dözüm tapıb, həm özünə, həm də başsağlığına gələnlərə təsəlli verir: “İndi o, tək bizim ailənin deyil, Vətənin övladıdır.” Ailənin yaxın qohumu, ağsaqqal Tapdıq kişinin oğlu istehkam bölüyünün komandiri İlqar Verdiyev 8 il əvvəl şəhid olub. Uzun illər Müdafiə Nazirliyi mətbuat xidmətinin zabiti vəzifəsində çalışmışdır. Nazirlik sistemində ən bacarıqlı, savadlı və təcrübəli zabitlərdən hesab olunurdu. Türkiyədə NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində dil kurslarını müvəffəqiyyətlə bitirmişdi. "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" yubiley medalı və "Qüsursuz xidmətə görə" üçüncü dərəcəli medalla təltif edilmişdi. Rus, ingilis, türk dillərinə yiyələnmişdi. Kiçik qardaşı Samirlə, xalası nəvəsi Ceyhunun da hərbi sənəti seçmələrinə İlqarın uğurları həvəsləndirmişdi. Ceyhun yeniyetmə çağlarından Vətənə xidmət yolunu tutmuşdu, Qarabağı azad elmək arzusu ilə yaşayırdı. .

Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirələrini yaşatmaq, ruhlarına dualar oxumaq hər azərbaycanlının vətəndaşlıq borcudur. “Sevərək yaşayanlar, sevilərək ölənlər”in adları, xatirələri yaddaşlarda əbədi yaşayacaq.

Bəli, əgər bu gün Ceyhunun yaşıdı olanlar, Azərbaycanın könüllüləri silaha sarılıb şəhidlərimizin qisasını almaq üçün çalışırsa, deməli, bu millətin igid oğullarının qələbə əzmi tükənməzdir. Bu gün torpaqlarımız kəndbəkənd azad olunduqca şəhidlərin ruhu da “Gözün aydın, Vətən!” deyir.

**Nurəddin Muğanlı,**
***“İki sahil” 5 oktyabr 2020-ci il.***



# VƏTƏN QƏHRƏMANLARI, BİZ SİZİ UNUTMADIQ...

**(İxtisarla)**

*Qəhrəmanlar can verir*
*Yurdu yaşatmaq üçün...*
**(Hüseyin Nihal Atsız)**




Bəzən deyirlər ki, tarixi şərait qəhrəmanları yaradır, bəzən də qəhrəmanların tarix yazdığını söyləyirlər. Əslində qəhrəmanlıq şər qüvvələrin üzərinə getməkdir. Mərdlik, qorxmazlıq, Vətənə sədaqət hissi qəhrəman adamları birləşdirən ortaq cəhətlərdir. Fransız maarifçilərinin ən görkəmli nümayəndəsi Fransua Volterin təbirincə desək, əsl qəhrəmanlıq fəlakət zamanı üzə çıxır.

Tarix boyu Azərbaycanın mərd, cəsur oğulları ölümün gözünə qorxmadan dik baxıblar. 44 günlük Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda ölüm-dirim savaşı apararaq canından keçən Milli Ordumuzun dağ cüssəli qəhrəman əsgər və zabitlərinin hər birinin xatirəsi bizə əzizdir. Xətai rayonunun ilk şəhidi kapitan Ceyhun Aydın oğlu Həsənov da Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülən 83 döyüşçümüzün cərgəsindədir.

Ceyhun Həsənov 1985-ci il oktyabrın 29-da Tovuz rayonunun Çeşməli kəndində dünyaya göz açmışdı. Hələ uşaqkən

ailəsi Bakıya köçmüşdü. Xətai rayonunda şəhid Ədalət Abbasov adına 257 nömrəli tam orta məktəbdə təhsil almışdı. Ceyhun yeniyetmə çağlarından Vətənə xidmət yolunu tutmuşdu, Qarabağı azad elmək arzusu ilə boya-başa çatmışdı. Əvvəlcə o, C. Naxçıvanski adına hərbi liseyi bitirmişdi, sonra Bakı Ali Birləşmiş Komandirlər məktəbində təhsil almışdı. Təhsilini davam etdirmək üçün Bakı Ali Birləşmiş Komandirlər Məktəbində zabit ixtisası kursuna göndərilmişdir. Hərbi sirlərə dərindən bələd olduqdan sonra 2009-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində, Culfa, Şahbuz, Ordubad, Qıvraq, Şərur və Sədərəkdə ön xətdə hərbi vəzifəsini yerinə yetirərək Vətənə 10 il qüsursuz xidmət etmişdir. 21 oktyabr 2019-cu ildən Beyləqandakı "N" saylı hərbi hissədə xidmət edirdi.

Onu da qeyd edək ki, Ceyhunun dayısı Məstan Novruzov 90-cı illərdə Qarabağ uğrunda döyüşdə həlak olmuşdu. Hazırda Tovuzun Çeşməli tam orta məktəbi şəhid Məstan Novruzovun adını daşıyır. Məktəbin qarşısında şəhidin xatirəsinə abidə ucaldılmışdır.

Ceyhun Həsənovun daha iki yaxın qohumu Qarabağ uğrunda döyüşlərdə şəhid olmuşdular. Doğma Vətəni bütün varlığı ilə sevən kapitan Ceyhun Həsənov da Vətən müharibəsi ərəfəsindədə hərbi xidmətini ön cəbhədə davam etdirirdi. Əkiz övladları Cahid və Cavidanın avqustun 6-da bir yaşlarını yenicə qeyd edib, qulluq etdiyi hərbi hissəyə dönmüşdü.

BMP komandiri olan Ceyhunun şəxsi heyətində 80-ə yaxın canlı qüvvə var idi. 27 sentyabr 2020-ci ildə qəhrəman zabitimiz öz şəxsi heyəti, 7 BMP, 4 tank, bir neçə başqa texnika ilə döyüşlərə qatılaraq Füzuli və Cəbrayıl istiqamətində düşmənin birinci eşolonunun zərərsizləşdirilməsində, strateji mövqelərin azad olunmasında və yaralı döyüşçülərimizin təhlükəli ərazidən təxliyəsində şücayət göstərib. Elə həmin gündə canı qədər sevdiyi müqəddəs Vətən torpaqlarının azadlığı uğrunda qəhrəmancasına şəhidlik



zirvəsinə ucalıb. Xətai rayonun ictimaiyyətinin nümayəndələri, sadə vətəndaşlar və Müdafiə Nazirliyinin təmsilçiləri şəhidin üçrəngli bayrağımıza bürünmüş cənazəsini Azərbaycanın Milli Qəhrəmanı, general - mayor Polad Həşimovun uyuduğu II Fəxri xiyabanda son mənzilə yola saldılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, kapitan Ceyhun Həsənov ölümündən sonra “Vətən Müharibəsi Qəhrəmanı” fəxri adı, “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə” medalları ilə təltif olunub.

Xətai rayonunun Gəncə prospektində yaşadığı binanın həyətində xatirə lövhəsinin quraşdırılması da qəhrəman zabitimizə verilən yüksək qiymətin bariz nümunəsidir. Qəhrəman döyüşçünün atası Aydın Həsənov xatirə lövhəsinin açılış mərasimində şəhid ailələrinə diqqət və qayğısına görə Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını ifadə edərək bildirib ki, indi Ceyhun tək bizim ailənin deyil, bütün Vətənin övladıdır.”

Vətən Müharibəsi Qəhrəmanı, “İgidliyə görə”, “Füzulinin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif olunmuş qazi, polkovnik Nizami Mövlanov qeyd edib ki, təhsil aldıqları liseyin 17 nəfər məzunu Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüşdür. “Həmin məzunlardan biri də xüsusi qəhrəmanlıqlar göstərmiş kapitan Ceyhun Həsənovdur.”

...Şəhidin anası Səmayə xanım deyib ki, Ceyhun həmişə öncə Vətən, sonra Ana deyərdi. Qəhrəmanın anası xatirə lövhəsinin açılış mərasimində Ali Baş Komandana müraciət edərək dedi: “Sizin sərəncamlarınızla Ceyhun ən yüksək fəxri adla və beş medalla təltif olunub. O, bu haqqı qazanmaq üçün cəmi bir neçə saat döyüşüb, öz qanı bahasına ön xətti yarıb və qəhrəman olub... Dö-

yüşlərdə sizin başlatdığınız “Dəmir yumruq” əməliyyatının dəmir biləkli fədakarlarından olub. Mən istəyirəm ki, Qarabağın yolunu açan mənim yeganə oğlumun evi ziyarətgaha çevrilsin, xatirəsi daim uca tutulsun.”



Bacısı Xatirə xanım çıxışında qeyd edbi ki,  Füzuli döyüşlərinin necə ağır olduğu hamıya məlumdur. “Ceyhun məhz belə ağır döyüşün qəhrəmanıdır. O, cəmi bir günlük döyüşü ilə bir neçə düşmən postunu darmadağın edib. Qardaşımın əsl döyüşçü, əsgərlərinin sevimli komandiri olan bir zabit olduğunu nəzərə alaraq onun muzeyinin yaradılmasını xahiş edirik. Həmçinin adına məktəb və küçə olmasını istəyirik. Orta məktəb dərsliklərində Ceyhunun da döyüş yolunun şagirdlərə mənimsədilməsini arzulayırıq”.



Mərasimdə şəhid Ceyhun Həsənovun məzun olduğu Xətai rayon Ədalət Abbasov adına 257 nömrəli tam orta məktəbin şagirdlərinin iştirakı ilə vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib, şəhidin ibtidai sinif müəllimi Nəzakət xanım şagirdi haqqında xatirələrini bölüşüb. Bəli, biz qəhrəmanlarımızı heç zaman unutmayacağıq. Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirələrini yaşatmaq, adlarını əbədiləşdirmək bizim nəsillərin vətəndaşlıq borcudur. “Sevərək yaşayanlar, sevilərək ölənlər”in adları, xatirələri yaddaşlarda əbədi yaşayacaq!

**Nurəddin Muğanlı,**
***“İki sahil” 31 avqust 2021-ci il.***



# HALALLIĞIN HALƏSİNDƏ



Azərbaycan Silahlı Qüvvələrinin kapitanı, Vətən Müharibəsi Qəhrəmanı, şəhid Ceyhun Aydın oğlu Həsənov 1985-ci il oktyabrın 29-da Tovuz rayonunun Çeşməli kəndində anadan olub. 1992-2001-ci illərdə Xətai rayonunda Ə.Abbasov adına 257 nömrəli tam orta məktəbdə, 2001-2003-cü illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2004-2008-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) "Motoatıcı" ixtisası üzrə ali hərbi biliklərə yiyələnib. Ceyhun 2009-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmət edib. 2019-cu ildən isə o, Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət edirdi.

Azərbaycan Ordusunun kapitanı olan Ceyhun Həsənov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Füzuli



uğrunda gedən döyüşlərdə savaşıb. Ceyhun Həsənov sentyabrın 27-də Füzulidə şəhid olub. Kapitanımız İkinci Fəxri xiyabanda dəfn edilib. 2 əkiz oğlu Vətənə əmanətdir.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluqçu kimi vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Prezident İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Ceyhun Həsənov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Həmçinin, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə də təltif edilib.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən müharibəsi qəhrəmanlarının və Azərbaycanın Milli qəhrəmanlarının adlarının əbədiləşdirilməsini təmin etmək məqsədilə Bakı şəhəri 48 nömrəli tam orta məktəbə Vətən Müharibəsi Qəhrəmanı Ceyhun Aydın oğlu Həsənovun adı verilmişdir. Şəhid kapitan Ceyhun Həsənovun şəxsi əşyaları ailəsi tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin Vətən Müharibəsi Fonduna təhvil verilib.

Şəhidin atası Aydın kişi həm özünə, həm də başsağlığına gələnlərə təsəlli verir: "İndi o, tək bizim ailənin deyil, bütün Vətənin övladıdır".

Anası Səmayə xanım qəhrəman oğlu haqqında qürurla danışır: "Oğlumun ruhu azad olunan torpaqlarda gəzib dolaşır. Əkiz oğulları Cahid və Cavidan böyüyəndə biləcəklər ki, onların atası kimdir. Balaların səni şəkillərdə, tarixlərdə axtaracaq, səninlə fəxr edəcək məsum körpələrin. Vətənini balalarından, anasından yüksəkdə tutan Komandir. Ruhun şad olsun. Həyatda sənə nə əziyyət çəkmişəmsə halal edirəm. Sən də haqqını mənə halal et!"





Ceyhunun döyüş yoldaşlarından biri, çavuş Şahin Mehdiyevin dediklərindən: "Biz bir yerdə üç aya yaxın idi ki, təlim keçirdik. Komanda çox böyük ruh yüksəkliyi ilə çalışırdı. Demək olar ki, üç ay idi gecə-gündüz daim bir yerdə olurduq, komandirə məxsus olan heyətlə birlikdə. Ceyhun Beyləqan rayonunda "N" saylı hərbi hissədə bölük komandiri idi. Ceyhunun şəxsi heyətində 80-ə yaxın canlı qüvvə var idi. Həmçinin Ceyhun BMP komandiri də olub. Nankor düşmənlərimiz atəşkəsi yenidən pozdular. Artıq bunları susdurmaq zamanı çatmışdı. Həmin anı gözləyən kapitan Ceyhun komandirinin tapşırığı ilə 27 sentyabr 2020-ci ildə döyüşə hazırlaşdı. Ceyhun öz şəxsi heyəti və 7 BMP, 4 tank, bir neçə texnika ilə hərəkətə keçdi, şəxsi heyətini hərtərəfli təlimatlandırdı: "Biz güclü olmalıyıq, hamı bir nəfər kimi ardımca irəli". Onu da demişdi ki, "ola bilər mənfur düşmən mən oturduğum BMP-ni vurar, amma mənim igidlərim, birdən dayanarsınız ki, mənə kömək göstərəsiniz. Sizə mən əmr verirəm və tapşırıram ki, dayanmadan irəli". Necə demişdi, elə də oldu. Hücuma keçdik. Komandirin BMP-si



öndə. Şiddətli döyüş gedirdi. Hər tərəfdən bizi atəşə tutmuşdular. Bir neçə texnikamız sıradan çıxdı. Şəhidlərimiz var idi. Buna baxmayaraq Ceyhunun bacarığı sayəsində bir neçə yüksəkliyi aldıq, üç erməni postunu məhv etdik. Füzulinin azadlığı uğrunda gedən şiddətli döyüşdə idik. Uğurlarımızı gördükcə sevincimizin həddi-hüdudu yox idi. Ermənilərin birinci eşalonunu darmadağın etdik. Komandirin hər an bir sözü var idi: "İgidlərim, arxamca, irəli". Döyüş çox şiddətləndi. Mənfur düşmən hər tərəfdən hər növ silahdan istifadə edirdi. Bizi məğlub etməyə çalışırdı, amma ordumuz elə həvəslə vuruşurdu ki, belə ordunun qabağını kəsmək mümkün deyildi. Ağır artilleriyaların atılmasına məhəl qoymayan komandir kordinatları bir-bir mənə ötürürdü, mən həmin hədəfləri vururdum".

Şəhidin silahdaşı sözünə davam edir: "Son nəfəsində belə dedi: "Şahin, sonuncu mövqeni vurduq?" Mən isə cavab verdim, "Bəli, komandir, vurduq". Gülümsəyərək əlimi sıxdı. Gözlərini yumaraq şəhidlik zirvəsinə yüksəldi. Mən özüm də yaralanmışdım. Sonra bilmədim necə oldu... Ruhun şad olsun, Komandir!"

**Müşfiq MİRZƏ,**
***"Respublika", 2022-10-29***



# CEYHUNUN İLK DÖYÜŞÜ




Ceyhun Həsənov  Naxçıvan Muxtar Respublikasında 10 illik xidməti boyunca daim düşmənlə üzbəüzə olub. Xidməti borcunu ön xətdə icra edib. Ceyhun kabinet zabiti yox, səngər zabiti idi. Naxçıvanda keçirilən və 2013- cü ildən başlayan paliqon təlimlərinin ən öndə gedən zabitlərindən biri kimi ad-san qazanmışdı. Onun ilk döyüşü Günnüt döyüşündən başlayıb. Qələbənin dadını bilib,  düşməndən qisasının bir parçasını o zaman alıb... Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Günnüt kəndi 1992-ci ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilimişdir.

"Günnüt əməliyyatı" — 2018-cı il mayın 20-dən 27-nə qədər Naxçıvan Muxtar Respublikasında baş verib. Əlahiddə Ümumqoşun Ordusunun əks-həmlə əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndi, "Ağbulaq" yüksəkliyi, Qızılqaya dağı və Qaraqaya dağı azad olunub, Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan ordusunun atəş nəzarəti altına keçib. Döyüşlər nəticə-



sində, ümumi olaraq, 11.000 hektarlıq ərazi azad olunub. Əməliyyat Azərbaycan Silahlı Qüvvələrinə İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verib.

Ərazinin etibarlı müdafiəsi və təminat məqsədi ilə 50 km yeni yol çəkilmiş, 50 km-dən artıq yararsız yollar isə bərpa edilmişdir. Strateji əhəmiyyətli Arpaçay dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub.







## XATİRƏLƏRDƏ YAŞAYAN İGİD

...Tarixin hər hansı bir zaman kəsiyində doğulub boya-başa çatdığı yurdun başını göylərə ucaldan və onun şərəfini qoruyan insanlar həm də mənsub olduğu xalqın tarixini yaradanlardır. Tarixin yadaşında qalan belə İNSANLAR qısa ömür yaşasalar da doğulduğu torpağı, ailənə, el-obanı cəmiyyətə tanıdırlar.

Şəhadətə qovuşan qəhrəman Ceyhun Həsənov da öz ailə üzvlərinə mükafatların ən böyüyünü, fəxri adların ən şərəflisini bağışladı: Şəhid anası, Şəhid atası, Şəhid bacısı... Məhz bu şərəfli və fəxarətli adın işığında valideynləri, yeganə bacısı, əkiz övladları cəmiyyətdə sayılıb-seçilən insanlar cərgəsində yer alıb, hörmət və ehtiramla qarşılanırlar. Bu adın işığı onların bundan sonrakı ömür yollarını daim mayak kimi aydınladır, bu adın əzəməti onların hər birinə yaşamaq üçün güc verir.

Ceyhun Vətən uğrunda şəhid olub, əbədiyyətə qovuşsa da öz doğmalarını, ata-anasını yalnız buraxmadı. Valideynləri özləri də etiraf edirlər ki, Ceyhunun silahdaşları, bütün Azərbaycan oğulları indi onların övladlarıdır. Kapitan Ceyhun Həsənov da yalnız onların deyil, Vətənin – Azərbaycanın, xalqın oğludur.

Aşağıda ailə üzvlərinin və qohmlarının Ceyhun barədə xatirələrini oxuculara təqdim edirik.

# AİLƏ ÜZVLƏRİ CEYHUN HAQQINA

## "Sən də haqqını mənə halal elə!"
## Anası Səmayə Həsənova





24 noyabr 1983-cü ildə Aydın Həsənovla sevgi və böyüklərimizin xeyir-duası ilə ailə həyatı qurduq. 1985-ci ilin 29 oktyabrında Ceyhun dünyaya gəldi. Ceyhun bizim ailənin ilk sevinci olub. Ceyhunun dünyaya gəlişi bizim sevincimizə daha da sevinc qatdı. Ata-ana olmaq hissini bizə Ceyhun bəxş edib. Həyatda bənzərsiz bir sevgi var. O da ata-ananın övladına qarşı olan sevgisidir. Analıq hissini ilk yaşadığım andan etibarən, ana məsuliyyətini də dərk etdim.

Ata-anasından gələn məhəbbəti o da hiss edib, duyurdu. Onu elə nəvazişlə böyütdüyümüzü anlayıb, gələcəyə inamla baxırdı. Artıq 3 yaşı vardı. İkinci övladımız Xatirə 1988-ci ilin 25 mayda dünyaya gəldi. Ceyhun artıq hər şeyi müəyyən qədər dərk etməyə başlamışdır. Bacısını qucağıma alan zaman tez qaçıb soruşurdu. "Sən mənim anamsan?" Bacısı ilə məni bölüşmək istəmirdi. Mehribanlıqla onu başa salırdım, əlbəttə, ikinizində anasıyam.Sən onun qardaşı, o isə sənin bacındır. Mükəmməl ailəmiz var idi. Hər kəs bizim ailəni özünə örnək göstərirdi.

27 sentyabr 2020-ci il 2-ci Qarabağ müharibəsi başladı. Mən Ceyhun deyə hayqırdım, Ceyhun isə Vətən deyə bağırdı. Ceyhunun şəhid olma xəbərini eşitdim, çarəsiz qaldım. Bizim ailənin sevinci Ceyhunla başladı, Ceyhunla bitdi, bütün arzularımız yarımçıq qaldı. Evimiz yanmış ocağın külünə döndü.

Ceyhun öz əməli ilə bu gün də bütün gənclərə örnək oldu. Vətən yolunda canını fəda etdi. Canı qədər sevdiyi vətənini hər kəsdən uca tutdu. Ata-anasını oğulsuz, bacısını qardaşsız, əkiz oğlan övladlarını atasız qoydu.

1 iyul 2018-ci ildə evlənmişdir. 2019-cu il 6 avqustda əkiz balaları dünyaya gəldi. Bu əkiz balalar Ceyhunu hədsiz sevindirmişdir. Nəvələrimizi böyük təmtəraqla xəstəxanadan çıxarıb evə gətirdik. Balalarını Ceyhun ancaq telefon bağlantısı ilə görərdi. Onlar üçün "burnumun ucu göynəyir" deyərdi. Həsənzadə Cavidan, Həsənzadə Cahid adlı balalarını Ceyhun vətənə əmanət qoydu. Ceyhun

balalarını doyunca qucağına almamış, sarılmamış, əzizləməmişdir. Balalarının qoxusunuda özü ilə apardı.

Kapitan Həsənov Ceyhun Aydın oğlu öz qanı ilə tarix yazdı, əməli ilə zəfər çaldı, cəsarəti ilə ölümdən çəkinmədi. Qarabağ torpağını öz qanı ilə suvardı, mərdliyi ilə tapdaq altında olan ərazilərimizi düşməndən xilas etdi və şəhid olaraq əbədiləşdi. Qarabağın işığını yandırdı, amma öz evinin işığını söndürdü.

Bir şəhid anası olaraq xalqımın övladlarından xahiş edirəm: Bu cür oğulları heç vaxt unutmayın, onları daim xatırlayın və anın. Bu sizin vətəndaşlıq borcunuzdur. Qəhrəman xatırlananda vətən də var olur. Tarixi və dar günündə qəhrəmanı olmayan xalqın sonu yoxdur.

Qarabağ torpağını öz qanları ilə suvaran bütün oğullara canım fəda.

Ceyhun bu dünyaya bir oğul kimi gəldi, kişi kimi böyüdü, qəhrəman kimi də bu dünyadan köçdü. Vətəni Azərbaycan naminə.

Tanrıdan bir tək istəyim var, məni oğluma qovuşdursun.

Varlığı ilə tarix yazdı Ceyhun yoxluğu ilə də tarix yaşadır.

***

***Müəllifdən:*** Səmayə xanım Həsənovanın “İlk və son döyüş günü...” filmində qəhrəman oğluna xitabən dediklərindən:

“Oğlum, azad etdiyin torpaqlarda ruhun gəzəcək. Bir də, onu demək istəyirəm ki, avqustun 6-da əkiz oğul övladlarının ad gününü, ilk yaşlarını qeyd etdin, amma bir daha qeyd edə bilməyəcəksən. Böyüyəndə biləcəklər ki, onların atası kimdir. Balaların səni şəkillərdə, tarixlərdə axtaracaq, səninlə fəxr edəcək məsum körpələrin. Vətənini balalarından, anasından yüksəkdə tutan Komandir. Ruhun şad olsun. Həmişə atalar belə deyərdi: “Anaların borcunu heç nə ilə qaytarmaq olmaz”. Amma indi mən belə deyirəm ki, oğul, sənin borcunu heç nə ilə qaytara bilmərəm. Həyatda sənə nə əziyyət çəkmişəmsə halal edirəm. Sən də haqqını mənə halal elə!..”



Şair Arif Fərzəli isə bu şeiri sanki Səmayə xanıma və bütün şəhid analarınına ithaf edib:

Dərd içini doğrasa da,
Mərd gəzən şəhid anası.
Yerin-göyün ağrısıdı,
Sən dözən,şəhid anası.

Yanağında qəm qonuşu,
Ala gözdə od donuşu...
Köksündə oğlun danışır,
Üzdə sən, şəhid anası.

Hicranın hicranlar başı,
Haqdan vurulub naxışı.
Bəd nəzərdən göz yaşını
Gözlə sən, şəhid anası.

Ölməzlik kücə,mən kücə,
Onun yolu mənim küçəm...
Şəhid olmam, lap yüz köçsəm,
Min ölsəm, şəhid anası.

Duruşun lal oxşamadı,
Dərdnən qurşaq qurşamadı.
Anam sənə oxşamadı,
Baisəm, şəhid anası.

## "İndi o, tək bizim ailənin deyil, bütün vətənin övladıdır."

### Atası Aydın Həsənov



Belə qəhrəmanlar dünyaya tək-tək gəlir. Ceyhun uşaq vaxtından elə qəhrəman kimi hərəkət edirdi. Oğlumun cəsurluğunu, mərdliyini uşaqlıq vaxtlarından hiss etmişdim.

Hər bir insan seçdiyi peşədən asılı olmayaraq işinə məsuliyyətlə yanaşmalıdır. Ceyhun da belə oğullardan biri idi.

30 ildə itirilən torpaqları 30 il ərzində yetişmiş zabitlər xilas etdilər. Belə oğulları olan dövlət basılmaz.

Güclü rəhbərin güclü ordusu olur. Dəmir yumruğun dəmir zərbəsi olur. Dəmir zərbəçilərin 83 nəfərindən biri də kapitan Ceyhun Həsənov olub. Mənfur düşmənə ilk zərbəni endirən elə məhz Ceyhun və onun əsgərləri olub. Onlar 30 ilə sükuta getmiş Qarabağın qara bağrını dəldilər. Öz qanları canları ilə Qarabağı qəfil yuxudan oyatdılar.

Ceyhun bu anı hər zaman gözləyirdi. "Cənab Ali Baş Komandan, arxayın ola bilərsiniz. Sizin əmrinizə hər zaman hazırıq", deyə söyləyərdi. Və beləliklə, Qarabağın hava qapısı adlanan Füzuli rayonundan döyüşə girərək, qələbəyə imza atdı. Qarabağın qara yollarını öz qanı ilə suvardı. Qarabağı işıqlandırdı, amma öz evinin işığını söndürdü. Ceyhun öz sözünü dedi və yetəri qədər peşəsinə, xalqına layiq bir vətəndaş kimi hərəkət etdi.

Ceyhunu yaşatmaq onun rəhbərindən və xalqından asılıdır. Oğul mənə gərək olan zamanda, vətənə dayaq oldu...

İndi o, tək bizim ailənin deyil, bütün Vətənin övladıdır...



ŞƏHİD ATASI

Başını uca tut, şəhid atası,
Sən qürur yerisən elin-obanın.
Cəsur böyütdüyün oğluna görə
Ruhu dinclik tapır ata-babanın.

Başını uca tut, buna haqqın var,
Sən oğul itirdin Vətən yolunda.
Bir oğul deyirəm çinar duruşlu,
Dağların gücü var onun qolunda.

Başını uca tut, ucadan uca.
Oğlun qazanıbdı bu ucalığı,
Onlar bu vətənin qan yaddaşıdı,
Şəhidlər millətin məhək daşıdı.

**Cəmilə ÇİÇƏK**





## Xalq bir insan ömründən uzun yaşayır, şəhidlərin sayəsində



Şəhid qəhrəman qardaşımdan yazmaq, onun haqqında danışmaq mənim üçün üzücü, kədərli olduğu qədər, həm də qürurludur. Qürurludur ona görə ki, mənim belə qəhrəman qardaşım olub. Üzücüdür ona görə ki, onun özünə, sözünə həsrət qalmışam. Ceyhun kimi gənc qardaşımdan belə erkən, həm də əbədi ayrılacağımı heç ağlıma gətirməzdim. Mənim üçün çox çətindir. Bacının qardaşsız qalmağı dünyanın bəlkə də ən ağrılı-acılı hadisəsi hesab oluna bilər. Bu ağrı heç vaxt azalmayacaq, getdikcə onun yoxluğunu dərindən dərk etdikcə daha da şiddətlənəcək. Çünki, biz bacı-qardaş bir-birimizdən doymadıq. Məsafələr bizi ayrı, bir-birimizdən uzaq saxlayır. Ceyhunun seçdiyi peşə bizi ildə bir dəfə görüşməyə fürsət verirdi.

Onun evimizə gəlməsi sanki yaz fəsli, yaz havası kimi idi.

Evimizin işığı-yaraşığı idi Ceyhun! Ceyhunun hər gəlişi evimizi nura qərq edərdi. Ocağımızın hərarəti artardı, anamın-atamın üzündən sevinc hissi əskik olmazdı. Vətənə canla-başla qulluq edən Ceyhunun qulluğunda bacı kimi dayanmaq mənə ayrıca zövq verirdi. Onunla qısa müddətli görüş əsnasında çalışırdım ki, Ceyhunun bütün istəklərini yerinə yetirim. Xoşladığı xörəkləri hazırlayar, geyimlərini həvəslə təmizləyərdim...



Ceyhunun hörmətini hər kəs saxlayardı, onunla görüşməyə bizim kimi dostları da can atardı. Məzuniyyətə gəldiyi müddətdə özü də çalışardı ki, bütün yaxınları, doğmaları ilə görüşsün. Ceyhuna hər kəs həsrət idi. İntizarla gələcəyi günü gözləyərdik. Gələndə də ondan ayrılmaq istəmirdik… Hər dəfə məzuniyyətinin bitməsinə az müddət qalanda, üstümüzə sanki soyuq payız rüzgarları əsirdi. Zamanın uzanmasını istəyirdik. Ceyhunun bizim evə gəlişi yazı, gedişi isə payızı xatırladırdı…

Vətənə məhəbbəti, torpağa bağlılığı hələ yeniyetməlik illərindən gözlərindən, hərəkətlərindən, danışığından oxunurdu qardaşımın…

Ceyhun bir anlıq şəxsi şücaəti ilə, bir ömürlük əbədi qəhrəmanlıq qazandı. 30 ilə yaxın düşmən əsarətində qalan Qarabağın “tilsimini” sındıran ilk addım, ilk uğur mənim qardaşım Ceyhunun sayəsində olub. O, ən çətin maneələri keçərək, müharibənin ilk günü Azərbaycan xalqına sevinc yaşatdı. Keçilməz yollar keçdi, Qarabağın azadlığına gedən cığırını canı, qanı bahasına Ceyhun açdı. On bir il Naxçıvanda zabit olmuşdu, Beyləqanda zabitlik həyatının bir ili tam olmamışdı ki, müharibə başladı. Sanki Qarabağ öz azadılığına Ceyhun vasitəsi ilə qovuşacağını gözləyirdi. Darda qalan Qarabağın fəryadına yetişdi Ceyhun!..

Daim ön xətdə xidmət edən zabit olub. Ön xətdə olmağın özü müharibənin xırda miqyaslı olmasına dəfələrlə şahid olmasına dəlalət edirdi. Düşmənlə 12 il üz-üzə dayanmaq bir zabit kimi onun böyük ürək, cəsarət sahibi olduğunun isbatıdır. Bir əmr bəs etdi ki, bütün tilsimlər qırılsın. Ceyhun 35 il ömür yaşadı. Ceyhun Azərbaycanın ortancıl övladı olub, onun qüruru icazə vermədi ki, torpaqlarımız düşmən tapdağı altında 30 ildən artıq qalsın. Məhz müharibənin başladığı həmin gün - 27.09.2020 tarixi Ceyhunun qələbə qazandığı və şəhidlik zirvəsinə ucaldığı gündür… O gün Ceyhunun çətinliklə keçdiyi yolu, arxadan gələnlər asanlıqla keçdilər…





Mənim şəhid qardaşım öz hünəri ilə tarix yazdı. Ceyhun İkinci Qarabağ müharibəsinin - Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüş zabiti oldu. Bu ad ona qəhrəmanlığı, cəsurluğu, şəxsi şücaətinə görə cənab Prezident İlham Əliyev tərfindən verilib. Qardaşımın əməyi yüksək səviyyədə qiymətləndirilib. Vətən



Müharibəsi Qəhrəmanı adı və medalları İkinci Qarabağ müharibəsindən sonra təsis edilmişdir.

Ceyhunun taleyində rəqəmlərin də rolu var. Belə ki, Naxçıvanda idarə etdiyi "Niva" markalı maşının dövlət qeydiyyat nişanı. 85 CH 943-dür. Sanki bu maşın da öz–özlüyündə Ceyhundan bəhs edirdi. 1985 doğulduğu təvəllüd, CH ad və soy adının baş hərfləri. 9- vəfat etdiyi ay, 4-ailə tərkibi, 3-gözü yaşlı qoyub getdiyi 3 nəfər...

Qardaşımın həyatında 4 rəqəminin xüsusi yeri var. Ailə üzvümüzün 4 nəfər olması, çiynində daşıdığı 4 ulduzlu kapitan rütbəsi,



yaşadığı mənzilin nömrəsinin 4 olması, məzarının xiyabanda 4-cü sırada olması, adını daşıdığı məktəbdə 4 rəqəminin olması... Əbədiyaşar mənzili isə 48 nömrəli məktəb oldu.

## ...Ceyhun hər zaman mən sağ Qəhrəman olacağam deyirdi

27 sentyabr 2020- ci il Azərbaycan xalqının ən yadda qalan tarixinə çevrildi. Həmin gün 2-ci Qarabağ müharibəsinin başlanması ilə qələbənin ilk sevincinin yaşanması bir-birinə qarışmışdır. Amma bu sevinc əlbəttə ki, itkisiz deyildi. Hərbi qüvvələrimizin göstərdiyi şücaətdən, itirilmiş torpaqlarımızın geri alınmasından ağız dolusu danışılırdı, amma itkilərimizin miqyası açıqlanmırdı. Müharibənin ilk günü qələbə qazanmaq hər ordunun işi deyildi.

Qardaşım Ceyhun ilk dəfə deyildi ki, müharibə görürdü. Artıq onun uğurlu Cünnüt əməliyyatından döyüş səriştəsi var idi. Düşmənlə ön xətdə cəsur zabit kimi dayanmışdı.

Artıq ailəmiz narahat olmağa başlamışdır. Yaxşı bilirdik ki, Ceyhun ola, müharibədən yana qaça. Ona nə qədər zənglər etdik, amma telefonuna zəng çatmadı. Nigarançılıq lap bizi bürümüşdür. 27 sentyabr gecə yuxu gördüm. Ağ rəngli çiçəklərlə şəkil çəkdimək istəyirdim. Gəldim gördüm ki, çiçəklər solub, şəkil çəkdirə bilmədiyim üçün çox pis oldum. Eləcə yuxudan oyandım, səhərə qədər məni daxilimdə sanki nəsə yeyirdi, yata bilmədim.

28 sentyabr səhər açıldı. Özümə yer tapa bilmirdim. Tez-tez ailəmizlə əlaqə saxlayırdıq, bəlkə kimsə Ceyhunla danışa, xəbər bilə... Amma nə fayda; Ceyhundan heç səs-soraq yox idi. Axşam saat 8-9 arası olardı ki, yenidən danışmaq üçün evə zəng etdim. Elə yenicə salamlaşmışdıq ki, qapımız döyüldü. Xətai rayon İcra Hakimiyyətinin nümayəndələri bizim evə qara xəbər



ilə gəlmişdirlər. Anam, atam evdə, mən isə yad yerdə eyni anda bu acı xəbəri öyrəndik. Dünya sankı, bizim başımıza uçmuşdu, biz də altında qalmışdıq. Heç cür inana bilmirdik. Bu xəbər doğru ola bilməzdi. Mənim qardaşım sağ QƏHRƏMAN olacaqdı... Nə fayda, artıq olanlar olmuşdu. Qardaşımın Azərbaycan bayrağına bürünmüş tabutu evimizə doğru gətirilirdi, məndə yola düşdüm. Hər ikimiz ata ocağına gəlirdik, eyni yollarla, amma başqa tərzdə, başqa qiyafədə. Demək olar ki, ata ocağına 5 dəqiqə fərq ilə çatdıq. Bu gəliş hər ikimiz üçün başqa gəliş idi. O qədər ağrılı- acılı idi ki, dilə gətirmək belə mümkün deyil. Binanın qarşısındakı izdihamı gördüm. “Şəhidlər ölməz, Vətən bölünməz!”, “Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!” şuarları altında vidalaşmağa gələnlərin səsi küçələrdə əks-səda verirdi. Yaşatdığımız ağrı - acı böyük idi. Üçrəngli bayrağa bürünən tabutla qarşılaşıncaya qədər nəyəsə ümid olduğuna az da olsa inanırdım. Ümidlər elə oradaca yox oldu. Fəqət, həqiqətlə barışmaq olmurdu. Fəryadımız göylərə qalxmışdır. Bütün şəhər sanki fəryadı eşidib bura gəlmişdir.





2020-ci ilin sentyabrın 28-dən 29-na keçən gecə Ceyhun sonuncu dəfə öz evinin sakini oldu. Ayrılmaq çox çətin idi. 29-u səhər şəhər şəhid kapitan Həsənov Ceyhunu son mənzilə yola salırdı.

2-ci Fəxri Xiyabana dəfn üçün yol aldıq. Yollara heç bu qədər nifrət etməmişdim. Qardaşımı mənim əlimdən alıb aparırdı. Qardaşımın tabutu məzara sığmırdı. Sanki, həmin an elə bildim qardaşımı özümə qaytaracaqlar. Mən Ceyhunun son halını görməmiş, onu öpməmiş cənnətə yola saldım.

Ceyhunun necə, hansı vəziyyətdə şəhid olduğunu bilmirdik. Öyrənmək üçün can atırdıq.

Bir gecə yenə yuxu gördüm. Qardaşıma yemək verdim, yedi. Sonra dedi ki, mən getməliyəm. Dedim ki, mən də sənlə gələcəm. Hündür bir yerə qalxdıq, oradan aşağı baxdıq. Mənə dedi, bax görürsən, əclaflar çayı çirkləndiriblər. Dedim, biz indi nə etməliyik? Əlinə binokl alıb, ətrafı seyr etməyə başladı. Sonra düşmənin atdığı hədəfləri məhv edirdi. Bunu görüb mən də öz köməkliyimi göstərməyə başladım. Biz ağ mənəfələrin arasından bizə tərəf parlayıb gələn atəşləri görürdük. Hansı tərəfdən atəş açılırdısa, mən tez qardaşıma deyirdim, o da anındaca həmin hədəfi məhv edirdi. Bir xeyli vuruşduqdan sonra, bir də gördüm qardaşımın dizi yerə gəldi. Yeriyə bilmədi. Tez qışqırıb dedim, insanlar kömək





edin, bu mənim qardaşımdır, bilirsiniz? O savaşdan gəlib. Kömək edib onu bir masada əyləşdirdik. Amma onun danışmağa heç taqəti qalmamışdır... Bu gördüklərim sadəcə yuxu idi...

Biz sonradan qardaşımın döyüş fəaliyyətini onunla döyüşdə iştirak etmiş zabitlərdən eşitdik. Demək olar ki, gördüyüm yuxu ilə eyni idi. Yuxuların hər zaman mənə hər şeyi agah etmişdir.

Qardaşımın vəfatından sonra İTV kanalının "Heç kim unudulmur, heç nə yaddan çıxmır" layihəsi adlı sənədli film çəkilmişdir. Daha sonra internet kanalı olan "İki sahil", Qafqaz Müsəlmanları İdarəsinin TV kanalı, eyni zamanda "Unudulmazlar" layihəsi, həmçinin "Belə belə işlər" layihəsi çəkilişlər etmişdir.

Dövlət televiziya kanalı olan Az.TV, İTV, REAL TV, CBC , İHA Türkiyə kanalı Vətən Müharibəsi Qəhrəmanı şəhid kapitan Həsənov Ceyhun haqqında çəkilişlər etmişlər.

...Anamla birgə Ceyhunun otağını ondan yadigar qalan xatirə əşyaları, şəkilləri ilə bəzəmişik. Hər gün oradan nəfəsini, ətrini duyuruq qardaşımın. İndi o otaq nəinki bizim, onu yad etmək üçün evimizə gələn hər kəsin, qohum-əqrəbanın dost-tanışın ziyarət yerinə çevrilib.

Üzümü bu sətirləri yaza-yaza Ceyhunun ölməz ruhuna və portretinə tutub deyirəm: "Sən bizim fəxrimiz, qürurumuzsan. Hər bir kəs başın əyir ruhun önündə… Rahat yat məzarda, şəhid qardaşım!"

Duyursan - sənsizlik çətindir bizə,
Duyursan - xoşbəxtdir ruhun qardaşım!
Qələbə sevinci yaşatdın bizə,
Ey şəhid qardaşım, Ceyhun qardaşım!

# CEYHUNUN QISA TALEYİ



Təqvimdə 1985 –ci il oktyabr ayının 29-u idi. O gün Tovuz rayonunun Çeşməli kəndində cılız bir oğlan uşağı dünyaya göz açdı. Kim bilə bilərdi ki, bu oğlanın taleyi gələcəkdə necə olacaq. Həyat onu hansı sınaqlarına çəkəcək və onun taleyinə necə günlər bəxş edəcək...

Bu oğlana əmisi tərəfindən Ceyhun adı qoyuldu. Ceyhun sözü dilimizdə coşan, coşqun, güclü, igid mənasındadır. Artıq körpəlik çağlarından bu ad doğmaları üçün müəyyən mənaları özündə ehtiva edirdi.

Ceyhunun şərəfinə atası Aydın kənddə yol, bulaq çəkdirdi. Yol və bulaq Ceyhunun həyatının ilkin mərhələsindən başlamış xeyirxah missiya kimi qəbul edildi.

Demək olar ki, Ceyhunun uşaqlıq illəri kənddə keçdi. Nənə, əmi, bibi əhatəsində böyüyən bu ərköyün, cəsur, qorxmaz yeniyetmə oğlan öz həmyaşıdlarından fərqlənib seçilirdi. Dağlarda at çapmaq, güləşmək, özü üçün taxta parçasından silahlar düzəltmək və digər məharətləri onun uşaqlıq çağlarından əsl xarakterini formalaşdırırdı. Bəli, uşaqlıqdan döyüşkən ruhlu bir oğlan idi Ceyhun! “Böyüyəndə general olacam!” deyərdi. "Arzun hara, mənzilin də ora" deyiblər. İnsan oğlunun yaşadığı bütün məkanlar kimi, şəhər mühüti də onun bütün yaxşı tərəflərini özündə əks etdirir, arzularına qol-qanad verirdi...

Bakıda oxuduğu 257 nömrəli məktəb illəri Ceyhunun iradə-

sini, özünəinamını daha da möhkəmləndirdi. O, burada idmanın karate, cudo, basketbol növlərində özünü sınadı. Bu məharətləri Ceyhunun fiziki görkəmini getdikcə dəyişdi. Artıq əvvəlki cılız oğlandan əsər-əlamət belə yox idi. Yaşa dolduqca məktəbdə keçirilən hərb-idman yarışlarında iştirak etməyə başladı. Qəlbində, ruhunda, əməlində vətənpərvərlik və vətəndaşlıq hissləri gücləndi.

Ölkədə hər şey demək olar ki, onun gözü önündə baş verirdi. Cəbhə bölgəsində düşmənin Azərbaycan xalqı üçün törətdiyi fəlakətlərin ardı-arası kəsilmirdi. Tez-tez şəhid xəbərləri eşitdikdə, Ceyhun artıq daxilində verdiyi qəti qərarı gerçəkləşdirmək barədə düşünürdü: “Mən hərbiçi olacağam, general rütbəsinə kimi yüksələcəyəm...”

Bu minvalla 8-ci sinfi bitirəndən sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olmuşdu. Yaşadığı sevinc hissini özü -özünə hədiyyə etmişdir. Orta məktəbə əlvida deyib, daha çətin və şərəfli peşə seçmişdir. Ceyhun hər şeyi nə üçün və nəyə görə etdiyini yaxşı bilirdi.

Doğma ailədən uzaqlaşmaq onun üçün Vətəni, sevdiklərini, xalqı və dövləti qorumaq demək idi. Hərbi peşəyə yiyələndiyi ilk gündən Ceyhunun amalı bəlli idi: “Vətən torpaqlarını düşmən tapdağından azad etmək”...

Ceyhun hərbi liseydə oxuduğu müddətdə sinif nümayəndəsi idi. Hərbi hazırlıq və idman dərslərində yüksək naliyyətlər əldə etmişdir. Məktəbin bədii qiraət müsabiqələrində qalibi olmuşdur. O, öz uğurları ilə nəinki kursant yoldaşlarının, eyni zamanda müəllimlərin də dərin hörmətini qazanmışdır.

Ceyhun Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsilini başa vurandan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (AAHM) qəbul oldu. Nəzəri və praktiki hərbi biliklərini artırmaqla yanaşı, onun uniforması da dəyişirdi. Hər bir forma Ceyhunu başqa bir Ceyhuna çevirirdi. Getdikcə ağır təbiətli, təmkinli, təvazökar insana çevrilən Ceyhun ali hərbi məktəbin ən sevilən məzunu oldu.

Növbəti addım Təlim - Tədris mərkəzində təhsil almaq idi. Ar-



tıq hərbin bütün sirlərinə bələd idi. İndi özünün də intizamlı əsgər və kiçik zabit heyəti yetişdirmək vaxtı çatmışdı. Və beləliklə, uğurlu təhsil illərindən sonra Naxçıvan Muxtar Respulbikasında Azərbaycan Silahlı Qüvvələrinin zabit kimi hərbi xidmətə başladı. İlk baxışdan əsgər və zabit heyəti ilə mədəni davranışlarına görə seçilsə də, hamıda tələbkar komandir təəssüratı yaratmışdı. Orada 10 illik fəaliyyəti ona çoxlu sayda dost, zabit yoldaşı, əsgər sevgisi qazandırdı. Təlimlərdə tər tökərək ən öndə gedən, düşmənlərə qorxu hissi yaşadan zabitlərdən biri idi. Qədim Naxçıvan diyarının sərhəd rayonlarında xidmət edən bir peşəkar zabit olaraq mükəmməliyin zirvəsinə ucalmışdı. 2018-ci ilin mayında Şərur rayonunun Günnüt kəndinin düşməndən azad edilməsində, dövlət sərhədi boyunca əlverişli mövqelərin Azərbaycan Ordusunun nəzarəti altına keçməsində Ceyhun Həsənovun da payı var idi. Günnüt əməliyyatı sübut etdi ki, Azərbaycan Ordusu Böyük Qələbələr qazanmağa qadirdir.

... Artıq əkiz oğul atası idi Ceyhun. Övladlarını tez-tez görmək arzusuyla yaşayırdı. Ona görə yerdəyişmə istəyi ilə Beyləqanda hərbi xidmətini davam etdirmək qərarına gəldi.

İki oğul atası olmağın sevincini yaşayan Ceyhun onların gələcək fəaliyyətini öz- özlüyündə belə təsəvvür edərdi: Cavidan çox oxuyub alim olacaq, Cahid isə peşəkar idmançı... Övladlarına "qaqalar" deyə müraciət edərdi. Əkizlər ilə ancaq telefon vasitəsilə əlaqə saxlayırdı. Bu bağlılıq ancaq virtual olardı. Çox nadir məqamlarda onlarla canlı əlaqə saxlaya bilirdi.

Bu da Ceyhunun taleyi, kövrək həyat hekayəsidir. Payızda dünyaya gələn Ceyhunun "qaqalar" dediyi əkiz övladı ilə bir payız günü vidalaşacağına adamın inanmağı gəlmirdi.

O payız günü - Sentyabrın 27-si Azərbaycan tarixində yeni səhifə açıldı. Sentyabrın 27-si İkinci Qarabağ müharibəsi başladı. Və o payız günü kapitan Ceyhun Həsənovun taleyinə ilk və son döyüş günü kimi yazıldı. O bir gündə onun bir zabit kimi nələri

bacardığını  Ceyhunun bir özü bildi, bir də yaxın silahdaşları...

Numerologiya elmi ilə məşğul olanların fikrincə, rəqəmlər insan taleyinə də müəyyən qədər təsir edə bilir. Güya insanların doğulduğu tarixlə bağlı ştrix kodları olur. Bu kodları ancaq numeroloqlar hesablaya bilir. 29 rəqəmi əməli təfəkkür mənasını verən və rəqəmlər dilindən "ruhun bədən üzərində qələbəsi" kimi tərcümə olunur. 29 -un daşıyıcıları yaxşı inkişaf etmiş intellektlə fərqlənirlər: bir qayda olaraq, onlar fəaliyyətlərinin mövzusunu hərtərəfli öyrənirlər və əhəmiyyətli uğurlar əldə edirlər. Bir qayda olaraq, bu rəqəmin daşıyıcıları çoxlu dostları və yaxşı tanışları olan ünsiyyətcil insanlardır.

29  rəqəmi altında Ceyhun həm dünyaya gəlib, həm  də  torpağa tapşırılıb…

Dünyaya gəlişinə bir ailə, Çeşməli  kəndindəki qohum-əqrabası sevinmişdi.  Dünyadan gedişinə bütün Azərbaycan xalqı kədərləndi.

Ceyhunun Azərbaycan bayrağına bürünmüş nəşini xalq qarşıladı, xalq da yola saldı. O gün izdihamın ardı-arası kəsilmirdi. Xalq Ceyhunun   hansı  igidliklər göstərdiyini,  hansı amal uğrunda  şəhid olduğunu dərk edib, Vətən Müharibəsinin qəhrəmanı, şəhid kapitanla  vidalaşmağa gəlmişdi. İnsanlar  bu vida  mərasimini özləri üçün vətəndaşlıq  borcu bilirdilər... 40 gün, 40 gecə Ceyhunun boya-başa çatdığı məhəllədə izdiham yaşandı.  Gənc zabitin əbədi ayrılığı təkcə  Həsənovlar ailəsini deyil,  hamını yandırıb-yaxırdı.

Bu gün “Qarabağ Azərbaycandır” ifadəsi dillərdə əzbərdir. Qələbəmizin rəmzinə çevrilən bu  ifadə Azərbaycan ordusunun zabit və əsgərlərinin qəhrəmanlığına güvənilərək yaranmışdır... 30  illik  həsrətə  44 gün  ərzində son qoyan  qəhrəmanların sayəsində...

Bəli,  Milli  Ordumuz doğma torpaqlarımızın düşmən tapdağından azad edilməsi üçün əks-həmlə əməliyyatlarına başladı və 44 gün ərzində  tarixi Zəfər  qazandı. Azərbaycan Ordusu öz sözünü dedi və düşmənə qan uddurdu. Siyasət meydanda qələbəmizi hərbi gücümüz təmin etdi.

Bütün şəhidlərimizi  ehtiramla anırıq və hər zaman onların



müqəddəs ruhları qarşısında baş əyərək, əziz xatirələrini hörmətlə anacağıq. Allah cəmi şəhidlərimizə rəhmət eləsin, yaralı qazilərə şəfa versin.

**Xatirə Həsənova**
**(Bacısı)**







# QİSASA TƏLƏSƏN İGİD

1985 - ci ildə Ceyhun dünyaya gələndə mən hərbi xidmətdə idim və Ceyhunun şəklini mənə göndərilən məktubda görəndə sevincimin həddi - hüdudu yox idi. O qədər sevinmişdim ki, ətrafımda hər kəsə onun şəklini göstərirdim. Elə sanırdım ki, onlar da sevinir. Mən onu qardaş balası kimi yox, öz balam kimi sevib qayğı göstərirdim.



Bir müddət sonra onlar Bakı şəhərinə köçdülər. Mən hərbi xidmətdən qayıtdıqdan sonra onun yanına yollandım və o gündən etibarən biz bir-birimizə çox bağlandıq. Həmin vaxtdan sonra Ceyhun tez - tez kəndə gəlməyə başladı. İllər keçdi və onun ilk dərs günləri başladı, lakin Ceyhun mənə o qədər bağlı idi ki, məktəbin bitməsini yay tətilini səbirsizliklə gözləyirdi. Bizim saysız hesabsız xatirələrimiz var. Onlardan ən əsası Ceyhunla birgə getdiyimiz bulaq idi, hansı ki, Ceyhun şəhid olduqdan qısa bir müddət sonra o bulaq qurudu ...

Onun ilk məktəb illəri 1- ci Qarabağ müharibəsi dövrünə təsadüf etdi. Ceyhun, məktəbdə, evdə, televiziyada ermənilərin Qarabağda törətdiyi vəhşiliyi görüb və eşitdiyi üçün onlara qarşı onun içində böyük bir nifrət hissi oyanmışdır. O, hər kəndə gələndə özü ilə oyuncaq silah gətirərdi və mənə deyərdi : "Əmi mən böyüyəndə "naçalnik" (komandir) olacam və ermənilərin kökünü kəsəcəm!". Bütün bunlar onu göstərir ki, Ceyhun necə vətənpərvər uşaq olub. Zaman keçdikcə onun düşmənə nifrəti artdı və



tələsərək ordu sıralarına qoşuldu. Ceyhun tez bir zamanda böyük şücaət göstərərək ön sıralarda xidmət etmiş və "kapitan" rütbəsinə yüksəlmişdir. O hər zaman deyirdi ki, "21 - ci əsrin zabitləri yetişir, tez bir zamanda qisasımızı alacağıq." O zaman Ceyhun Beyləqan rayonunun N saylı hərbi hissəsində xidmət edirdi. Döyüş əmri aldığı zaman dediyi və verdiyi sözə sadiq qalaraq Füzuli şəhərinə - ön cəbhəyə qisas almağa yollanır. Gərgin döyüş zamanı ermənilərin ilk səddini yararaq 80 nəfəri mühasirədən çıxarmış, geri dönüş zamanı qisasa tələsdiyi kimi, “Şəhidlik" zirvəsinə ucalaraq qəhrəmancasına həlak olur.

O, mənim ürəyimdə balaca “naçalnik" qəhrəmanım olaraq əbədi qalacaqdır!

Allahdan Ceyhuna və bütün şəhidlərimizə rəhmət diləyirəm.

**Balakişi Həsənov**
**(əmisi)**







## Şəhidliyə bundan yüksək qiymət ola bilərmi?



Bacım oğlu-Azərbaycan Silahlı Qüvvələrinin kapitanı Ceyhun Həsənov Vətən müharibəsinin ilk günündə - 27 sentyabr 2020-ci ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşərək canını fəda edib şəhidlik zirvəsinə ucaldı.

Ceyhun Vətənpərvər, torpağını sevən, bayrağını sevən, Prezidentini sevən, anasını-atasını sevən, qohumların hamısının yanında hörmətli, xətirli uşaq olub. Ceyhunda o qədər qəhrəmanlıq hissi, qorxmazlıq, mərdlik hissi var idi ki... Düşünürəm ki, ona bu qəhrəmanlıq adı azdır. O, çox böyük hünərli, savadlı, həm də bacarıqlı idi.

Ceyhun Vətənini balalarından, anasından yüksəkdə tutaraq son nəfəsinə qədər Azərbaycanın torpaqları uğrunda vuruşub qəhrəmancasına həlak oldu. Nəinki bizim, o, həm də Azərbaycanın fəxridir. O, daim bizim qəlbimizdədir. Belə bir deyim var:

“ Torpaq uğrunda ölən varsa, o torpaq Vətən olurmuş”. Şəhidlərimiz torpağı bizim üçün vətən halına gətirdilər, vətən uğrunda ölməyin gərərkliliyini göstərdilər.

Vətən uğrunda əslində ölməzmişlər! Müqəddəs kitabımız “Qurani – Kərim”də səslənir: “Şəhidlər haqqında öldü deməyin; onlar diridirlər!”

**Sənubər Novruzova**
**(Xalası)**



## Ceyhunum əvəzolunmaz bir şəxsiyyət idi



Ceyhun mənim bacım oğlu idi. O, vətənini sevən, ailəsini sevən bir şəxsiyyət idi. Ceyhun haqqında danışmaq mənim üçün həm ağrılı, həm də şərəflidir. Ağırdı, ona görə ki, artıq Ceyhun aramızda yoxdur. Bu mənim üçün dözülməz dərddir. Ceyhunun mehriban, gülərüz siması gözümün qabağından getmir. Ceyhunun şəhid olduğu gün heç mənim yadımdan çıxmır. 27 sentyabr axşamı yer elə bil üstümə gəldi. Sanki qulaqlarım tutuldu, dizlərim əsdi, huşumu itirdim. Ceyhunu itirmək mənə çox ağırdı. Ceyhunum mənim ən istəkli şirin balam idi. Ceyhun məzuniyyətə gələndə həmişə ona istədiyi xörəkləri sevə - sevə hazırlayırdım. Hamımız oturub danışıb gülə-gülə yeyərdik. Heyif o günlərdən. Artıq 3 ildir ki, Ceyhunum aramızda yoxdur. Ceyhunum o qədər yüksəklərə ucalıb ki, heç vaxt ona əlim çatmayacaq. Ceyhunumun əkiz oğlan övladı bizlərə yadigar qalıb: Cavidan və Cahid. Ancaq Ceyhunumun yerini heç kim verə bilməz. Axı mənim Ceyhunum əvəzolunmaz bir şəxsiyyət idi. Allah bütün şəhidlərə rəhmət eləsin, heç vaxt unuda bilmədiyim Ceyhunum, yolun düşsə bu dünyaya bir də gəl. Sənin yolunu çox gözləyənlərin var, mənim şərəfli şəhidim, Ceyhunum.

**Məhbubə Məşədiyeva**
**(Xalası)**





# RUHU QƏLƏBƏYƏ KÖKLƏNƏN İGİD



Mənim xalam oğlu Həsənov Ceyhun işğalçı Ermənistanın dinc əhalimizə qarşı yönəlmiş hərbi təxribatına cavab olaraq Azərbaycan ordusunun əks-hücumu ilə başlayan Vətən müharibəsində öz adını şəhid olan igid Azərbaycan oğullarının cərgəsinə əlavə etdi.

Ceyhun üçün müqəddəs olan 2 şey vardı: Vətəni və valideynləri.

Vətənə məhəbbət insanın qəlbində yaşayan, onu doğma yurdunu, xalqını qorumağa sövq edən ən güclü mənəvi-əxlaqi hissdir.

Ceyhun valideynlərinə - xüsusi ilə də anasına çox bağlı idi. Mən bu yaşıma kimi anasına Ceyhun qədər bağlı olan bir oğul görməmişəm. Bu bağlılığı mən sözlərimlə nə qədər ifadə etməyə çalışsam da mümkün deyil. Ceyhun ailəsini, iki əkiz övladını çox sevirdi. Lakin çox təssüflər olsun ki, o övladlarını böyüdə, xoş günlərini görüb fərəh edə bilmədi. Ceyhun çox səmimi, mehriban, gülərüz, xoş xasiyyət biri idi.

Ceyhun həm də fədakar biri idi. Heç zaman özünü düşünməzdi. Vətən müharibəsində də qəhrəmancasına döyüşərək öz canını böyüdüyü, boy atdığı Vətəni Azərbaycanın bütövlüyü naminə fəda elədi.

Mən xalam oğlu Ceyhun Həsənovla fəxr edirəm. Çünki, o vətəninin dar günündə xidmətində dayanaraq Vətənimizin azadlığı uğrunda vuruşdu, canından keçdi.

Ceyhunun başladığı müqəddəs mübarizə şanlı qələbəmizlə yekunlaşdı.

Sonda isə fikrimi bu cür tamamlamaq istəyirəm:

Taleyimiz haqda dəqiq bildiyimiz bir məlumat var - sonu ölüm. Lakin sonu ölüm olan bu dünyada şəhidlik zirvəsi hər kəsə nəsib olmur.

Şəhidlik zirvəsinə ucalan xalam oğlu Ceyhun Həsənovu heç vaxt unutmayacağıq, o daim bizim qəlbimizdə yaşayacaq.

**Jalə Abdullayeva**
**(xalası qızı)**







## Qardaşın ölməyib ki...



Ceyhun haqqında da nə qədər danışsam azdır. Üstəlik onun haqqında danışmaq nə qədər üzücüdürsə bir o qədər də qürur vericidir. Biz Ceyhunla qan bağıyla yanaşı həm də can bağıyla bağlıydıq. Onun yoxluğundan illər keçib ama mən hələdə inanan bilirəm bu yoxluğa. Ona olan sevgimi, hörmətimi heç bir sözlərlə ifadə edə bilmərəm. O daim bizə örnək olub. Uşaq vaxtından onun kimi bir Qardaşım olduğu üçün o qədər fəxr edirdim ki, hamıya ondan danışırdım.

Lakin bu gün ondan geriyə acı xatirələr qalıb. Onun mənə dediyi bu cümləni heç vaxt unuda bilmərəm, "Qardaşın ölməyib ki, heçnəyi düşünmə"

Qardaşım sən kaş sağ olardın bu gün göz yaşımla sənin haqqında danışdıqlarımı gülə-gülə sənə danışardım. Sən daim qəlbimizdə yaşayacaqsan. Varlığında bizi necə qürurlandırdınsa yoxluğunda daim bizi qürurlandırırsan. Sən bizim fəxr yerimiz qürur mənbəyimizsən amma sənin yaşatdığın acı fəxrindən böyük oldu....

**Aynişan Həsənova**
**(əmisi qızı)**



## Biz səni heç vaxt unutmarıq



Azərbaycanın bütövlüyü uğrunda canını fəda etmiş igid, cəsur, qorxmaz oğullarımızdan biri də kapitan Ceyhun Həsənovdur. Uşaqlıqdan hər bir davranışı, tərbiyəsi, mədəniyyəti ilə digərlərindən seçilirdi. Ceyhun kiçik yaşlarında olanda evlərinə tez-tez gedərdim. Onun o şirin təbəssümlü siması hər an qəlbimdə xatirə olaraq qalır. Hər zaman valideynlərinin sözünə baxan, qonşu uşaqlarla xoş rəftar edən biri idi. Xətrini çox istəyirdim, o da məni çox istəyirdi. Hər zaman deyərdi ki, əmi bizə tez- tez gəl. Uşaqlığından sanki, böyük adamlar kimi danışırdı. Onu tanıyan dost-tanış, qohumlar ondan ağız dolusu danışırdılar.

Ceyhun öz canını vətənimiz uğrunda fəda edən qəhrəmanlardan biridir. Şəhidlik zirvəsinə ucaldı. Qürur yerimiz oldu. Başımızı hər yerdə uca etdi. Xatirəsi hər zaman qəlbimizdədir. Biz səni heç vaxt unutmarıq Ceyhun. Allahdan sənə rəhmət diləyirik, məkanın cənnət olsun. Ailənə səbr diləyirik. Gələcək nəsillər üçün örnək ömür qoyub getdin. 34 illik ömrünün son gününü qəhrəmanlıqla yekunlaşdırdın. Biz Vətənimizi, xalqımızı şəhidlərə görə sevirik. Onların bizə əmanət qoyduğu Vətən torpağını Ceyhun qoruyub gənc nəsillərə ötürməliyik.

Azərbaycanın Tovuz elində doğuldu, Füzuli diyarında şəhid oldu, Bakıda dəfn olundu.

**Əkbər Abbasov**
**(əmioğlu)**

## Ceyhun ağıllı və müdrik insan idi

Uzun illərdir işğal altında olan torpaqlarımızın işğaldan azad olunması, uğrunda can verən cəmi şəhidlərimizi dərin hüzün və baş sağlığı ilə anır, ruhları qarşısında baş əyir, Allahdan rəhmət diləyirik. Qazilərimizə Allahdan şəfa, uzun ömür, can sağlığı arzu edirik. Mən Abdullayev İlknur şəhid kapitan Həsənov Ceyhunun xalası oğluyam. Ceyhun qardaşımız bir dərya idi, o dərya ki uşaqlığından vətənə bağlı vətənpərvər igid oğullardan idi. Çox ailəcanlı, dosta istiqanlı, dərin düşüncəli, ağıllı və müdrik insan idi. Ceyhun hərbi xidməti sahəsində əsl komandir adına layiq zabit olmuşdur. II Qarabağ müharibəsində qardaşım Ceyhun bir yox, bir neçə qəhrəmanlığı ilə adını tarixə yazdı. Ölümündən sonra Ali Baş Komandan İlham Əliyev tərəfindən Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüş və medalı ilə təltif edilmişdir. Ceyhunun göstərdiyi şücaətlər, etdiyi yaxşılıqlar haqqında yazmağa sözlər yetməz...



Ceyhun bizim qəhraman qardaşımız, fəxrimiz, qürur duyduğumuz ünvandır. Bir daha Allahdan cəmi şəhidlərimizə rəhmət diləyirəm. CEYHUN bir ömür boyu qəlbimizdə yaşayacaq.

CEYHUNLAR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ!

**İlknur Abdullayev**
**(xalası oğlu)**



## Ceyhun Həsənovun xatirəsinə



Vətən müharibəsi Qəhrəmanı Həsənov Ceyhun Aydın oğlu haqqında danışmaq mənim üçün həm çətin, həmdə çox şərəflidir. Çətindir ona görə ki, yaxın qohumum, ailəmizin yaxını, kiçik qardaşım kimi rəğbət bəslədiyim Ceyhunun şəhid olması mənim üçün çox ağır oldu. Ceyhunun 27.09.2020 -ci ildə ilk şəhid xəbərini bilən insan kimi mənim üçün çox dəhşətli bir gün idi. Bu ağır xəbəri 29.09.2020 qədər ailəsindən gizli saxlamaq və ürək ağrısı ilə 2 gün ərzində ailəsini bu xəbərə hazırlamaq çox ağır idi. Nəhayət...

Müharibənin ilk günü 27.09.2020-ci ildə Füzuli istiqamətində düşmənin çətinliklə alına bilməyən 5-6 qat beton tərkibli istehkamının alınmasını Ceyhun öz öhdəsinə götürüb və onları bir-bir darmadağın edərək şəhidliyə qovuşur. Bu belə də olmalı idi, ona görə ki, Ceyhun öz sinəsini hər zaman irəli verib, onun qeyrəti və namusu arxada qalmağına yol verə bilməzdi. Mən onu daxilən yaxından tanıdığım üçün bunları söyləyirəm.

Hər zaman onunla söhbətləşəndə deyərdi ki, Azər, müharibə başlasaydı, onların (yəni işğalçı ermənilərin) dərsini verərdik.

Çox arzulayırdı bunu, düşməndən qisas almaq onun içindən gələn bir vicdan harayı idi... Bir şəhid qardaşı kimi deyə bilərəm ki,  Ceyhun, qardaşım  şəhid mayor İlqar Verdiyevin və bütün şəhidlərin qisasını aldı. 2012 - ci ildə İlqarın  itkisi  Ceyhuna çox ağır





təsir etmişdi. Heç cür onun ölüm ilə barışa bilmirdi. Düşünürəm ki, Ceyhuna hərbi biliklərə yiyələnməkdə İlqar Verdiyevin məsləhətlərinin əhmiyyətli rolu olmuşdu və həm buna, həm də bir yaxın qohum kimi onun  həlak olması ona çox ağır təsir etmişdir.

Şərəflidir ona görə ki, Ceyhun Həsənov Vətən uğrunda, torpaq uğrunda, Azərbaycanın suverenliyi uğrunda şəhid oldu. Qurani Kərimdə Rəbbimizin buyurduğu kimi Allah yolunda öldürülənlərə (Şəhid olanlara) “ölü” deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz. (BƏQƏRƏ SURƏSİ, 154)

Ceyhun bütün həyatını hərb yoluna həsr etdi, böyük əziyyətlərdən keçdi ki, xalqımız azad və firavan yaşasın.

Çox şükürlər olsun ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyev ilk olaraq Ceyhun Aydın oğlu Həsənova Vətən Müharibəsi Qəhrəmanı adına layiq gördü. Bu bizim üçün həddindən artıq böyük təsəlli oldu. Bu, onun Vətənə olan sevgisinin və bu yolda əziyyətinin bəhrəsi idi.

Ceyhun Həsənovun 2 oğul övladı yadigar qaldı və mən Allahdan arzu edirəm ki, onlar sağlam həyat yaşasınlar və ataları ilə hər zaman fəxr etsinlər.

Mən fəxrlə deyə bilərəm ki, Ceyhun Həsənov kimi mənim yaxın qohumum, kiçik qardaşım olub, hər vaxt hər yerdə onula fəxr edirəm. Allah sənə qəni-qəni rəhmət eləsin mənim qardaşım Ceyhun, sənin gülərüz siman, təmiz qəlbli ürəyin heç zaman yaddaşımdan silinməyəcək. Allah siz şəhidləri adi ölümlə yox, böyük məqamla mükafatlandırdı. Allah mənə də o böyük məqamı-şəhidlik zirvəsini qismət eləsin inşallah.

Məzarın nurla dolsun Ceyhun!

Ruhuna böyük ehtiramla.

**Azər Verdiyev**
**(Yaxın qohumu, zabit)**



## Ceyhun sevilib, seçilən zabitlərdən biri idi



Vətən Müharibəsi Qəhrəmanı şəhid kapitan Həsənov Ceyhunla mənim aramda qardaşlıq münasibəti yaranmışdı... Şübhəsiz ki, Ceyhun haqqında xatirə yazan hər kəs onun barəsində yüksək fikirlər söyləyəcək, ona layiq olduğu dəyəri verəcəklər. Çünki Ceyhun haqqında deyilən hər bir xoş sözün həqiqi dəyərini sağlığında özü qazanmışdı. Və ömrünün sonuna qədər də elə yaşamışdır. Əxlaqı, mədəniyyəti, qanacağı, qorxmazlığı, yerişi-duruşu ilə, bir sözlə, bütün varlığı ilə Ceyhun mərd bir atanın oğlu kimi dünyaya gəlmişdi. Mərd yaşadı, mərd oğul kimi də dünyadan köçdü.

Mən hər zaman qürur duydum, fəxr etdim Ceyhun qardaşımla... Ceyhunun uğurları hər zaman göz önündə olub. Sevilib, seçilən zabitlərdən olub hər zaman.

Biz onunla axırıncı görüşümüzdə bir az ordan-burdan söhbət etdik. Ceyhun müharibə barədə söz düşəndə, dedi ki, müharibə başlasa, nəyə qadir olduğumuzu, torpağlarımıza daraşmış o qoyun sürüsünə göstərərdik...

Və dediyini etdi, düşmənə ordumuzun gücünü-qüdrətini layiqincə göstərdi. Ceyhun vətəni öz ata – anasından, bacısından və övladlarından üstün tutdu. Tutdu ki, başqa ana- atalar övladsız, uşaqlar atasız, bacılar qardaşsız qalmasın!..





Ana Vətənimizin müqəddəsliyi uğrunda gözünü qırpmadan canını fəda etdi, Ceyhun!.. Düzdür, hər kəsin qardaşı özünə əziz, dəyərlidir. Amma Ceyhunu tanıyanlar mənim nə demək istədiyimi bilir. Ceyhun ata-ana üçün gözəl övlad, bacısı üçün əziz qardaş idi. Bundan belə nə qədər söz yazsaq da, az olar Ceyhun haqqında... Düşmən qarşısında mətin dayanıb, Vətənimizi, torpaqlarımızı qoruyarkən şəhid olan igid qardaşım haqqında kitab yazıldığını eşidəndə hisslərimə qapılaraq bu yazını yazmaq qərarına gəldim.

Vətənimin igid oğlu, şəhid qardaşım,
Sən vətən yolunda can qoydun.
Üç rəngli bayrağı sən ucaltdın!
Ruhun şad olsun şəhid qardaşım.
Qisasın alındı rahat yat qardaş,
Gedişin bizlər üçün ağır oldu,
Ruhun şad olsun şəhid qardaşım!..

Məqamın uca, ruhun şad, məkanın cənnət olsun kapitan Ceyhun Həsənov! Unutmadıq, unutmayacaq bu dövran səni... Unutdurmayacayıq. Sən hər zaman bizlərlə yaşayacaqsan:

Vətənə canını qurban deyərək,
Ölümsüzlük yolunu seçdi şəhidlər.
Torpağı düşməndən azad edərək,
Ömürlük tarixə keçdi şəhidlər...

**Amil Həsənov**
**(əmisi oğlu)**



## Böyüklə böyük, kiçiklə kiçik idi



Salam, mənim şəhid, Vətən Müharibəsi Qəhrəmanı Ceyhun qardaşım! Ceyhun məndən 5 yaş böyük olmasına baxmayaraq öz böyüklüyünü və vəzifəsiylə önə çıxmağı sevməzdi. Hər zaman əlaqə saxlayanda ilk kəlməsi "Ay can dayı" olardı. Həmişə öz mehribanlığı və dürüstlüyü ilə fərqlənərdi. Ceyhunun əsgərləri olmuş bir neçə dostlarım və iş yoldaşlarım var ki, indi də Ceyhunun mərdliyindən, mehribanlığından, etdiyi yaxşılıqdan danışırlar, xatirəsini əziz tuturlar. Məhz bu cür insani keyfiyyətləri təmiz ürəyi və mehribanlığı sayəsində yüksəldi şəhidlik zirvəsinə. Artıq Ceyhun daim yaşayacaq, gələcək nəsillərə nümunə kimi göstəriləcək bir şəxsiyyət olaraq tarixə həkk olundu. Ceyhun tək mehribanlığı, dürüstlüyü ilə deyil, mərdliyi, qorxmazlığı ilə fərqlənməyi bacardı. 2-ci Qarabağ müharibəsində göstərdiyi şücaət ilə Prezidentimiz Ali Baş Komandan tərəfindən Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüşdür. Ceyhun mənim yaddaşımda gülərüz, böyüklə böyük, kiçiklə kiçik kimi davranan, insanlara qarşı sevgi ilə dolu ürəyə sahib bir igid olaraq daim yaşayacaqdır və sonda deyirəm: Əziz qardaşım Ceyhun, mən səninlə daim fəxr etmişəm və fəxr edəcəm. Haqqını halal et mənə. İnşallah mən də sənin kimi qəhrəman ola bilərəm.

**Nurlan Novruzov**
**(dayısı oğlu)**

## Əminəm ki, indi o bizi cənnətdən izləyir



Şəhidlik zirvəsi ən uca zirvədir. Ceyhun qardaşım da bu zirvəyə ucaldı. Bilirəm, insanın ən yaxınını, doğmasını itirməsi ağır hadisədir. Başda Aydın dayı, Səmayə bibi, Xatirə xanım olmaqla Ceyhunun əzizlərinin hər birinə baş sağlığımı bildirib, səbr diləyirəm. Mən Ceyhun qardaşımla fəxr edirəm. O, Vətən yolunda şəhid oldu. Təkcə bu ad onu tanıyan hər bir insanı qururlandırmağa bəs edir. Əminəm ki, indi o bizi cənnətdən izləyir. Və onu sevindirmək də, kədərləndirmək də bizim əlimizdədir. Elə də çətin deyil sevindirmək. Səbr edək və ruhuna dua oxuyaq.

Dinlə, göy səmadan ruhun şad olsun,
Fəxr edirəm sənlə əziz qardaşım!
Unutmaram, unutdurmaram səni,
Nə qədər ki, özümdədir yaddaşım...

**Elçin Novruzov**
**(dayısı oğlu)**



## Siz xalqımızın qüruru və and yerisiniz



Azərbaycan tarix boyu hər zəfərini canı-qanı bahasına qazanan ulu bir diyar. Köksündə şəhid adlı yarası var. Unudulmaz zəfərimizin həmişəlik və dönməz qəhrəmanları, Cənnətin əbədi sakinləri daim qəlbimizdə yaşayacaqsınız. Çünki sizlər xalqımızın qüruru və and yerisiniz. Bütövlüyü naminə uğruna can verdiyiniz diyarın qanı ilə tarix yazmış qan yaddaşısınız.. İgidliyin, qorxmazlığın, cəsarətin, şücaətin timsalı, Şəhidlərimiz, nə qədər biz varıq, sizdə varsınız. Vətən uğrunda canından keçməyə hazır olan varsa, Vətəndir. Məhz bunun üçün belə buyrulur. Qurani-Kərimdə də Vətən yolunda ölənlərə əsla ölü deməyin çünki, onlar sağdır. Ruhları da, qanları da, töküldüyü torpaq qədər müqəddəsdir. Azərbaycan müstəqilliyini igid oğullar və qızların mübarizliyi ilə də bütövləşdirdi. 2-ci Qarabağ müharibəsində qazandığı zəfərlə 44 gün davam edən müharibədə haqq uğrunda şəhadətə ucalan vətən övladları. Məqsəd bir, amal bir, güc bir, Vətən də birdir dedilər. Gözləyənlərinə sevdiklərinə gələ bilməsəkdə bizi bağışlayın deyərək 29 illik həsrəti bitirdilər. Bəli ancaq özlərinə həsrət qoyaraq. Onun üçün əzizdir torpağımın hər qarışı, hər zərrəsi. Çünki üzərində şəhid qanı var. Bəli azaddır artıq tapdaq altında olan torpaqlarımız. İndi hər bir vətəndaşımızın ən böyük arzusu azad olmuş torpaqlara getməkdir. Çünki o torpaqlarda şəhidlərimizin qanı, nəfəsi var. Ruhunuz Şad olsun əziz şəhidlər. Sizin görmək istədiyiniz kimi, Bütövdür Azərbaycan, bütöv-

dür Vətən. Şəhid kapitan Həsənov Ceyhun, sən mənə həm dost, həm qardaş, həm sirdaş oldun. Etdiklərin yaxşılıqlar unudulmaz və silinməz xatirədir. Gedişinlə bütün səni sevənləri, sənə dəyər verənləri gözü yaşlı qoydun. Sadəcə Vətən Torpaq. Xalq. Qeyrət dedin və indi üstünə yorğan olan həmin torpaq uğrunda Şəhidlik zirvəsinə ucaldın. Qürurumsan Şəhidim! Fəxrimsən Şəhidim! Ən böyük kədərimsən Şəhidim!

Vətən uğrunda canından keçən bütün şəhidlərimizin ruhunu hörmətlə anıram.

**Amil Məşədiyev**
**(xalası oğlu)**





## Əbədiyaşar məzun



Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olan oğulların xatirəsi heç zaman unudulmur. Hələ sağ ikən Vətənə sədaqət andı içən şəhid oğulların hər biri qəhrəmandır. Onların hər birinin döyüş yolu, şücaəti, əzmkarlığı bütün gənclərimizə nümunədir. Şəhid kapitan Ceyhun Həsənov da Azərbaycanın qəhrəman oğullarından biri idi.

Azərbaycan Silahlı Qüvvələrinin kapitanı, Vətən Müharibəsi Qəhrəmanı şəhid Ceyhun Aydın oğlu Həsənov 1985-ci il oktyabrın 29-da Tovuz rayonunun Çeşməli kəndində dünyaya göz açsa da, Xətai rayonunda böyüyüb. Bakı şəhəri Ə. Abbasov adına 257





nömrəli tam orta məktəbdə təhsil alan Ceyhun Həsənov təhsilini Cəmşid Naxçıvanski adına Hərbi Liseydə və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirib. Qəhrəman zabit öz şəxsi heyəti, 7 PDM, 4 tank, bir neçə başqa texnika ilə döyüşlərə qatılıb. Ceyhun Vətən Müharibəsində Xətai rayonunun ilk şəhididir. Hərbçi yoldaşları Ceyhun Həsənovun hərbçilər arasında nümunəvi zabit olduğunu qeyd edirlər. Kapitan Həsənovu valideynləri ilə bərabər, məktəbimizdə ona dərs deyən müəllimləri də vətənpərvər yetişdirib. Zabit dostlarının da qeyd etdiyi kimi , Ceyhun Həsənov əsl qəhrəman Azərbaycan zabiti idi.

Məktəbimiz Qarabağ müharibəsi şəhidi Ədalət Abbasovun adını daşıyır. Məktəbdə hərbi vətənpərvərlik tərbiyəsi işinin düzgün qurulmasının nəticəsidir ki, məktəbin “Cəsurlar” və “Şahinlər” komandaları hər zaman rayonumuzda keçirilən yarışlarda fərqlənirlər.Məzunlarımızın vətənpərvərlik hislərinin təcəssümü onların gələcək fəaliyyətlərində də nəzərə çarpır. Bunun nəticəsidir ki , Vətən müharibəsində onlarla məzunumuz vətənimizin müdafiəsinə qalxmış ,müxtəlif medallara layiq görülmüşlər.

Şagirdlərimiz tez-tez şəhidin - Ceyhun Həsənovun II Fəxri xiyabandakı qəbrini ziyarət edir, şəhidin yaşadığı Xətai rayonunda yerləşən evlərinin həyətində qoyulan xatirə lövhəsinin qarşısına tər çiçəklər düzürlər. Demək olar ki, hər tədbirdə Ceyhun Həsənovun məzun olduğu Xətai rayon Ədalət Abbasov adına 257 nömrəli tam orta məktəbin şagirdlərinin iştirakı ilə vətənpərvərlik mövzusunda şeirlər səsləndirilir və şəhid şagirdimiz haqqında xatirələr bölüşülür.

Son nəfəsində belə vətən torpaqlarına hücum edən düşmənin mövqelərinin vurulmasını soruşan komandir zabitindən aldığı "Bəli, komandir, vurduq" cavabı ilə gülümsəyərək gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə yüksəlir. Bu fakt onu göstərir ki , Ceyhunda o qədər qəhrəmanlıq hissi, qorxmazlıq, mərdlik hissi var



idi ki, ona bu qəhrəmanlıq adı azdır. O, çox böyük hünərli, savadlı, həm də bacarıqlı bir komandir idi.

Xətai rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə şəhidin həyat və döyüş yolunu şagirdlərə çatdıracaq silsilə tədbirlər təşkil olunur. Belə tədbirləri keçirməkdə məqsədimiz şəhidimizin xatirəsini əbədiləşdirmək, gənc nəslə örnək olmaq və ailəsinə təsəlli verməkdir.

Şəhidin atası Aydın Həsənov hər zaman şəhid ailələrinə diqqət və qayğısına görə Ali Baş Komandan İlham Əliyevə təşəkkürlərini ifadə edir.

Vətəni və doğma məktəbi onun əziz xatirəsini daim uca tutacaq və onun adının əbədiləşməsi üçün əlindən gələni əsirgəməyəcəkdir!

**Qarat Qaratov**
***Bakı şəhəri Xətai rayonu***
***Ədalət Abbasov adına***
***257 nömrəli tam orta məktəbin***
***direktoru.***





# ƏBƏDİYYƏTƏ QOVUŞAN MƏKTUB....



Əziz balam, adını Zəfər tarixinə böyük hərflərlə yazan oğlum, salam! Səninlə daha da yaxından tanışlığım sinif rəhbəri olduğum 5c sinifi ilə bağlıdır. Haqqında olan məlumatla daha yaxından tanış oldum, şəklinə baxanda..., mən anladım ki, sən Səmayə ananın, bacımın dili ilə desəm: «Oğul kimi dünyaya gəlib, kişi kimi yaşayıb, qəhrəman kimi dünyadan köçmüsən». Seçdiyin yol - hərbiçi olmaq - çətin, lakin şərəfli bir yoldur. Himayəndə olan əsgərləri də, özün kimi mərd, igid, yetişdirmisən. Vətən müharibəsi başlayandan sənin döyüş yolun gözümün önündə idi. Sənin: «Güclü olmalıyıq, hamı bir nəfər kimi, ardımca, irəli!». «Sizə mən əmr verirəm və tapşırıram ki, dayanmadan, irəli!» çağırışın əsgər balalarımız üçün təkcə bir çağırış deyil, bu bir haraydır, əmrdir - Bütöv Azərbaycan uğrunda. Böyüməkdə olan gənc nəsil üçün isə bir nümunə, örnəkdir. Əziz balam, hər gün məktəbə gələrkən texniki işçilərimizdən tutmuş müəllim və şagird kollektivinədək, hamı səni salamlayır, sənin keçdiyin qəhrəmanlıq yolundan şagirdlərimizə bəhs edir, sinif otaqlarımızda sənə həsr edilmiş guşə var. Əziz balam, məktəbimiz sənin adını şərəflə daşıyır. Gözün arxada qalmasın, igid oğlumuz: biz, məktəbin rəhbərliyi və bütün müəllim kollektivi hər zaman şagirdlərimizi sənin və yüzlərlə igidlərimiz kimi vətənpərvərlik ruhunda tərbiyə edəcəyik, sizin keçdiyiniz qəhrəmanlıq yolu onlar üçün bir

nümunə olacaq. Ruhun bizimlədir, Ceyhun. Səninlə və sənin kimi yüzlərlə şəhid olmuş oğullarımızla qürur duyuruq. Torpaq – namusdur, qeyrətdir. Siz bizim namusumuzu, qeyrətimizi qaytardınız, qeyrətli oğullarımız! Hələ mən ata - ananı, bacın Xatirə xanımı, Cavidan və Cahid balalarını demirəm! Siz igidlər, heç biriniz, ad - san, şöhrət üçün döyüşə atılmamışdınız. Sizin hər birinizin amalı Vətənə sevgi və onun düşməndən müdafiəsi idi. Ceyhun, əziz balam sən Vətən Qəhrəmanı adına layiq görülən 83 doyüşçümüzün cərgəsindəsən. Məktubumu Səmayə ananın, bacımın misraları ilə bitirmək istəyirəm, oğlum: «Mən istəyirəm ki, Qarabağın yolunu açan mənim yeganə oğlumun evi ziyarətgaha çevrilsin, xatirəsi daim uca tutulsun.» Əziz balam, sən sevərək yaşadın, sevilərək əbədiyyətə qovuşdun. Deməli, yaşadığın ev ziyarətgaha çevriləcək, xatirələrdə, yaddaşlarda əbədi yaşayacaqsan!

Sevgi və ehtiramla, sənin mənəvi anan, xalan Tavat İzzəddin qızı Şıxverdiyeva,

Vətən müharibəsi Qəhrəmanı kapitan Ceyhun Aydın oğlu Həsənov adına 48-li tam orta məktəbin tarix müəllimi.

2023 - cü il 28 iyun.



# VƏTƏNPƏRVƏRLİYİN ƏN ALİ MƏQAMI





44 günlük Vətən Müharibəsindən və xalqımızın 28 illik gözləntiləri, arzu və istəkləri reallığa çevirən, şanlı Zəfər günündən 3 il ötür. Zaman ötəcək, fəsillər dəyişəcək, günlər ayları, aylar illəri, illər əsrləri əvəz edəcək, amma xalqımıza bu Zəfər sevincini yaşadan Vətən müharibəsi şəhidləri heç vaxt unudulmayacaq. Onların əziz xatirəsi hər zaman bizim xalqımızın qəlbində yaşayacaq...

Bəli, 10 noyabr 2020-ci il düşmən üzərində TARİXİ QƏLƏBƏ qazanan Azərbaycanın Silahlı Qüvvələrinin əsgər və zabitləri döyüş meydanında mərdliklə vuruşaraq əsl qəhrəmanlıq dastanı yazdılar. Bu qəhrəmanlardan biri də kapitan Ceyhun Həsənovdur.

Mən Ceyhunun ailə üzvlərini yaxşı tanıyıram. Amma tale elə gətirib ki, sağlığında Ceyhunun özünü görməmişəm. Bacısı Xatirə xanımla həmkarıq.

Duyğularını məğrurluqla cilovlayan Xatirə xanım həmişə şəhid qardaşının Vətən sevgisindən, Vətənə bağlılığından ağızdolusu danışır. Bütün şəhid bacıları kimi, Xatirə xanım da danışdıqca yaddaşında ötənlər, olub-bitənlər, Ceyhunlu xatirələr canlanır, unudulmaz anlar, qayğılı, qayğısız günləri yada salır... Yeganə qardaşının yeniyetməlik illərindən yadında qalan maraqlı hadisələr bir deyil, beş deyil, onlarladır... Xatirə xanımın xatirələrindən belə məlum olur ki, Ceyhunun qəlbi həmişə Azərbaycanın işğal altında

olan torpaqlarını azad etmək arzusu ilə döyünərmiş... 27 sentyabrda Vətən müharibəsinin başlamasını Tanrının düşməndən qisas almaq üçün verdiyi böyük fürsət bilib və döyüşə atılıb...

Əslində bu gün ölkəmizdəki ümumtəhsil məktəblərinin ən vacib vəzifələrindən biri şagirdlərə elmi biliklər verilməsi ilə yanaşı, belə qəhrəmanlar haqqında orta məktəb şagirdlərimizə ətraflı məlumat vermək biz müəllimlərin borcudur. Heç kimə sirr deyil ki, pedaqogika milli - mənəvi şüurun təbliğində, şagirdlərin vətəndaş kimi formalaşmasında, öz Vətənini, milli ruhunu, şəxsi ləyaqətini qorumaqda güclü təsir gücünə malikdir.

Mən Ceyhun haqqında TV kanallarda verilən verilişlərin çoxuna baxmışam. Haqqında yazılan qəzet məqalələrini də oxumuşam. Bir çox şəhid qəhrəmanlar kimi onun da şəkli məktəbimizin şəhidlər guşəsini bəzəyir.

Vətən Müharibəsi Qəhrəmanı Ceyhun Həsənov ailəsini, doğmalarını və dostlarını qəhərləndirən, ürəklərini göynədən qısa bir ömür yaşadı. Gələcəklə bağlı şəxsi arzuları yarımçıq qalsa da, öz adını Vətən uğrunda axıtdığı qızıl qanı ilə xalqımızın qəhrəmanlıq dastanına əbədi yazdı.

Hər il kapitan Ceyhun Həsənovun Xətai rayon ictimaiyyəti tərəfindən anım mərasımı keçirilir. Mərasimə toplaşan şəhidin ailə üzvləri, yaxınları, Xətai rayon İcra Hakimiyyətinin nümayəndələri, döyüş yoldaşları, təhsil aldığı orta məktəbin müəllim və şagirdləri, həmçinin məzunu olduğu Ali Hərbi Məktəbin müəllimləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri onun İkinci Fəxri Xiyabandakı məzarı önünə çələnglər qoyaraq, ruhuna dualar oxuyurlar. Sonra mərasim evində ehsan süfrəsi açılır.

Haqqında söhbət açanlar Ceyhunun necə dostcanlı olduğunu, hər kəsin sevgisini qazandığını bildirir, onun igidliyi ilə fəxr etdiklərini vurğulayırlar. Vətən - Ceyhun kimi qəhrəmanların solmayan məhəbbətidir. Canında Vətən məhəbbəti, el-obaya sədaqət, xalqına canla-başla xidmət yanğısı olan belə oğullar əbədiyaşardı...

Ceyhun kimi qəhrəman oğulların haqqında nə qədər danışılsa da, sənədli filmlər çəkilib, kitablar yazılsa da yenə azdır. Hər bir Azərbaycan vətəndaşı qürur mənbəyimiz olan şəhidlərimizi, onların keçdiyi həyat yolunu nümunə bilməli, qəhrəmanlarını tanımalı və tanıtmalıdır. Bu mənada şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq, onları gəncliyə nümunə göstərmək hər bir pedaqoqun vətəndaşlıq borcudur…

**Gülmirə Məmmədova**
***qonşu, Bakı şəhəri,***
***Ağabəy Novruzbəyli adına***
***46 nömrəli tam orta məktəbin müəllimi***
***30.09.23***





# SƏNİNLƏ FƏXR EDİRİK, CƏNAB KAPİTAN CEYHUN HƏSƏNOV



Mən Xətai rayonu 48 nömrəli tam orta məktəbdə müəllim işləyirəm. Şagirdlərimə Azərbaycan dilinin zənginliklərini öyrədir, ədəbiyyatımızın dahilərini onlara tanıdıram. Amma hər bir dərsimin sonu hər zaman bu günləri bizə bəxş edən şəhidlərimizin xatirələri və keçdikləri döyüş yolu haqqında məlumatlarla bitir. Hər dərsimdə xalqımızın igid oğulları haqqında böyük qürur hissi ilə danışmağı özümə borc bilirəm.

Mən müəllim olmaqla yanaşı həm də zabit anasıyam. Oğlum, baş leytenant Elvin Yusif oğlu Mustafayev Azərbaycan Ordusunda zabit kimi xidmət edir. Bir zabit anasının keçirdiyi hisslərin nə olduğunu çox yaxşı bilirəm. Həyəcanlı və nigarançılıq dolu o hisslərin içərisində böyük fəxarət hissinin daha öndə olduğunu vurğulamaq istəyirəm.

2021- ci ildə çalışdığım məktəbə Azərbaycan Silahlı Qüvvələrinin Kapitanı, Vətən Müharibəsi Qəhrəmanı şəhid Ceyhun Həsənovun adı verildi. Ceyhun Həsənov Vətən Müharibəsində Xətai rayonunun ilk şəhididir.  Kapitan Ceyhun Həsənovun adını daşıyan məktəbdə işləmək və oxumaq müəllim və şagird kollektivi üçün böyük məsuliyyət və fəxrdir. Buna görə də məktəbimizin bütün müəllim kollektivi kapitan Ceyhun Həsənovun həyatı, keçdiyi dö-

yüş yolunu şagirdlərə qürur hissi ilə danışır, Ceyhun kimi vətənpərvər olmağı tövsiyə edir və arzulayır.

Kapitan Ceyhun Həsənovun xatirəsi məktəbimizdə əziz tutulur. Məktəbimizin foyesində Ceyhun Həsənova aid xatirə guşəsi yaradılıb. Bütün sinif otaqlarımızda Ceyhun Həsənov və onun döyüş yolunu əks etdirən fotostendlər və guşələr yaradılıb. Ceyhun Həsənovun doğum və anım günü hər il məktəbimizdə qeyd olunur.

2022-2023-cü tədris ilində Kapitan Ceyhun Həsənovla bağlı bütün silsilə tədbirlər rəhbərlik etdiyim 5B sinfi tərəfindən həyata keçirildi. Şagirdlərim böyük sevgi, hörmət və ehtiramla bu tədbirlərdə iştirak etdilər.

Biz sentyabrın 27-də Vətən Müharibəsi Qəhrəmanı kapitan Ceyhun Həsənovun ailəsi ilə birlikdə II Fəxri Xiyabana getdik, Ceyhun Həsənovun və orada uyuyan şəhidlərimizin məzarlarını ziyarət etdik. Şagirdlərimiz qürur hissi ilə Ceyhun haqqında danışdılar, şəhidlərimizə aid şeirlər ifa etdilər.

Fəxri xiyabanda qəhrəman şəhidimizin atası Aydın Həsənov, anası Səmayə xanım və övladları da öz xatirələrini bizimlə bölüşdülər.

29 oktyabr tarixində 5B sinif şagirdləri ilə birlikdə Ceyhun Həsənovun doğum gününü qeyd etdik. Tədbirinizdə şəhidimizin bütün ailə üzvləri iştirak etdilər. Səmayə ana Ceyhunla bağlı kövrək xatirələrini yada saldı. Aydın atamızın oğlu haqqında fəxrlə danışdığı xatirələrində Ceyhun həsrətini hiss etdik. Bacısı Xatirə xanımın qardaş nisgilinin, qardaş qəhrəmanlığının, qardaş həsrətinin göz yaşlarında ifadəsini gördük. Onlarla bir ağladıq, həsrət çəkdik, kövrəldik...

Biz qəhrəman oğul böyüdən Səmayə ana və Aydın ataya, qardaşı ilə fəxr edən Xatirə bacıya, ata həsrəti çəkən Cahid və Cavidana Ceyhunu qaytara bilmərik amma söz veririk ki, biz də Ceyhunu onlar qədər sevəcək və heç bir zaman unutmayacağıq. İndi Cey-



hun Həsənov yalnız onların ailəsinin deyil, bütün vətənin övladıdır.

Bu gün mən böyük qürur və məsuliyyətlə deyirəm ki, mən Xətai rayonu Ceyhun Həsənov adına 48 nömrəli tam orta məktəbdə müəllim işləyirəm.

Cənab kapitan Ceyhun Həsənov, söz verirəm ki, nə qədər bu şərəfli peşədə çalışacağam mənim şagirdlərim səni və keçdiyin döyüş yolunu hər zaman özlərinə nümunə sayacaqlar. Sən hər kəsin qəlbində daim yaşayacaqsan, cənab kapitan.

**Zəkiyyə Mustafayeva,**
***Xətai rayonu 48 nömrəli***
***tam orta məktəbin müəllimi***





## Vətən Müharibəsi Qəhrəmanı şəhid kapitan Ceyhun Həsənov adına 48 nömrəli orta məktəbin 5b sinif şagirdlərinin yazdığı ürək sözləri:

- Azərbaycan Ordusunun kapitanı Ceyhun Həsənov Vətən müharibəsi zamanı qəhrəmancasına şəhid olub. Biz Ceyhun Həsənovun ailəsilə tanış olmuşuq, onlar çox mehribandırlar. Mən onlarla tanış olduğum üçün şadam. Bizim məktəb Ceyhun Həsənovun adını daşıyır.

***(C. Nuray)***



- Ceyhun Həsənov kimi igidlərin sayəsində 30 illik Qarabağ həsrətinə son qoyuldu.

***(Aytac)***

***Rəsul da öz ürək sözünü belə ifadə etdi:***

-Bizim fəxrimiz Ceyhun Həsənov haqqında yazmaq xoşdur. Mən fəxr edirəm ki, bizim Ceyhun Həsənov kimi igid qəhrəmanımız olub və biz daim bütün şəhidlərimizi yad etməliyik və onları unutmamalıyıq.

- Mən istəməzdim ki, bizim ölkədə şəhid anası və şəhid qəhrəmanlar kəlməsi işlənsin. İstərdim ki, müharibəsiz bir ölkədə yaşayım. Təəssüf ki, işğalçı ermənilərə qalib gəlmək üçün igid qəhrəmanlar lazım idi ki, onları cəzalandırsın. Azərbaycanın yetişdirdiyi belə igidlərdən biri də məhz şəhid Ceyhun Həsənov idi.

***(Ziya)***

- Mən hər yarışlarda qalib gəldikcə öz qələbəm üçün şəhidlərə özümü borclu hesab edirəm.

***(Rüstəmov Yusif)***

- Biz bu ölkədə rahat və firavan yaşayırıqsa, Ceyhun Həsənov kimi şəhidlərimizə borcluyuq. Məkanları cənnət olan şəhidlərimizlə fəxr edirik.

***(Sadıxlı Murad)***

- Allahın sevimli bəndələrindən olan, vətəni və xalqı üçün öz canından keçən, nur üzlü şəhidimiz Ceyhun Həsənov, sən bizim həm ürək ağrımız, həm də qürurumuz, fəxrimiz, örnəyimizsən. Allah dərgahındakı uca məqamın mübarək! Sizləri unutmayacağıq!

***(Abbasova Nuray)***





- Vətən uğrunda şəhid olan Ceyhun Həsənov bizim nisgilimiz, ağrımız, qürurumuzdur. Allah şəhidlərə rəhmət eləsin.

***(Əliyeva Fatimə)***

-Arzum budur ki, mən də Ceyhun Həsənov kimi Vətənə layiq övlad olum.

***(Abiyeva Afaq)***

- Şəhid Ceyhun Həsənovun övladları hər zaman qəhrəman ataları ilə fəxr edəcəklər.

***(Əliyeva Həqiqət)***

- Mən qürur duyuram ki, mənim Füzuli şəhərimin azadlığı uğrunda şəhid olmuş kapitanımızın adını daşıyan məktəbdə təhsil alıram.

***(Ayan Sadıqova)***

- Mən kapitan Ceyhun Həsənov kimi Vətənim üçün canından keçən igid biri olacağam.

***(Əsədzadə İbrahim)***

-Azərbaycanın unudulmaz qəhrəmanı, kapitan Həsənov Ceyhun adına məktəbdə oxuduğuma görə qürur duyuram. Mən sevinirəm ki, Azərbaycanın belə igid oğulları var.

***(İmanov Sadiq)***

İstəyirəm ki, indi Ceyhun Həsənov həyatda olsun.

***(Məryəm Seyidova)***



# ŞƏHİD DOSTUM, MƏNƏVİ QARDAŞIM CEYHUN HƏSƏNOV HAQQINDA...



Biz Ceyhunla uşaqlıq dostuyuq. Eyni məhlədə yaşamışıq, eyni həyətdə oynamışıq, eyni məktəbdə oxumuşuq, eyni yerləri gəzmişik, eyni qabdan çörək yemişik. Dost olmuşuq, yoldaş olmuşuq, qardaş olmuşuq, sirrdaş olmuşuq. Sirrimizi paylaşmışıq. Məsələn, ilk sevdiyim qız haqqında xəlvətcə ona demişəm. O da mənə. Problemimiz olanda bölüşmüşük. Hərəkəti, danışığı, davranışları ilə aramızda ən `ağsaqqal` o idi. Ağsaqqal qardaşımızla məsləhətləşərdik. Gələcək üçün xəyallar qurardıq. Məsələn, mən Türkiyədə oxuyub gələcək və yüksək kariyera quracaqdım, O isə Vətənimizə xidmət edəcək və ən yüksək hərbi rütbəyə qədər ucalacaqdı. Xəyallarımız gerçək oldu. Mən universiteti Türkiyədə bitirdim. O da Heydər Əliyev adına Hərbi Akademiyanı ən yüksək səviyyədə bitirdi. Mən özəl sektorda kariyeraya başladım. O da olduğu bölgələrdə Vətənimizə ən gözəl, nümunəvi şəkildə xidmət etdi və rütbələrin ən alisi, ən yüksəyi olan ŞƏHİDLİK rütbəsini aldı...

Uşaqlıq illərimizə qayıtmaq və Ceyhunla birlikdə keçirdiyimiz gözəl günərimizi yada salmaq istəyirəm. Binamızın qabağında oynadığımız "Gizlənpaç" oyunları, Gənclər parkında oynadığımız qar topu, məktəbin həyətində, adını özümüz qoyduğumuz "Ciqo" sta-





dionunda futbol oynadığımız günlər gözümün qabağındadır. Birlikdə futbol oynadığımız zaman Ceyhun mütləq şəkildə müdafiədə olardı. Onun həm fiziki imkanları geniş idi, həm də zəhmi rəqiblərinə qorxu salırdı. Top keçsə də adam keçə bilməzdi. Əgər Ceyhun müdafiədə idisə deməli biz də rahat ola bilərdik. Nə bileydik ki, illər sonra Ceyhun qardaşımız yenə müdafiədə olacaq. Bu səfər Vətənimizin müdafiəsində xalqımızın şərəfini, namusunu qoruyacaq. Bu amal uğurda düşməni yerlə bir edəcək və özünü Vətən yolunda qurban verəcək...

Universitetdə oxuduğum illərdə tətillərdə Azərbaycana gələrdim. Təbii ki, vaxtımı daha çox Ceyhunla keçirərdim. Hətta gəlmədən əvvəl bəzi planlar qurardıq. Yenə o tətillərdən biri idi. Səhv etmirəmsə, 2006-ci il idi. Mən məhəllədən bir neçə yoldaşla akademiyanın çıxışına gəlmişdim. Həftəsonu idi. Ceyhunu götürəcək və ordan da şəhərin mərkəzinə gəzməyə gedəcəkdik. Ceyhun gəldi. Görüşdük, kef-əhvalını soruşdum. "Yaxşıyam" desə də fikirli idi. Bir az keçəndən sonra mən ondan soruşdum. "Nəsə problem var akademiyada?". Gözləri dolmuş şəkildə döndü mənə dedi ki, qardaş bizim zabitimizin hansısa dığanı gəbərtdiyinə görə bu qədər zülüm görməsi mənə pis təsir edir. Söhbət Ramil Səfərovdan gedirdi. Ramil Səfərov Macarıstanda kursda olarkən bayrağımızı təhqir edən erməni Qurqen Markaryanı məhv etmiş və Ramili həbs etmişdilər. Ramil daha sonralar Azərbaycana ekstradisiya edilsə də həmin günlərdə bu məsələnin həlli çox çətin görsənirdi. Onsuz da Birinci Qarabağ müharibəsini uduzmuş, qüruru sınmış xalqa bu da başqa bir zərbə idi. Lakin Ceyhun bunu özünə dərd eləmişdi. Rahatlıq tapa bilmirdi. Vətənin hər bir fərdinin qeyrətini çəkən, milli qürurumuzun ayaqlar altına alınmasını həzm edə bilməyən böyük ürəkli igid idi Ceyhun.

Dürüst insan idi. Haqsızlığı sevməz, haqqsızlıq edənin qarşısında mərd - mərdanə durmağı bacaran qeyrətli oğul idi. Dosta qarşı vəfalı idi. Naxçıvanda xidmət etdiyi zamanlar yüksəkliklər-



də çox olurdu. Bir çox hallarda telefonunun şəbəkəsi çəkməzdi, amma əgər mesaj yazmışamsa mütləq daha sonra ya zəng edər, ya da mesajıma cavab yazardı. Hər dəfə məzuniyyət götürəcəyi vaxtı öncədən bildirərdi. Çünki arada məsafələr olduğu üçün tez-tez görüşə bilmirdik və nəticədə danışacağımız çox mövzu olurdu. Məzuniyyəti də qısa olardı. Bir-birimizin həsrətinə doymadan məzuniyyət bitərdi. Ad günlərimdə, bayramlarda məni heç vaxt unutmazdı. Zəng vura bilməsə də qısa bir mesaj yazıb təbrik edərdi.

Gələcəyə dair söhbət edərkən hər zaman nikbin idi. Vətənimizin suveren və işıqlı gələcəyinə inanırdı. Amma hər zaman Qarabağ nisgili vardı qəlbində. Mən bilirdim. Əgər bir gün Qarabağ uğrunda savaş yenidən başlayarsa Ceyhunun ən ön sıralarda olacağını dəqiq bilirdim. Çünki o bunu dəfələrlə bir çox məclislərdə öz dili ilə demişdi. Hər zaman Qarabağ mövzusu açılanda dua edər kimi deyərdi ki, Allah məni məğlub yox, qalib zabit eləsin. Onun ən böyük arzusu Qarabağın düşmən işğalından azad olunması və bu əməliyyatlarda özünün iştirak etməsi idi. Allah şəhid qardaşımı ən böyük arzusuna çatdırdı.

Qanını bayrağa axıdan şəhid,
Sən getdin, bu Vətən salamat qaldı.
Düşmənə od qoyub yandıran, şəhid,
Əkiz balaların əmanət qaldı.

Ya qazi, ya şəhid olmaq istədin,
Şəhidlik rütbəsi qismətin oldu.
Qəlbdə, ürəklərdə qalmaq istədin,
Müqəddəs Zəfər də zəhmətin oldu.

Sənə bir ömür minnətdarıq biz,
Çox qürur duyuruq səninlə Ceyhun!.
Yerin Cənnətdədir, xəbərdarıq biz,
Qovuşdun Allaha təninlə Ceyhun!.

Ceyhun ölkəmizin süverenliyi, Vətənimizin müdafiəsi uğrunda öz canından keçərək şəhidlik zirvəsinə ucaldı. Adını Azərbaycan tarixinə Vətən Müharibəsi Qəhrəmanı kimi yazdırdı. Onun mərdliyi, igidliyi, vətənpərvərliyi, şücayəti bütün Azərbaycan oğullarına örnəkdir. O əsgərlərinə sadəcə komandir deyil, həm də böyük qardaş idi.

Şəhid qardaşım Ceyhun mərdlik, kişilik, qəhrəmanlıq abidəsi kimi hər zaman ürəyimdə yaşayacaq.

Allah Ceyhuna və bütün şəhidlərimizə rəhmət eləsin!

**İsa Əliyev**
***(dostu)***





# BİZƏ ZƏFƏR BƏXŞ EDƏNLƏRƏ BORCLUYUQ



Bizim ailə Ceyhungilin yaşadığı məhəlləyə 2008 -ci ildə köçüb. O vaxtlar Ceyhun ali hərbi məktəbin dördüncü kurs kursantı idi. Mən onun hələ yeniyetməlik illərindən cəsurluğu, vətənpərvərliyi, dərslərində çalışqanlığı ilə seçildiyini məhəlləmizin uşaqlarının dilindən eşitmişdim. Hətta bəzi valideynlər onun davranışlarını nümunə çəkirdilər öz uşaqlarına... Kursant olduğu müddətdə bayram günləri ata- anasının ziyarətinə gələrdi. Əvvəllər kursant geyimi, sonralar zabit forması Ceyhuna çox yaraşırdı...

İndi mən həmişə köhnə məhəlləmizə gedəndə Ceyhun xatirəsinə qoyulmuş abidəni ziyarət edirəm. Deyirlər hər kəsin bu gəlimli-gedimli, son ucu ölümlü dünyada öz ömür payı, tale qisməti var.

Ceyhun kimi bütün şəhidlərimizin Vətən Müharibəsində göstərdikləri şücaət, keçdikləri döyüş yolu, onların yüksək iradəsi, mənəvi keyfiyyətləri, Vətən sevgiləri, igidlikləri gələcək nəsillər üçün nümunədir. Onlar tarix yaza-yaza tarixə yazıldılar. Hər birimiz bizə zəfər sevinci bəxş edən əsgər və zabitlərə borcluyuq. Və mübarək Qələbə gününü bizə bəxş edən Ceyhun kimi qəhrəmanları böyüdən ata və anaların qarşında baş əyirik!

Allahdan şəhid Ceyhuna rəhmət, Aydın əmiyə və rəhmətlik anamın adaşı Səmayə xalaya səbr diləyirəm!

**İsmayıl Muğanlı**
**(qonşusu)**

# QARDAŞIM CEYHUNLA OLAN XATİRƏLƏRİMDƏN



Əziz qardaşım Ceyhun. Artıq üç ilə yaxındır ki, aramızda yoxsan. Yoxluğun bizim üçün çox ağırdır. Hər zaman yerin görünür. Düzdür, sən öncə vətən dedin. Vətənimizin müdafiəsi üçün və bizlər üçün döyüşərək, vuruşaraq şəhidlik zirvəsinə ucaldın.

Eh... Ceyhun! Biz dostlar bir yerdə olanda bir-birimiz üçün nə qədər sağlıqlarımız, arzularımız olub. Acı olsa da sən yoxsan. Allah şahiddir ki, biz dostlar həmişə ruhunun istiliyini yanımızda hiss edirik. Ceyhun, sənə olan ehtiramımızı qısa bir məqalədə cəmləyirik. Amma sənin xatirən bizim üçün o qədər böyükdür, o qədər əzizdir ki, birlikdə olduğumuz o acılı, şirinli günləri nəinki bir dəftərə hətta kitaba belə sığışdıra bilmərik. Qardaşım, təsəllimiz budur ki, aramızda olmasan belə hamıdan yüksəkdə - Allahın dərgahında şəhidlik zirvəsindəsən.

Səninlə mənim tanışlığım bir ocaqdan, bir evdən və davamlı məktəb illərindən başlayıb. Lap uşaqlıqdan, məktəb vaxtlarından sən vətənə bağlılığını, vətənpərvər olmağını hiss elətdirirdin. Həmin bu istək səni Ali Hərbi Məktəbə qədər apardı. Oranı da müvəffəqiyyətlə bitirib əsl döyüş meydanında düşmənlə üz-üzə dayandın, qorxmadan, çəkinmədən saysız-hesabsız igidliyini göstərdin. Nə qədər uzaqlarda olsan da biz dostları heç zaman unutmadın. Hiss elətdirmədin ki, biz bir yerdə deyilik. Cənab kapitan Ceyhun Həsənov, ölməz ruhun şahiddir ki, biz səni hər zaman xatırlayırıq.

Şəhidlik zirvən mübarək, Ceyhun qardaşım!

**Orxan Əhmədov**
**(sinif yoldaşı)**



## Ceyhun mənim həm sinif yoldaşım, həm də komandirim olub



Mən Əhmədov Zaur Ceyhunla 257 saylı məktəbdə eyni sinifdə təhsil almışam. Ceyhun məktəbdə oxuyarkən təhsilinə davamiyyətinə, səliqəsinə fikir verən şagird olub. O, 2001-ci ildə bizim məktəbdən ayrılıb Cəmşid Naxçıvanski adına Hərbi məktəbə daxil olmuşdur. Amma biz onunla əlaqəmizi heç kəsmədik. Daim bir-birimizlə görüşüb söhbətləşərdik.

Taleh elə gətirdi ki, Ceyhun AAHM bitirdikdən sonra TTM təhsilini davam etdirdi. Gəncənin N saylı hərbi hissəsində mən hərbi xidmətdə idim. O mənim olduğum tabora tağım komandiri gəlmişdi. Bizim orada da maraqlı görüşlərimiz olardı. Hətta maraqlı zarafatlarımız olardı. Təsəvvür edin sinif yoldaşı olmuşuq, dost olmuşuq və hərbi xidmət dövründə Ceyhun mənim tağım komandirim olub, mən isə onun əsgəri. İnanın mən bu xatirələri yazdıqca həmin vaxtlar gözümün önündə canlanır. Ceyhunla bizim son görüşümüz 2020-ci ilin avqust ayında oldu. Ceyhun haqqında çox söz demək olar. O fəxr olunası dost olub və oldu da. İndi Ceyhun tək mənim yox, dostlarımızın yox, bütün Azərbaycan xalqının fəxri oldu.

Allahdan qəhrəman dostumuza rəhmət diləyirəm.

**Zaur Əhmədov**
**(sinif yoldaşı)**

## Ceyhun dost kimi nümunə idi



Mən Həsənov Nazim şəhid Ceyhun Həsənovla Ədalət Abbasov adına 257 saylı orta məktəbdə təhsil almışam. Biz eyni sinifdə oxumaqla yanaşı eyni məhəllədə böyümüşük. Ceyhun həm şagird kimi, həm də dost kimi nümunəvi idi. O dərslərinə məsuliyyətlə yanaşırdı. 8-ci sinifdən sonra onun hərbiyə olan marağı bizim yollarımızı ayırdı. Ceyhun Cəmşid Naxçıvanski adına hərbi liseyə, 4 il sonra isə AAHM-ə daxil oldu. Buna baxmayaraq bizim dostluğumuz davam edirdi. Onunla hər məzuniyyətə gələndə görüşürdük.

44 günlük Vətən müharibəsinin ilk günlərində Ceyhunun şəhid olma xəbəri hamı kimi məni də sarsıtdı. Vətənə olan dərin məhəbbəti, igidliyi onu bu uca zirvəyə yüksəltdi. Mən və mənim kimi bütün sinif yoldaşlarımız bu gün onunla fəxr edirik.

Ruhun şad olsun əziz qardaşım. Siz şəhidlər hər zaman, hər an bizim qəlbimizdəsiniz. Bizim borcumuz sizin kimi qəhrəmanları ürəklərdə yaşatmaqdır. Unutmuruq və unutdurmayacağıq ki, şəhidlərimizin hər biri bizim ən ali qürur mənbəyimizdir!

**Nazim Həsənov**
***(sinif yoldaşı)***



## Fəxr edirəm ki, Ceyhun kimi mərd dostum olub



Mən Əsgərov Şahin Fərhad oğlu Vətən Müharibəsi Qəhrəmanı Ceyhun Həsənovla 257 nömrəli məktəbdə təhsil alarkən tanış olmuşduq. Ceyhun çox tərbiyəli, savadlı mehriban oğlan idi. Onun hərbiçi olmaq arzusu orta təhsilini yarıda buraxaraq hərbi liseyə daxil olmağa sövq etdi. Lakin buna baxmayaraq bizim dostluq münasibətimiz bitməmişdir. Fürsət tapdıqca görüşüb, məktəbdəki maraqlı xatirələrimizi yada salıb gülərdik. Mən fəxr edirəm ki, Ceyhun kimi mərd, igid, vətəninə bağlı dostum olub. Biz onun xalqa, vətənə olan sevgisi naminə canından keçməsinin qarşısında nə etsək azdır. Dostları olaraq təsəllini onun ailəsini tez-tez yada salıb,onlarla əlaqəni kəsməməkdə görürük.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**Şahin Əsgərov**
***(sinif yoldaşı)***

# KURSANT VƏ ZABİT YOLDAŞLARI CEYHUN HAQQINDA

## Sərbəst vaxtlarda kitab oxuyurdu



Mən Həsənov Ceyhun Aydın oğlu ilə 2010- cu ildə Culfada N saylı hərbi hissədə xidmət edərkən tanış olmuşam. Ceyhun xasiyyətcə gülərüz, şən insan idi. Ağ, mavi, göy klassik geyimlərə, ayaqqabılarında isə qəhvəyi rənglərə üstünlük verirdi. Musiqilərə gəlincə Mir Yusif, Röya və Rihannanın mahnılarını dinlədiyini xatırlayıram. Sərbəst vaxtlarda kitab oxuyurdu. ”Mister Hemfenin xatirələri”, Elxan Elatlının romanları, Çingiz Abdullayevin dedektiv əsərləri ilə maraqlanırdı. Fiziki hazırlıq zamanı sərbəst məşğul olmağı xoşlayırdı. Bilyard oynamağı sevərdi.

Xidmətində də Ceyhun həm komandir kimi, həm də bir yoldaş kimi hər kəsə nümunə olacaq şəxsiyyət idi. İstər tabeçiliyində olanlarla, istərsə də birbaşa rəisləri ilə çox yaxşı ünsiyyət qururdu. Hər zaman onların rəğbətini qazanmağı bacarırdı. Liderlik xüsusiyyətlərinə kursant vaxtlarından yiyələnmişdi. Yoldaşlıqda, dostluqda mərd olub. Yoldaşlarını, dostlarını heç vaxt darda qoymazdı.

O məclislərdə xidmətə gəlməkdə məqsədinin işğalda olan torpaqları azad olunmasında iştirak etmək, Birinci Qarabağ müharibəsində şəhid olmuş oğulların qisasını almaq olduğunu qeyd



edirdi. Müharibəni öz gözləri ilə görmək istədiyini deyirdi. Sanki müharibənin başlayacağından xəbərdar idi. Müharibə başlamazdan əvvəl mütamidi olaraq əlaqə saxlayırdıq. Avqust ayının axrında telefon danışıqlarımızda fasilələr yaranırdı, çətinliklə əlaqə saxlaya bilirdik. Deməк, həmin ərəfədə Ceyhun öz bölməsi ilə təlimlərdə döyüşlərə hazırlıq ərəfəsində idi. Sonra isə tarixlərdə öz əksini tapacaq, xalqımızın qürur günü hesab etdiyi həmin gün 27 sentyabrda kapitan Həsənov Ceyhunun rəhbərlik etdiyi bölük Füzuli rayonun azadlığı uğrunda gedən döyüşlərdə düşmənin keçilməz hesab etdiyi Ohanyan səddini darmadağın edərək üç yüksəkliyi azad etmiş, düşməni məhv edərək geri çəkilməyə məcbur etmişdir. Ceyhun öz əsgərlərini "Ardımca İrəli" səsləyərək vətən torpaqlarını azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Onun haqqında "Əbədiyyətdəki əziz ünvanlarımız", "İgid oğulların qələbə əzmi tükənməzdir" məqalələri dərc olunmuş, çoxlu xatirələr söylənmişdir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**Mayor Ağayev Əflatun Rza oğlu**



## Ceyhun deyirdi:
## Düşməndən intiqam almağı bacaracağıq



Kapitan Həsənov Ceyhun hər zaman öz hərəkətləri ilə zabitlər arasında fərqlənirdi. Onun gözlərinin içinə baxmağa adam çəkinirdi. Bir neçə ay müddətdən artıq həqiqi hərbi xidmətdə hərbi qulluqçuları yetişdirmə kursunda bir yerdə olduq. Gedəndə mənə yolda dedi, Seymur, bu kursu maksimum dərəcədə hazırlıqlı yetişdirməliyik, çünki bizə lazım olacaq. Belə də oldu, biz kursu yetişdirdik, kursantlarımız ordu sıralarına daxil oldular. Növbəti kursda artıq kapitan Həsənovu briqadada saxladılar. Arada yolum briqadaya düşdükdə görüşürdük. Mənə deyirdi: “Vəziyyət əvvəlki vəziyyət deyil, artıq istəyimizi həyata keçirəcəyik...” Mən “Hansı istəyimiz” - deyə sual verdim. O, “Düşməndən intiqam alacağıq, biz bunu bacaracayıq!” - dedi. Hamımız heyrətlə ona baxırdıq, axı, Ceyhun niyə bu qədər qisas-qisas deyir.

Bir dəfə, daha dəqiq desəm, 24 sentyabrda briqadaya gəldim. Görüşdük. Dedi ki, gəl aşağı düşək oturaq, bəlkə sonuncu dəfə fürsət düşüb görüşürük. Başqa hərbiçilər də var idi. Birlikdə yemək yedik. Bu zaman kapitan Həsənov belə bir söz dedi: “Müharibə olsa, mən heç nəyi gözümün önünə almayacam.” Biz niyə sualını verdik. Bizə belə cavab verdi: “92-93-cı illərdə yaşadığım binanın qabağına gələn cənazələr yadıma düşür, analar saçlarını necə yo-

lurdular. Mənim beynimdə o ağrılı-acılı anlar var ikən mən niyə onların (ermənilərin) böyük və ya kiçik olduğunu nəzərə almalıyam. Məhz indi təvəllüdü 90-cı il olanlar bizimlə döyüşürlər…"

Nəhayət 26 sentyabr 2020-ci il çıxış əmri verildi. Füzulidə Alxanlı kəndində cəmləşdik. Hər bir şeyi hazırladıq, tam hazır vəziyyətdə xəbər gözləyirdik. Kapitan Həsənov mənə dedi ki, ancaq göyə bax, göydə nəsə səs eşitsən, onda bil ki müharibə başlayıb. Belə də oldu. Göydə bir gurultu qopdu. Uca səslə komanda verdi. "Hamı maşınlara!" Biz komanda heyəti ilə döyüş maşınlarına mindik.

Ceyhun hamıdan arxada gedib bölüyü idarə eləyəsi halda ən qabaqda getdi və qarşıdakı valın açılmayacağını gördükdə isə o maşınla "irəli -irəli" komandası verdi. Açıq bir yerdən irəlilədi. Bir neçə dəqiqədən sonra biz düşüb başqa istiqamətlərdə irəlilədik. Dedilər kapitan Həsənov şəhid olub.

Məhz onun PDM-i 3 dəfə minaya düşmüşüdü...

Allah kapitan Ceyhun Həsənov olmaqla bütün şəhidlərimizi rəhmət eləsin.

**Abdullayev Seymur Fikrət oğlu**
***N saylı hərbi hissənin komandiri, leytinant***

## Əziz qardaş. sən bizim qürur mənbəyimizsən



Mənə sənin haqqında danışmaq həm çətin, həm də qürurludur. Səninlə həm kursant yoldaşı oldum, həm də vətən keşiyində duran zabit kimi çiyin-çiyinə işə başladıq. Biz bu illər ərzində bir-birimizə sadiq dost, bir-birimizə qardaş olduq. Sən bu gün nağıl qəhrəmanı deyil, bugünki və sabahki, nəsillərə örnək oldun vətənə, dövlətə, xalqa, torpağa sədaqətli xidmət göstərərək şəhidlik zirvəsinə ucalıb, Vətən Müharibəsi Qəhrəmanı oldun. Sən tağım komandiri olduğun zaman öz əsgərlərinə qardaş qayğısı göstərdin. Cəbhə bölgəsində xidmətini davam etdirərək qarşıya qoyulmuş əmr və tapşırıqları layiqincə yerinə yetirilməsi üçün böyük səy göstərdin. Komandanlığında olan əsgərlərini mənfur düşmən gülləsindən qorumaq üçün özünü sipər etdin. 27 sentyabr 2020-ci ildə Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid oldun. Ali Baş Komandanın sərəncamı ilə Vətən Müharibəsi Qəhrəmanı fəxri adına layiq görüldün. Ceyhun, sən vətənini sevən zabit olmaqla yanaşı, əsl dost, qayğıkeş ailə başçısı, mehriban ata idin. İndi ailəndə sənin kimi vətənini, dövlətini sevən iki gül balamız böyüyür. Ceyhunun xatirəsi ailəsi,yaxın dostları ilə bərabər hər gün təmasda olduğu əsgər və zabitlərinin xatirəsində əbədi yaşayacaq.

Əziz qardaş, sən bizim qürur mənbəyimizsən. Fəxr edirik ki, hərbi andına sadiq, sözünə sahib çıxdın, müqəddəs qanını axıtdığın torpağı vətənləşdirdin. Allah sənə və  bütün şəhidlərimizə rəhmət etsin!

**Seymur Seyidov**



## Ceyhun döyüşdə ən öndə gedirdi



Ceyhun döyüşün ilk günü Alxanlı, Qaraxanbəyli istiqamətində 9 PDM, 4 tank və bir neçə texnika ilə, 80-90 nəfər canlı heyyət ilə döyüşə girdi. O, döyüşdə ən öndə gedirdi. 310 nömrəli döyüş maşınının komandiri kapitan Həsənov Ceyhun, sürücüsü Balacayev Qərib və mən atıcı olaraq düşmənin ilk müdafiə xəttini yardıq. 5-6 postu məhv edib, 90 nəfər canlı qüvvəmizin mühasirəyə düşməsinin qarşısını aldıq.

Ceyhunun başçılığı ilə düşməni tam məğlubiyyətə uğratdaraq döyüş tapşırığını yerinə yetirdik.

Geri dönərkən 2 tank əleyhinə minaya düşdük. Kapitan Həsənov Ceyhun sürücü Balacayev Qərib əsl qəhrəman kimi şəhid oldular.

Allah onların hər ikisinə və bütün şəhidlərimizə rəhmət diləyirəm.

**Şahin Mehtiyev**
**MAXE**



## Ceyhun vətənini sevən bir zabit idi



Ceyhun bu dünyaya nadir gələn insanlardan biri idi. Mən onu həmişə tələbkar və nikbin bir komandir kimi xatırlayıram. İş vaxtı işini, işdən sonra da yoldaşlığın yerini çox yaxşı bilirdi. Onunla olan xatirələrim saymaqla bitməz. Ceyhun sözün əsl mənasında Vətənini sevən tələbkar bir komandir idi. O tabeçiliyində olanların həmişə qayğısına qalardı. Ceyhun deyərdi ki, iş vaxtı sizləri danlaya bilərəm, amma işdən sonra bambaşqa insan olurdu. Çox tələbkar, vətənini sevən bir zabit idi. O, Vətənin adı gələndə ev yadından çıxırdı. Komandirim içindəki Vətən sevgisini bizlərə o qədər gözəl aşılayırdı ki...

Qarabağ deyəndə onun həmişə şən gördüyümüz gözləri doluxsunardı. 2012-ci ildə biz onunla Ordubadda olanda Culfa rayonunun Yaycı kəndində mənim toyumda iştirak elədi. Əsl dost, əsl komandir kimi. Onun Vətənə olan sevgisinə mən 10 il bundan öncə onu tanıdığım gündən şahidəm. O qəhrəmanlığı ilə 2-ci Qarabağ müharibəsi qəhrəmanı olmaqla bunu sübut elədi. Allah komadirimə rəhmət eləsin, bizlərə də bu Vətən uğrunda şəhid olmağı nəsib etsin. Amin.

**Ələkbər Məmmədəliyev**



## Bizdən heç vaxt qayğısını əskik eləməzdi



Mən əsgər idim. Komandirimi 2012-ci ildən bəri tanıyırdım. 3 ay idi ki, komandirimiz baş leytenant Həsənov Ceyhun Aydın oğlu idi. Bir insan evində necə arxalandığı atası, anası, var idisə, bizim də əsgərlikdə Həsənov Ceyhun kimi komandirimiz var idi. Heç nədən qorxmazdıq, bilirdik ki, əgər bir səhv eləsək komandir bizim arxamızdadır. Çox arxayın idik, 33 nəfərlik bir batareya idik. Bəlkə bu yazını görən əsgər yoldaşlarımız olacaq. Onlar da təsdiqləyər ki, bir dəfə bir başqa bölmənin zabiti ilə dava elədik. Hər kəs yeməyə getdi. Biz qaçdıq ki, gedək komandirimizə deyək ki, bizə arxa dayaq çıxsın. Bir ailənin böyüyü kimi komandir öz bölməsinə sahib çıxdı. Bizi qorudu. Biz tərxis olana kimi hər zaman, hər yerdə fəxr elədik ki, bizim belə komandirimiz var. Biz heç nədən qorxmurduq, hər zaman bilirdik ki, bizim arxamızda bölük komandirimiz var. Bizdən heç vaxt qayğısını əskik eləməzdi. Qardaş kimi arxa-dayaq durardı. Bizim bölük hər zaman başqa bölmələrdən fərqlənərdi. Çünki komandirimiz hər zaman yanımızda olardı.

Nə qədər yorğun olsaq da, bəzən sırada gedəndə komandirimizin bir kəlmə "batareya" sözünə ayağımızı yerə vuranda onun gözündə o qürur və fəxarəti görürdük. Artıq 7 ildir ki, mən əsgərlikdən tərxis olmuşam. Özüm bir bölmənin komandiriyəm. Amma yenədə sənin komandirin kim olub deyə soruşulanda, mən hər zaman fəxrlə Həsənov Ceyhun Aydın oğlu deyirəm.

Sonralar eşitdim ki, Beyləqan korpusunda qərargah rəisi vəsifəsində işləyir. Sadəcə onu deyim ki, həmin tabor çox şanslı tabor olub ki, onların kapitan Həsənov Ceyhun kimi qərargah rəisi olub.

Biz bu gün bir əsgər kimi kapitan Ceyhun Həsənov barədə nə qədər söz desək də yenə də azdır. Allah bizə də o cür şərəfli həyat nəsib etsin.

Gözəl komandir, Allah sənə qəni-qəni rəhmət etsin. Biz səninlə hər zaman fəxr edəcəyik. Sən varikən də, şəhid olduqdan sonra da adınla fəxr edirik. Səninlə cənnətdə görüşərik.

**Asim Aslanov**





## Hamı onu çox istəyirdi



Ceyhun adı hər zaman ürəyimdə bir nisgil yaradır. Ceyhunla tanışlığım çox illər əvvəl olub. Hərbi məktəbdə kursant idik. Belə bir oğlanla tək mən deyil, hər kəs dostluq etməyi arzulayırdı. Səbəbi isə ondakı əsl mərdlik, qorxmazlıq və bizə verdiyi güvən hissi idi. Beləliklə, çətin gənclik həyatımıza sinə gərərək məktəbi bitirdik. Leytenant hərbi rütbəsi aldıq. Həmin gün sevinc hissini birlikdə yaşadıq. Amma qarşıda bizi böyük çətinliklər gözlədiyini heç fikirləşmirdik. Bəzi yoldaşlarımızdan ayrı düşsək də Ceyhunla mən hərb həyatımızı birgə davam etdirdik. Kursant illərində olduğu kimi, Ceyhun Naxçıvanda da öz xoş rəftarı, mehribançılığı ilə ətrafdakıları özünə cəlb etdi. Hamı onu çox istəyirdi, ona hörmət bəsləyirdi. Yaxşı günləri, bəzən də çətin ayları birlikdə keçirtdik, bir-birimizə dəstək olduq. Naxçıvanda Ceyhun demək olar ki, xidmətinin bütün illərini ön xətdə düşmənlə təmasda olan mövqeylərdə keçirtdi. Düşmənə olan nifrət və onda olan vətənpərvərlik hissi, zabit şərəfi xidmətdə Ceyhuna ruh yüksəkliyi verirdi. Hamının rəğbətini qazanmağının səbəblərindən biridə bu idi. Amma o əsl övlad kimi ata anasının yaşlandığını, ailəsindən uzaq bir yerdə xidmət keçdiyini hər zaman düşünürdü. Çünki o, evin tək oğul övladı idi. Elə ona görə də xidmətinin 10 ilini  Naxçıvanda tamamlayıb, Beyləqanda davam etdirmək üçün geri qayıtdı. Burada da xidmət həmişəki kimi ona asanlıqla başa gəlmədi. Son danışığında

“Bizə dua edin, döyüşə girəcəyik”, ”Səni Cəbrayıla aparacağam” demişdi.

Sentyabr ayının 27-si müharibənin başlanması xəbərini aldıq. Bu zaman Ceyhun ön cəbhədə olduğu üçün çox nigaran oldum. İnana bilməyəcəyimiz xəbəri alanda sanki dünya başıma yıxılmışdı. İnanmaq istəmirdik. Hər an bunun yalan olacağını zənn edirdik. Ceyhunun şəhid olduğu xəbərini eşidəndən sonra yoldaşlarımızla onların yaşadığı ünvana gedib hələ də bu barədə evlərində heç bir məlumatın olmadığını və məhlədə tam sakitçilik olduğuna şahid olduq. Aldığımız məlumat çox əzablı idi, dözmək olmurdu. Acı xəbər bir göz qırpımında hər yana yayıldı. Telefon zəngləri susmurdu. Xəbərin gerçək olduğunu biləndə ümidlər üzüldü, ürəyimizə dağ çəkildi. Bu hadisədə yuxunun real olmağını deyil, reallığın yuxu olmağı üçün çox dua etdik, amma təəssüf...

Yoldaşlarımız əziz qardaşımın nəşinin yola salınmasını deyəndə dizlərimiz büküldü. İndi bu sözlərimi yazmağa göz yaşlarım imkan vermir. Ceyhunun nəşinin yaşadığı ünvana çatanda Aydın dayının və Səmayə xalanın halının necə olacağını düşünüb, daha çox əzab çəkirdim. Hərbi məktəbdə oxuduğumuz illərdən bəri ailəmizin bir üzvinə çevrilmiş Ceyhunun aramızdan getməyini hələ də qəbul edə bilmirik. ”Sən dediyini əsl kişi kimi etdin. Mənim mərd qardaşım”. Füzulini, Cəbrayılı bizə qaytardın, amma özünü bu yolda fəda etdin. Sənsiz bu yerlərə getmək mənə çox əzab verəcək. Ruhun şad olsun. Təsəllimizi soyuq məzarından, yadigarların Cavidan və Cahiddən alırıq.

**Elsevər Əliyev**
**(zabit)**



## Mərd kimi mərd, insan kimi insan olub



Ceyhun Həsənov postda mənim komandirim olub. 2017-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda düşmənlə 17 metr təmas xəttində 1il xidmət aparmışam. O komandir kimi komandir olub. Bizə qardaş kimi qardaş olub hər cəhətdən. Biz Ceyhun kimi komandiri unutsaq nankor olarıq. Yaxşı xatırlayıram öz ad günündə düşüb aşağıdan ət alıb, bizə kabab çəkən o oğlandı. Ceyhun Həsənov mərd kimi mərd, insan kimi insan olub. Rəhmətlik Ceyhunla, mən həmin postda kəşfiyyatçı müşahidəçi idik. Hər gün biz müşahidəyə gələrək, binokulla düşmən ərazisinə baxırdıq, O, deyərdi:

-Qiyas, görəsən gedə biləcəyik oralara?

Məni Qiyas deyə çağırardı. O 1 il boyunca ondan hörmətsizlik görmədim. Çox yaxşı insan idi.

Mən də cəbhənin şimal istiqamətində, Talışda, Suqovuşanda döyüşlərdə idim. Müharibədən gələndən sonra eşitdim ki, kapitan Həsənov Ceyhun artıq aramızda yoxdur. O, qəhrəman kimi gəldi, qəhrəman kimi döyüşərək şəhid oldu. Onun kimi cəsur insan heç vaxt unudulmaz!

***Ceyhunun ölməz Ruhuna  xitabən deyirəm:***

Sənin kimi igidlər gəlməz cahana,
Komandir üzünün nuruna qurban.
Bu şeiri  həsr etdim Ceyhun, adına,
Sənin üçün oxunan duaya qurban.

Füzuli od oldu, sən su olmusan,
Cəbhədən – cəbhəyə uğur qazandın.
Sən  Vətənimin igid  oğlusan,
Dərk etdin mənasın sən hərbi andın.

Heç kim unutmaz şücaətini,
Qəlblərdə adın var, əzbərimizsən.
Dünyaya göstərdin  sən qeyrətini,
Sən ölməz, əbədi şəhidimizsən!..

Bəli, Ceyhun  bizim qəlbimizdə əbədi komandir, böyük qardaş kimi yaşayacaq! Kapitan Həsənov çox yaxşı qardaş idi. Yaxşılara qarşı  cavabı həmişə yaxşılıq idi. Elə yaxşı insan kimi qəlbimizdə əbədi mənzil qurub. Ceyhunu unutsam onda, onunla kəsdiyimiz duz - çörək mənə qənim olar… Mənim ürəklə ona dediyim qardaş kəlməsi indi mənim qəlbimi çox  göynədir. Tanrı ən yaxşı insanları bizdən ayırıb, geridəkiləri üzür. Bəlkə də Tanrı öz  müqəddəs taxtında onlara yer verib...

Allah ona rəhmət etsin. Başımız, başınız sağ olsun. Heyif ki, onun şərəfli zabit ömrünün sonu kədərli oldu. Fəqət, o, hər zaman bizim qürurumuzdur. Hər gün telefonu açanda, onun şəklini görəndə Sədərəkdə səngərdə keçirdiyim günlər yadıma düşür. Unutmağa heç bir səbəb yoxdur. Ola da biməz! İnsan qardaşını heç vaxt unutmaz.



Həyat bizimlə bizdən kimləri aldığının fərqində olmadan davranır. Kimi və kimləri yaşatdığının fərqində olmadan… Bizə əziz insanlar yanlız şəkillərini yadigar qoyub gedirlər...

Uşaqlar dost itkisini anlamaz. Çünki onlar böyüdükcə bunu aram – aram dərk etəcəklər. Amma vətən uğrunda silahdaşını, dostunu itirmək bir başqa cür dərd olur adama…

Unudanları bağışlama, xəyanəti heç vaxt bağışlama. Hüzr içində yat, səni qürurla yad edən Azərbaycan Respublikasının ən yaxın döyüş mövqeyindən - təmas xətindən 17 metr aralıda sənlə xidmət edən kəşfiyyatçı əsgərin Qiyasovdur!

**Niyazi Qiyasov**



## Unudulmaz belə igid qəhrəman



Mən, Hüseynov Mahir Elşən oğlu, Vətən sevdalılarını dünyaya gətirən əziz və mərd analar qarşısında baş əyirəm, onların əllərindən öpürəm. Kədərli olsa da igid övladlarını itiriblər. O igidlər ŞƏHİDLİK zirvəsinə ucalıblar. Bu həmin zirvədir ki, biz hərbçilərin hər birinin arzusu o məqama yüksəlməkdir. Bəli, həmişəlik qəlblərdə, yaddaşlarda yaşayacaq Ceyhun qardaşımız da igidliyi ilə o zirvəyə ucaldı. Bizlərə də qismət olar o müqəddəs məqam inşallah... Əziz şəhid analarına səbr diləyirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin.  Şəhid analarımızın susuz qalan ürəklərinə qurban olum. Ayaq qoyduqları, göz yaşları axıtdığı yerdə güllər bitər, dərdli-dərdli baxarlar, oğul yollarını gözlərlər... Səssiz-səmirsiz solarlar öz içlərində... Dərdimiz birdir, şəhid anaları. Siz oğul, biz dost, qardaş itirdik.

Kaş bizlərə də şəhidlik nəsib olaydı. Çünki, Allah sadəcə sevimli bəndələrinə cənnəti bəxş edir.  Cənnətdə görüşərik əziz qardaşım, Ceyhun!

Can verdi sevdiyi Vətəni üçün,
Etmədi tərəddüd heç bircə an da.
Yaxşıya dost oldu, namərdə düşmən,
Hər zaman mərdliklə qaldı meydanda
Unudulmaz belə igid qəhrəman
Nə qədərdəyişib keçsə də zaman.

**Mahir Hüseynov**



## Mən onu özümə böyük qardaş bilirdim



Vətənimizin azadlığı uğrunda canından keçən, torpağı, dövlətimizi ailəsindən və hər şeydən üstün tutan, bu yolda şəhidlik zirvəsinə ucalan hər bir şəhidimizin ruhu qarşısında baş əyirəm. Allah onlara rəhmət eləsin. Ruhları şad olsun. Qazilərimizə Allahdan şəfalar diləyir, inşallah tezliklə əvvəlki sağlamlıqlarına qovuşmalarını arzu edirəm. Torpaqlarımızın azadlıqı uğrunda başlayan 44 günlük müharibədə əfsuslar olsun ki, çox igidlərimizi, oğullarımızı şəhid verdik. Şəhidlərimizin qanı ilə yuyuldu torpaqlarımız. Şükürlər olsun ki, Qarabağ həqiqi sahiblərinə, doğmalarına qayıtdı. Bu yolda mən də əziz qardaşım, sirdaşım, candaşım kapitan Həsənov Ceyhunu şəhid verdim. Ceyhundan çox şey danışa bilərəm, amma onları bura sığışdırmaq olmaz. Ceyhun qardaş kimi qardaş, dost kimi dost, oğul kimi oğul idi. Ceyhun Allahın yer üzünə bəxş etdiyi bir mələyi idi. Ceyhunu 2010 - cu ildə Naxçıvanda xidmət edərkən tanıdım və o zamandan dostluğumuz möhkəmləndi. Mən onun xidmət etdiyi hərbi hissənİn yaxınlığında sahibkarlıq işi ilə məşğul idim və Ceyhun istifadəmdə olan obyektə gələrdi və bizim qardaşlığımız da ordan başladı. Bu arada onu tanımağıma əsas səbəb də atam oldu. Atam Ceyhunu məndən qabaq tanıyırdı. Mənə tapşırmışdı ki, Ceyhun nə vaxt bura gəlsə, nə lazım olsa onun qulluğunda durarsan. Ceyhun dürüst, düzgün, mərd oğlandı dedi və o zamandan Ceyhunla mənim də dostluğumuz başladı.





Həqiqətən onu tanıdıqca necə düzgün, dürüst bir insan olduğunu gördüm və elə bir dost qazandığım üçün çox şad oldum. Biz sözün həqiqi mənasında bir – birimizə qardaş olduq. Mən onu özümə böyük qardaş bildim. Az - az görüşərdik. Hər zaman düşmənlə yaxın təmasda xidmət etməyi üstün tutardı. Torpaqlarımızın düşmən tapdağı altında qalmasını heç bir zaman qəbul etməzdi. Nə zaman Qarabağdan söhbət düşsə, hər zaman gözü dolaraq danışardı ki, Ali Baş Komandan əmr versin, gedək Qarabağı o şərəfsizlərdən azad edək. Görsünlər ki, biz əvvəlki deyilik, biz çox güclüyük. Görsünlər ki, Azərbaycanın necə igidləri, qəhrəman oğulları var. Həqiqətən dediyini etdi və düşmənə necə oğullarımızın olduğunu göstərdi. Bir an belə düşünmədən düşmənin üstünə irəlilədi, bu yolda canını, qanını qurban etdi əziz qardaşım. Azad etdiyi torpaqlarda indi ruhu gəzir qardaşımın.

Başın sağ olsun vətən, başın sağ olsun Azərbaycan!

ŞƏHİDLƏR ÖLMƏZ VƏTƏN BÖLÜNMƏZ .

**Nəriman Əliyev**



"Son zəng, son döyüş, son təbəssüm" kitabından

# QISA ÖMRÜN GENİŞ MƏNASI



Ceyhun HƏSƏNOV
*Yaxın qohumu, zabit*

İlqarla mən həm qohum, həm də həmkar olmuşuq. Bu peşəni seçməkdə İlqarın mənə böyük tövsiyyələri olmuşdur. Onun mənə dediyi bu sözləri heç vaxt unutmayacam: "Möhkəm ol və yalnız irəli bax" -deyərdi. İlqar həqiqətən vətənpərvər, vicdanlı şəxs idi. Onu təkcə Azərbaycanda yox, eyni zamanda bir çox ölkələrdə tanıyırdılar. İlqarın qısa ömrünün geniş mənası var. Onları sadalamaqla qurtarmaz. İlqar daim çalışırdı, amma çox təəssüf ki, arzularına çata bilmədi. Taleyi onu ölümü ilə ölümsüzlüyə yüksəltdi.

Azərbaycan xalqı daha qeyrətli bir oğlunu itirdi. O, həqiqətən bu torpaq, bu vətən uğrunda həlak oldu. Hər kəsə vətən uğrunda şəhid olmaq nəsib olmur. Bir çox insanlar İlqarın yerində olmaq istəyirdilər. Bir daha Allahdan İlqara rəhmət, ailəsinə səbr diləyirəm. Ata, anasına təşəkkürümü bildirirəm ki, İlqar kimi oğul böyütmüşdülər. İlqar hər zaman bizim qəlbimizdə yaşayacaq. O, bizə örnəkdir. Fəxr yerimiz, qürur mənbəyimişdir.



## Ceyhunu tanıyan şəxslərin qəlbindən gələn sözlər
## *(Sosial şəbəkələrdə paylaşılan bu fikirlər yazıldığı kimi təqdim olunur)*

Sizə qurban olum komandir. Siz çox gözəl insan idiniz. Sizi o uca zirvə bizdən aldı. Məkanın cənnət olsun. Mən hər zaman sizinlə fəxr edirəm. Mənim üçün böyük şərəf idi, sizinlə bir yerdə vuruşdum, bir yerdə döyüşdüm. Amma çox heyf, indi yoxsunuz. Siz tək mənim üçün komandir yox, eyni zamanda dost, həm də böyük qardaş idiniz. Sizi özümə o qədər doğma insan bilidim. Kaş mən gedərdim, siz qalardınız. O gözəl balaların atasız qalmazdı. Ayaqlarının tozuna qurban olum komandir.

**Elnur Eminov.**

***

Can qardaş səninlə çiyin- çiyinə 2010- cu ildə Culfada bir yerdə xidmət etmişik. Allah sənə rəhmət etsin. Amin.

**Fuad Suad.**

***

2011- ci ildə Naxçıvanda mənim tabor komandirim olub. Heyif səndən komandirim. Gözəl insan idin. Nur üzlü şəhidim. Sən başqa cür oğul idin. Sənə qıyan əllər qurusun. Komandirim, səni belə görmək istəməzdim. Sən bir cənnət mələyi idin.

**Ruslan Səlimov.**

***

Səni tanıyan hər kəs çox üzüldü, amma ən çox səni dünyaya gətirən ana, tərbiyə verən atan bilsən nələr çəkirlər, sənsiz qardaş. Səni tanıyan hər kəsdən ancaq xoş sözlər eşitdim. Hər kəsin qəlbində xoş bir iz qoydun getdin. Məkanın cənnət, şəhadətin mübarək.

**Əkbər Əhmədoğlu.**

***



Ceyhun mənim sinif yoldaşım olub. 257- də bir oxumuşuq. Allah sənə rəhmət etsin əziz dost.

**Elvin Məmmədov.**

***

Şəhidlik zirvəsi ən uca zirvədir. Ceyhunu tanıyan biri kimi, içindəki vətən sevgisini bilən biri kimi demək istəyirəm ki, Ceyhun qəhrəman şəhidlərimizdəndir. Allah ona rəhmət etsin.

**Azərbaycan Türkiyə.**

***

Allah mənə də sənə nəsib etdiyi şəhadətdən qismət etsin. İnşallah. Sənə qarşı çox haqsızlıqlar oldu, amma sən yenə onlara qarşı səbr etdin. Buna baxmayaraq, ən yüksək zirvəyə qalxdın. Elə zirvəyə qalxdın ki, əlşatmaz oldun. Sənin kimi qardaş hər kəsə nəsib olmur.

**Əhməd Aslanlı.**

***

Can, can ay komandirim, gözəl komandirim. Axır ki, arzuna çatdın. Məkanın cənnət olsun.

**Kənan.**

***

Mən tam məsuliyyətimlə bir neçə söz deyəcəm. Ceyhunu tanıyırdım. Onun kurs yoldaşları da mənim sözlərimi təsdiqləyər. Kursun ən qabaqda gedən oğlanlarından biri olub. 2008- ci ilin sayılıb-seçilən oğlanlarından biri idi. Xidmətinin çox hissəsi Naxçıvanda olub. Orada istər xidmətində, istər şəxsi keyfiyyətində ideal qardaşımız olub. Ceyhundan çox danışaram, amma yerim çatmaz. Məndən 3 il böyük idi. Onu hər zaman özümə ağsaqqal bilmişəm. Bir çox məsələlərdə onu özümə ideal bilmişəm. Ondan çox çey öyrənmişəm. Qardaş münasibətimiz olub. Bircə onu deyə bilərəm ki, onu ömrümün sonuna qədər unutmayacam, yaddan çıxarmayacam. Ceyhunu böyüdən ata-ananın əllərindən öpürəm. Mənim

Vətən Müharibəsi Qəhrəmanı medallı qardaşım. 7 il Naxçıvanda bir yerdə xidmət etmişik. Səninlə gəzmədiyimiz yer qalmadı. Müharibədə onlarla qardaş itirmişik, onlardan biri də Ceyhundur. Bu ad Azərbaycanın ən yüksək fəxri adıdır. Səninlə fəxr edirəm.

**Bağırlı Samir.**

***

Allah rəhmət etsin. Kurs yoldaşım, gözəl insan, bizim buraxılışın ən gözəl zabiti, qəbrin nurla dolsun. Sənin haqqında günlərlə danışaram.

**Axilles 86.**

***

Ruhun şad olsun xalqın qəhrəman oğlu. Bil ki, qəhrəmanlar heç zaman unudulmur.  Səni bu xalq, bu vətən xatırlayacaq.

**Hüsniyyə Hüseynova.**

***

Gedişinlə çox şey dəyişdi, qardaş.

Can gözəl insan, gözəl qardaş sənin yoxluğun dözülməzdir. Dayanan ürəyinə qurban olum.

**Səadət Əkbərova.**

***

Canım qardaşım, sənsiz heç bayram sevinci yaşaya bilmədik. Yatdığın torpağa qurban olum. Gözümün yaşı heç zaman qurumayacaq. Sən bizim ürəyimizə dağ çəkdin.

**Lalə Əliyeva.**

***

Allah rəhmət etsin. Ceyhun yaxşı qardaş idi. Yoxluğu ilə heç cürə barışa bilmirəm. Naxçıvanda bir yerdə xidmət etmişik.

**Cəlil 198899.**

***



Can,  Ceyhun can, necə gözəl sinif yoldaşı, necə yaxşı qardaş idi. Yaraşıqlı sinif yoldaşım, qeyrətli qardaşım. Allah körpə balalarını qorusun. Məkanın cənnət olsun. Kaş bu yuxu olaydı of,of.

**Seymur Əhmədov.**

***

2009- cu ildə 215 saylı hərbi hissədə Naxçıvanda bu gözəl insan mənim komandirim olub. İnsan kimi insan, komandir kimi komandir olub. Gözəl insan idi.

**Samit İmişli.**

***

Allah sənə rəhmət etsin komandir. Sizin əmrinizdə olmaqdan hər zaman qürur hissi duymuşam. Adamın inanmağı gəlmir. İllərimiz şirin xatirə kimi bir ömür boyu məndə yaşayacaq. Mənim əziz, komandirim, qardaşım.

**Gündüz Əbilov.**

***

Can məhlə uşağı, Allah sənə rəhmət etsin. Uşaqlığımız bir yerdə keçib səninlə. Kaş o günə qayıda biləydik. Bəlkə səni yenidən görə bilərdim. Yaxşı ki, sənin kimi bir igidi tanımışam.

**Kamran Mürsəlov**

***

2012-2014 ci illərdə Naxçıvanda komandirim olub. Gözəl insan, əzəmətli komandir.

**Qabil Əliyev.**

***

Naxçıvan, Culfa N 216, tabor 6, 2010- 2011, canım, cismim komandirim.

**Abışov 34.**





***

Komandirim olub. Mənim vaxtımda hələ leytenant rütbəsində idi. Şəhid olanda kapitan rütbəsində idi. Çox mərd, cəsur, heç nədən, heç kimdən qorxusu olmayan şəxs idi komandirim. Məkanın cənnətdir, komandirim.

**Turqut Əli Ərdəbil**

***

Bu gözəl insan mənim bölük komandirim olub, Bulaq postunda. Düz 1 il xidmətimiz olub. Çox gözəl insan idi. Gördüm şəhid şəklini çox pis oldum. Rəbbim bütün şəhidlərimizə rəhmət etsin.

**Saffet 767**

***

Kapitan Həsənov mənim bölük komandirim olub. Çox gızəl insan idi. Ruhun şad olsun komandir.

**Əfqan**

***

Allah sənə rəhmət etsin komandir. Sənin qadan alaram, igid, mərd, qeyrətli insan. Sənin şəhid xəbərini almaq həqiqətən mənim üçün çox ağır oldu. Nur içində yat komandir. Sənin qisasını alacam. Övladlarına sənin kimi ataları olduğunu danışacam.

**Niyazi Qiyasov.**

***

Hər zaman yaxşı insanlar bu həyatdan erkən gedər, pislərə bir şey olmaz. Allahım cənnətini mübarək etsin.

**Abdurrahman Altay**

***

Şahbuzda 2011- ci ildə postda komandirim olub. Qürur duyulası bir insan idi.

**Kənan Əli.**



***

Can qardaş, can, səni belə görməsəydim, kaş... Ürəyim partlayır.

**Sinan Hüseynov.**

***

Uğurlu həyat yolu keçib, qürurlu ad qazanan əzizim. Allah rəhmət etsin, əziz qardaşım. Sənin kimi zabiti itirdik. Səni həmişə özümə ideal bilmişəm, Ceyhun qardaşım. Həm zabit kimi, həm də bir dost kimi. Özümə böyük qardaş bilmişəm. Mərd, canlara dəyən oğul idi. Naxçıvanda bölük komandirim olub. Qismət olub, başqa yaxın istiqamətlərdə postlarda xidmət etmişik. Mən də bir zabit kimi xidməti Ceyhundan öyrənmişəm. Ceyhuna həmişə deyərdim, sən yaxın vaxtlarda hərbi hissə komandiri olacaqsan. Bizim böyük qardaşımız olub. Ruhun qarşısında baş əyirəm, haqqını halal et.

**Arif  Yusifov**

***

Can qardaş, bu kollektivdə daim yerin görünəcək. Yerin behişt olsun. Sənə qurban olum. Naxçıvanda komandirim olub. Allah sənə rəhmət etsin.

**Tehran Babayev**

***

Ceyhunumuz, igidimiz, sən bizim üçün hər zaman əziz olmusan, əziz olaraq da qalacaqsan. Hər dəfə girib videolarına baxanda o qədər sarsılıram ki, təsəvvür belə edə bilməzsiniz. Sənlə Naxçıvanda paliqondakı günlərimiz yadıma düşür. Mən sizi qəlbimdə canlı olaraq yaşadacam. Mənim mehriban dostum komandirim. Sənin yoxluğun mənim üçün ağır zərbədir. Sənsiz ad gününü qeyd etmək çox incitdi məni, kaş həyatda olardın, o gül balalarınla qeyd edərdin.  Valideynlərinə dərin hüznlə baş sağlığı verirəm.

**Elvin Hüseynov.**





***

Yoxluğun bizim qəlbimizi açıtsa da, hər kəsə nəsib olmayan şəhadətinlə qürur duyuram. Şəhidimiz, igidimiz, Ceyhunumuz.

**Zəminə Abbasova**

***

Başın sağ olsun Vətən, Ceyhun kimi onlarla oğul itirdin. Belə oğullar yetişdirən anaların əllərindən, ürəyindən öpürəm. Oğullar böyüyür beşikdə, Vətəni qorumaq üçün.

**Vüsalə Abdullayeva**

***

Sən ən yüksək ada layiq idin, layiq də oldun. Sənin əsgərin olduğum üçün fəxr edirəm.

**Şəhriyar Quliyev**

***

Allah rəhmət eləsin. 2010-cu ildə Culfada gənc taborda komandirim olub. "Hay ver mənə, cənab leytenent" mahnısını oxuyub, marş gedəndə pəncərələr sirkələnirdi. Necə qürurlanırdı.

**Vüsal Muhamməd**

***

Canım qardaşım, səndən sonra hər şeyə küskünəm, sənin yoxluğun üçün. Sənin qisasını alacam, tez bir zamanda, ruhun qarşında söz verirəm.

**Sadiq Novruzov**

***

Can şəhidim kaş bütün komandirlər sizin kimi olaydı. Xidməti bitirdikdən sonra əlaqə saxlayardım. Sizin kimisi gəlməz dünyaya. Ürəyim dözmür partlayır. Sən öz vətənpərvərliyin, mərdliyin ilə sübut etmisən. Sənin kimi komandir olmayacaq. Bir sözlə əvəz olunmazsan. Can komandir, nur içində yat.

**Elnur Tarverdiyev**



***

15 ay mənə komandirlik yox, qardaşlıq etmisən. Qurban olaram sənə.

**Həsən Abdullayev**

***Zəruri qeyd:*** Sosial şəbəkədə şəhid kapitan Ceyhun Həsənov haqqında bu cür yazılar yüzlərlədir. Yalnız onlarda bir qismini kitaba daxil etdik.





## QƏHRƏMANA HƏSR OLUNMUŞ ŞEİRLƏR

### Yanan qəlbin məlhəmi ol Ceyhunum

Qayıt bizə ömrüm –günüm bir daha,
Yanan qəlbin məlhəmi ol Ceyhunum.
Küllü- aləm çarə tapmır dərdimə,
Yanan qəlbin məlhəmi ol Ceyhunum.



Bəlkə səni Qarabağda arayım?
Tellərini həsrətimlə darayım.
Ey muradım, ey yıxılan sarayım,
Yanan qəlbin məlhəmi ol Ceyhunum.

Bu torpaq şəhidin bağrına basdı,
İsmini Şəhadət bağından asdı.
Sənsiz yer üzünün hər yanı yasdı,
Yanan qəlbin məlhəmi ol Ceyhunum.

Uzaq getdin dərdin dərin-dərindi,
Bir səs gəlir, deyir Allah Kərimdir.
Gözümdəki hüzn sənin yerindi,
Yanan qəlbin məlhəmi ol Ceyhunum.

İndi dünya qalıb dərdlə baş- başa,
Cismin yerə.rəsmin dönüb lal daşa
Həkk olundun tarixlərə, yaddaşlara,
Yanan qəlbin məlhəmi ol Ceyhunum.

Xatirəndən Lətifəyə qəm düşür,
Qara saça qor ələnir, dən düşür.
Günəş batır, Gün qaralır, çən düşür,
Yanan qəlbin məlhəmi ol Ceyhunum!
Yanan qəlbin məlhəmi ol Ceyhunum!

**Lətifə Rəşid**
***27.07.2022***



***Heç kim unudulmur,***
***Heç nə yaddan cıxmır...***

Qəlbimizdə yaşayacaq!
Qarabağın qapısını,
İlk açanı Ceyhun oldu!
Düşmənlərin, ilk gücünü,
Məhv eləyən Ceyhun oldu!

Səksən nəfər, igid ilə,
Düşmənlərə od yağdırdı,
Füzuli bir qala idi ,
İlk işığını o yandırdı!

Düşmənlərə nifrət etdi!
Döyüşlərə öndə getdi,
Tək başına o qəhrəman,
Düz üç postu məhv elədi !



Əsgərlərini xilas edib,
Özü qurban, getdi Ceyhun!
Öz canını vətənə fəda etdi,
Şəhadəti seçdi Ceyhun!

Ürəyində, vətən eşqi,
Ata eşqini üstələdi!
İki əkiz balasını,
Bir doyunca görmədi!

Nə Cavidan, nə Cahid,
Bir yol ata söyləmədi!
Bir ananı ağlar qoydu!
Vətəni seçdi, Ceyhun!

İgid oğul, mərd qəhrəman,
Vətəninə oğul oldu!
Qələbəni görməsədə,
İlk qələbə onun oldu!

Sən ağlama, mərd Ceyhunu,
Vətən üçün verən ana,
Sən  analar, anasısan,
Torpağını sevən ana!

Sənin oğlun, tarix yazdı,
Adı qaldı, dilimizdə!
Azərbaycan yaşadıqca,
Yaşayacaq qəlbimizdə!

**Gülxar Əmrah qızı**



## ÇİN OLDU.
*(Ceyhunun dilindən)*

Uşaqlıqdan əsgərliyi sevirdim,
Əlimə taxtadan tüfəng alırdım,
Uşaqlarla səngər - səngər oyanyırdım,
Ana, bütün arzularım çin oldu.

Səngər qazıb uşaqlarla oynayırdıq,
Əlimizdə uca bayraq tutardıq,
Qaçıb hərdən səngərlərə girərdik,
Ana, bütün arzularım çin oldu.



Qonşular maraqla bizə baxırdı,
Balaca əsgərdən ləzzət alırdı,
Bizə gözəl xeyir-dua verərdi,
Ana, bütün arzularım çin oldu.

Bu arzular verdi mənə qol - qanad,
Qarşımda açıldı yeni bir həyat,
Baxdım ki, yaranıb ən gözəl fürsət,
Ana, bütün arzularım çin oldu.

Çox çəkmədi girdim ali məktəbə,
Sevinirdim girdim hərbi məktəbə,
Oxuduqca dəyişirdi mərhələ,
Ana, bütün arzularım çin oldu.

Məktəbi bitirib orduya gəldim,
İlk dəfə zabitəm sözünü dedim,
Zabit olmağıma çox sevinirdim,
Ana, bütün arzularım çin oldu.

Əla bitirmişdim ali məktəbi,
Uşaqlıqdan sevirdim bu sənəti,
Öyrəndim dözümü, mən dəyanəti,
Ana, bütün arzularım çin oldu.

Çox keçmədi, orduda mən tanındım,
Hərbinin hər qanun mən ali sandım ,
Gül açdı oldu Vətənə sədaqət andım,
Ana, bütün arzularım çin oldu.

Əsgərləri özüm qədər sevirdim,
Silahları mənimsədim, öyrəndim ,
Özümü onların biri bilirdim,
Ana, bütün arzularım çin oldu.

Bir gün mənə zəng elədi öz anam,
Söylədi mən səndən çox nigaranam,
Mən dözə bilmirəm axı anayam,
Ana, bütün arzularım çin oldu.

Ana, sənin əllərindən öpürəm ,
Burda səngərdəyəm, təlim keçirəm,
Vətən üçün hər nə varsa edirəm,
Ana, bütün arzularım çin oldu.

Ana, uşaqlara salam deyərsən,
Ataları kimdir nəql eləyərsən,
Vətən bizim anamızdır deyərsən,
Ana, bütün arzularım çin oldu.

Anam ilə sağollaşıb ayrıldım,
Qaldığım məkandan işə başladım,
Vətən ana deyib, xəyala daldım,
Ana, bütün arzularım çin oldu.

Vətənə qulluqdan mən razı qaldım,
Fəxri Fərman aldım, mükafat aldım,
Vətənpərvər bir eşq ilə ucaldım,
Ana, bütün arzularım çin oldu.



Kapitan rütbəsi verdilər mənə,
Bunu sevinc ilə yazıram sənə,
Oğlun xidmət edir ANA VƏTƏNƏ,
Ana, bütün arzularım çin oldu.

Otuz ildir vətən qalıb əllərdə,
Qaçqını-köçkünü qalıb ellərdə,
Biz dastanıq indi, bütün dillərdə,
Ana, bütün arzularım çin oldu.

Ordumuz ən güclü orduya taydır,
Vətənimin qayğısını çəkəndir,
Qələbəyə mən deyərdim az qaldı,
Ana, bütün arzularım çin oldu.

Ordunun əsədəri tərəqqidədir,
Azər oğlu, Cavanşirlər nəslidir,
Öz vaxtında düşmənləri əzəndir,
Ana, bütün arzularım çin oldu.

Ordumuzda son hazırlıq gedirdi,
Nə lazımsa, zaman diktə edirdi,
Dostu ilə düşmənin yaxşı seçirdi,
Ana, bütün arzularm çin oldu.

Kəşfiyyat xəbəri bizə də, çatdı,
Dedilər, düşməni əzmək vaxtıdır,
Ordum düşmənləri qandıracaqdır,
Ana, bütün arzularım çin oldu.




Ali Baş Komandan sərəncam verdi,
Müdafiə xəttinə hazır ol, - dedi.
Mənim hər bir sözüm imzamdır – dedi,
Ana, bütün arzularım çin oldu.

Ermənilər bu gün keçib hücuma,
Xəbər tez yayılıb Azərbaycana,
Hər bir oğul sarılıbdı silaha,
Ana, bütün arzuların çin oldu.

Ölsək də, bir addım qoymarıq geri,
Burda olmayıb, hayların yeri,
İgidlərim qomarladı səngəri,
Ana, bütün arzularım çin oldu.

Döyüş artıq Füzulidə gedirdi,
Bizi görən ermənilər qaçırdı,
Bu dəfə sarsaqlar deyən olmadı,
Ana, bütün arzularım çin oldu.

Ohanyan səddini qırıb, adladıq,
Yerdən – göydən səngərləri odladıq ,
Ohanyan  kitabını  bağladıq,
Ana, bütün arzularım çin oldu.

Zəng eləyib anam ilə danışdım,
Anamdan tez uşaqları soruşdum,
Ana gələcəm deyib ayrıldım,
Ana, bütün arzularım çin oldu.



Söz vermişəm gələcəyəm ay ana ,
Ana bir yanadı , vətən bir yana ,
Vətən eşqi ilham verir insana,
Ana, bütün arzularım çin oldu.

Anam dedi, oğul, səsiniz gəlsin,
Orda döyüşməyə dözümün gəlsin ,
Vətən azad olsun, şad xəbər gəlsin.
Ana, bütün arzularım çin oldu.

Növbəti hücuma hazırlaşırdıq,
Hücuma tutarlı mövqe seçirdik ,
Bu yerdə çox ağır hisslər keçirdik,
Ana, bütün arzuların çin oldu.

Qəfil minaya tuş gəldi Ceyhun,
İlk sözü bu oldu canımsan ana,
Ana bir yanadır, vətən bir yana,
Ana, bütün arzularım çin oldu.

Ana uşaqlara yaxşı baxarsan,
Oxudarsan , öz yoluna salarsan,
Atan döyüşdədir sözünü deyərsən,
Ana, bütün arzuların çin oldu.

Sön sözünü Vətən , Vətən söylədi,
Canı ürək ağrısına dözmədi,
Son sözünü deməyə nəfəs gəlmədi,
Ana, bütün arzuların çin oldu.

Gözlərində hələ sevgi yanırdı,
Vətən məhəbbəti orda vardı,
Oğul vətəninə belə bağlıdır.
Ana, bütün arzuların çin oldu.

Tabutun bəzədik yola salmağa,
Yarandıq vətənə sirdaş olmağa,
Belə oğul gedir cənnət almağa,
Ana, bütün arzuların çin oldu.

Bayrağıma bükün məni,  gedirəm,
Tovuzdakı Çeşməliyə gedirəm,
Bu yolu əzəldən özüm seçmişəm,
Ana, bütün arzularım çin oldu.

Anama deyin ki, əhdim çin oldu ,
Uca zirvədəyəm, halım xoş oldu,
Səddi yardım, işlərim yarımçıq qaldı,
Ana, bütün arzularım çin oldu.

Yazın baş daşıma – ana , ağlama
Cənnətdəyəm , sən mənə yas saxlama,
Başına heç zaman qara bağlama,
Ana, bütün arzularım çin oldu.

Uyuyan , məzarım nura boyansın,
Adımız hər zaman ucada olsun,
Vətən sevən oğullara eşq olsun,
Ana, bütün arzularım çin oldu.

Şəhidlərin şərəfinə yaşayırıq,
Şəhidlərin qüdrətindən güc alırıq,
Anaları biz qəhrəman bilirik,
Ana, bütün arzuların çin oldu.

**İsmayıl Zəngilanlı**
***20/ 10 / 2022 – ci il***





## CEYHUN

Gün kimi yanmadın qaldın yarımçıq,
Bir ömür arzu idi kapitan Ceyhun.
Yaşamaq yanmaqdır. Bilirdi fəqət,
Yandı yaşamaq üçün kapitan Ceyhun.

Bu yol haqq yolu idi, gedirdi dinməz,
Bilirdi bu yolda yanan can sönməz.
Bir ömür pay verdi geri götürməz,
Haqqın dərgahına kapitan Ceyhun.

Bir əlində ömür, bir əlində ölüm,
Tutmuşdu qismətin Tanrıya doğru.
Məst olub ölümün mərhəmətindən,
Əbədi qəlblərdə qaldı Ceyhunum.

**Vaqif Zamansız.**

## Ceyhuna həsr olunmuş mahnı

Gedirəm bu axşam gedirəm, ana
Bilirəm gül üzün solacaq mənsiz,
Gedirəm gəlməsəm qalacaq sevgim,
Bəlkə də gözlərin dolacaq mənsiz.

Nəqarət

Yaşadır sevdalı bir xəyal məni,
Gedirəm gəlməsəm, yada sal məni.
Yaşadır sevdalı bir xəyal məni,
Gedirəm gəlməsəm, yada sal məni.

Bürüyüb yolları indi çən, duman,
Torpaq dilə gəlir aman, ay aman.
Vətən gözü yaşlı qalsa o zaman,
Ay Allah, anamda qalacaq mənsiz.

**Nicat Adıgözəlov**







## ŞƏHİDLƏR ÖLMƏZ Kİ...

Elə ölümə də əyməz özünü,
Cismini tapşırıb ana torpağa.
Şəhidlər təzədən açar gözünü,
Şəhidlər təzədən qalxar ayağa.

Yenə alov saçar od baxışları,
Təpəri yerində, gücü yerində.
Yenə səngər-səngər zəfərə sarı,
Vətəni aparar çiyinlərində.

Yağan yağışlara, əsən küləyə,
Axan ulduzlara bənzər şəhidlər.
Dönər ildırıma, dönər şimşəyə,
Düşməni doğrayar, kəsər şəhidlər.

Gecələr qızarar Dan yeri kimi,
Gündüzlər nur damar şəfəqlərindən.
Beləcə bir Vətən əsgəri kimi,
Boylanar tarixin üfüqlərindən.

**Arif Fərzəli**
***22.06.2021.***







## ŞƏHİD MƏKTUBU

Yuxusuz-yuxusuz gecələrimi,
Səngər dodağınla içmişəm, Vətən.
Alın yazısını öz əllərimlə,
Ömrümə-günümə biçmişəm, Vətən.

Sarıdım yaramdan axan qanımla,
Torpaq yarasını, daş yarasını.
Götür bu sevgimlə sarı, sən Allah,
Körpə yanaqlarda yaş yarasını.

Gümüşü nəğmədi ağca suların,
Bir ömür səs olub ona qarışım.
Sənin daşların da çiçəkmiş, demə,
Kəpənək-kəpənək qonur baxışım.





Bu can qurbanındır, canımın canı,
Təzədən doğulmaq istəyir ürək.
Şah İsmayıl duran sərhədlərində,
Ömür kirpik-kirpik asılsın gərək!

Bu gün səngərlərin sinəsi üstə,
Üçrəngli bayrağın eşqi ələnir.
Oğul qoxusuna, şəhid ətrinə,
Yaralı torpağın ömrü bələnir.

Hopub Qarabağa Vətən həniri,
Üzü gülümsəyir torpağın, daşın.
Silaha sarılan yurd oğulları,
Tozunu alıbdır ulu yaddaşın.

Qarabağ ətirli arzum çin olub,
Vətən əsgərinin qolları üstə.
Eşqim ümid-ümid çiçəkləyibdi,
Qələbə gününün yolları üstə!

Ömrünə ağ atlı bir gün yol gəlir,
Çiçəyi çırtlamış o günə bir bax.
Hər əsgər ürəyi güzgüdür, Vətən,
Səngərdən asılmış güzgünə bir bax!

**Balayar Sadiq.**





## ŞƏHİD KAPİTAN CEYHUN HƏSƏNOVUN XATİRƏSİ ƏBƏDİLƏŞDİRİLİB
**(İxtisarla)**



Azərbaycan Silahlı Qüvvələrinin kapitanı, Vətən Müharibəsi Qəhrəmanı şəhid Ceyhun Həsənovun xatirə lövhəsinin açılış mərasimi olub. Öncə şəhidin II Fəxri xiyabandakı qəbri ziyarət olunub. Xatirə lövhəsi şəhidin yaşadığı Xətai rayonunda yerləşən evlərinin həyətində qoyulub. Tədbir bütün şəhidlərimizin ruhunu bir dəqiqəlik sükutla anmaqla başlayıb. Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin orkestrinin ifasında dövlət himnimiz səsləndirilib.

Mərasim Xətai rayon İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanovun moderatorluğu ilə baş tutub. Şəhidin həyat və döyüş yolu haqqında məlumat verən Pənah müəllim bildirib ki, "Ceyhun Aydın oğlu Həsənov 1985-ci il oktyabrın 29-da Tovuz rayonunun Çeşməli kəndində dünyaya göz açsa da, Xətai rayonunda böyüyüb. Cəmşid Naxçıvanski adına Hərbi Liseydə və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb.

Qəhrəman zabitimiz öz şəxsi heyəti, 7 BMP, 4 tank, bir neçə başqa texnika ilə döyüşlərə qatılıb. Ceyhun Vətən Müharibəsində Xətai rayonunun ilk şəhididir. Belə tədbirləri keçirməkdə məqsədimiz şəhidimizin xatirəsini əbədiləşdirmək, gənc nəslə örnək olmaq və ailəsinə təsəlli verməkdir. Təsadüfi deyil ki, Hərbi Qənimətlər




Parkı da Xətai rayonu ərazisindədir".

Sonra Ceyhun Həsənovun məzun olduğu Xətai rayon Ədalət Abbasov adına 257 nömrəli tam orta məktəbin şagirdlərinin iştirakı ilə vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib və şəhidin ibtidai sinif müəllimi Nəzakət müəllim şagirdi haqqında xatirələrini bölüşüb.

Şəhidin atası Aydın Həsənov çıxışında şəhid ailələrinə diqqət və qayğısına görə Ali Baş Komandan İlham Əliyevə təşəkkürlərini ifadə edib. Həmçinin xatirə lövhəsinin açılışına dəstək olduğu üçün Xətai rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyevə və əziyyəti keçən hər kəsə minnətdarlığını bildirib.

Ardınca Vətən Müharibəsi Qəhrəmanı, "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuş, qazi, polkovnik Nizami Mövlanov çıxışında təhsil aldıqları liseyin 17 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüş məzunu olduğunu bildirib. Həmin məzunlardan birinin də xüsusi qəhrəmanlıqlar göstərmiş Ceyhun Həsənov olduğunu diqqətə çatdırıb. Şəhidliyindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Ceyhun Həsənovun "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmasını şəhidimizə verilən yüksək qiymət kimi dəyərləndirib.

Xətai rayon İcra Hakimiyyətinin şöbə müdiri, qazi Anar Məmmə-




dov şəhidin Naxçıvan və Beyləqanda hərbi xidmət keçdiyini, Vətən müharibəsinin ilk günündə - 27 sentyabr 2020-ci ildə Füzuli rayonu uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəldiyini xatırladıb.

Şəhidin anası Səmayə xanım çıxışına "mən fəxr edirəm belə oğul böyütmüşüəm" – sözləri ilə başlayıb və əlavə edib ki, Ceyhun həmişə öncə Vətən, sonra Ana deyərdi. Səmayə xanım Ali Baş Komandana müraciət edərək bildirib ki, "Sizin Sərəncamlarınızla Ceyhun ən yüksək fəxri adla və beş medalla təltif olunub. O, bu haqqı qazanmaq üçün cəmi bir neçə saat döyüşüb, öz qanı bahasına ön xətti yarıb və qəhrəman olub. Müharibəyə qədər iki il Naxçıvanda qüsursuz xidmət edib.

Döyüşlərdə sizin başladığınız "Dəmir yumruq" əməliyyatının dəmir biləkli fədakarlarından olub. 83 nəfər Vətən Müharibəsi Qəh-

rəmanı və onların silahdaşlarının cəsarəti sayəsində Qarabağ azad olundu. Mən istəyirəm ki, Qarabağın yolunu açan, mənim yeganə oğlumun evi ziyarətgaha çevrilsin, xatirəsi daim uca tutulsun".

Bacısı Xatirə xanım çıxışında qeyd edib ki, "10 ay öncə torpağa tapşırdığımız qardaşım, cəmi bir neçə saatın içində Vətən Müharibəsi Qəhrəmanı adını qazanıb. Füzuli döyüşlərinin necə ağır olduğu hamıya məlumdur. Ceyhun məhz belə ağır döyüşün qəhrəmanıdır. O, cəmi bir günlük döyüşü ilə bir neçə düşmən postunu darmadağın edib. Qardaşımın əsl döyüşçü, əsgərlərinin sevimli komandiri olan bir zabit olduğunu nəzərə alaraq onun muzeyinin yaradılmasını xahiş edirik.

Həmçinin adına məktəb və küçə olmasını istəyirik. Orta məktəb dərsliklərində Ceyhunun da döyüş yolunun şagirdlərə mənimsədilməsini arzulayırıq".

***"525 -ci qəzet", 29.07.21***



**P.S:** Məktəbin direktoru Aynurə Bağırova, tərbiyyə işləri üzrə direktor müavini Solmaz Çobanova və Zəkiyyə Müstafayevanın təşkilatçılığı ilə Ceyhun Həsənovun adı verilmiş məktəbdə qəhrəmanın anadan olmasının 37-ci il dönümü qeyd edilmişdir.






ORDUSU
GÜCLÜ OLAN DÖVLƏT
HƏR ŞEYƏ QADIRDIR

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ XƏTAİ RAYONUNUN İLK ŞƏHİDİ CEYHUN HƏSƏNOVUN XATİRƏSİ ANILIB



Sentyabrın 29-da İkinci Qarabağ müharibəsində iştirak edib şəhidlik zirvəsinə ucalan, Bakının Xətai rayonundan olan Azərbaycan Silahlı Qüvvələrinin kapitanı, Vətən Müharibəsi Qəhrəmanı Ceyhun Həsənovun şəhid olmasının ildönümü ilə bağlı anım mərasimi keçirilib.

Anım mərasimində iştirak edən Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev, Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, şəhidlərin ailə üzvləri, qazilər, Vətən müharibəsinin iştirakçıları və digər ictimaiyyət nümayəndələri əvvəlcə İkinci Fəxri xiyabana gələrək igid zabitin



məzarı üzərinə əklillər qoyaraq xatirəsini ehtiramla anıb, ruhuna dualar oxuyublar.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra ümummilli lider Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyünün bərpa olunması, tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə şəhid olan Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev çıxış edərək bildirib ki, şəhid kapitan Ceyhun Həsənov və onunla birgə şəhid olmuş digər qardaşlarımız Vətən müharibəsinin başlanğıcında qələbəmizin təməlini qoydu: “Onların qəhrəmanlıqları, şərəfli döyüş yolu haqqında saatlarla, günlərlə danışmaq olar. Şəhidlərimizin xatirəsi kiçikdən böyüyə hər bir Azərbaycan vətəndaşının ürəyində əbədi yaşayacaqdır. Vətən müharibəsində öz canları, qanları bahasına qələbəni bizə yaşadan şəhidlərimizin adını müxtəlif formatlarda anır, xatirələrini əbədiləşdirmək üçün tədbirlər keçiririk. Əsas məqsədimiz odur ki, şəhidlərimizin Vətən

müharibəsindəki şücaətini, keçdikləri şərəfli döyüş yolunu gələcək nəsillərin yaddaşına həkk edək. Vətən uğrunda canını fəda edən qəhrəmanlarımızın əziz xatirəsi əbədiyyətədək xalqımızın yaddaşında yaşayacaq, onların adları dövlətimiz tərəfindən daim uca tutulacaq və ehtiramla yad ediləcək. Allah şəhidlərimizə rəhmət eləsin."

YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə mərasimdə çıxış edərək bildirib ki, Ceyhun qardaşımızın timsalında bütün şəhidlərimiz Azərbaycanın qəhrəmanlıq salnaməsini yazan, bizim qəlbimizdə əbədi yaşayan igid Vətən övladlarıdır. Şəhid kapitan Ceyhun Həsənovun ruhu və onun valideynlərinin qarşısında baş əyirəm. Şəhidlərimizin valideynləri qürur hissi keçirə bilərlər ki, Vətənini, xalqını sevən belə cəsur övladlar böyüdüblər.

V.Rəhimzadə bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu Vətən müharibəsində dövlətimizin ərazi bütövlüyünü bərpa etdi. Ən ağrılı problemimiz olan Qarabağ məsələsi də bir il öncə, sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində şəhidlərimizin canı və qanı bahasına öz ədalətli həllini tapdı, Azərbaycanın əzəli və tarixi torpaqları özünə qayıtdı: " Şəhidlərimizin şücaəti, Vətənə bağlılığı hər bir Azərbaycan vətəndaşı, xüsusilə də gənc nəslin nümayəndələri üçün nümunədir. Onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Allah şəhidlərimizə rəhmət eləsin."

Əməkdar artist, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, aktyor və bədii qiraətçi Azad Şükürov vurğulayıb ki, şəhidlərimizin məzarı başında qürurla dalğalanan üçrəngli bayrağımızı Vətən müharibəsi dövründə qəhrəman övladlarımız sinələrinə basıb, Azərbaycan, Vətən, xalq deyərək ön sıralarda xüsusi şücaət göstərərək vuruşublar: "Bir övlad, bir qardaş, bir ata ki, Vətənin üzünü ağ edib, həmin el oğullarının şəhid olmaqlarına kədərlənmək yox, sevinmək və qürur hissi keçirmək lazımdır. Əziz şəhid valideynləri, sizin övladlarınız ərazi bütövlü-



yümüzü, milli qürurumuzu, Vətənimizi qorumaq uğrunda şəhid olublar. Azərbaycan xalqına şərəf duyğusunu yenidən bəxş edən belə igid övladı böyütməkdən, onun valideyni olmaqdan qürurlu heç nə ola bilməz."

Daha sonra anım tədbiri Xətai rayonunda şəhid kapitan Ceyhun Həsənovun yaşadığı binada qoyulan xatirə lövhəsinin önündə davam etdirilib.

Mərasimdə Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev, Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, Beynəlxalq dərəcəli hakim, idman ustası Hicran Şərifov və şəhidin ailə üzvləri, yaxınları, döyüş yoldaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayan mərasimdə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev xalqımızın ötən il 44 gün ərzində ancaq qələbə sevinci yaşadığını, şəhidlərimizin qanı, qazilərimizin sağlamlıqları hesabına torpaqlarımızın

azad olunduğunu bildirib. O, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə ordu quruculuğu istiqamətində həyata keçirilən uğurlu islahatları, peşəkar zabitlərin yetişdirilməsini, hərbçilərin döyüş təcrübəsinin artırılmasını Qələbəni şərtləndirən başlıca amillər kimi səciyyələndirib.

R.Quluyev zabit və əsgərlərimizin döyüş meydanlarında böyük hünər və rəşadət göstərərək, adlarını xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazdırdıqlarını vurğulayıb:"Ərazi bütövlüyümüzün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik edən, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərərək şəhidlik zirvəsinə ucalan igid oğullarımızın doğum və anım günləri silsilə vətənpərvərlik tədbirləri ilə qeyd edilir, onların məzarları ziyarət olunur, ailələrinə baş çəkilir, xatirələri ehtiramla anılır. Şəhid ailələrinin, müharibə iştirakçılarının mənzil-məişət şəraitinin yaxşılaşdırılması, şəhidlərimizin adının əbədiləşdirilməsi ilə bağlı mühüm məsələlər dövlət siyasətimizin əsasını təşkil edir."

YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə bildirib ki, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti, Azərbaycan Ordusunun rəşadəti sayəsində 44 günlük İkinci Qarabağ müharibəsində qazandığımız tarixi Zəfərimiz bütün dünyaya səs salıb: "Şəhidlərimiz Azərbaycanın şanlı qəhrəmanlıq tarixini yazıblar. Qəhrəman Vətən oğullarımız sayəsində Azərbaycan ərazi bütövlüyünü bərpa edib, qarşıya qoyduğu ən böyük hədəfə nail olub. Şanlı Qələbəmizə öz töhfəsini verən bütün şəhidlərimizin, xalqımızın qəhrəman övladlarının, o cümlədən şəhid kapitan Ceyhun Həsənovun xatirəsini daim ehtiramla yad edir və əziz tuturuq. Şəhidlərimizlə, qazilərimizlə, gənc övladını Vətən yolunda qurban verən məğrur şəhid valideynləri ilə qürur duyuruq."

Beynəlxalq dərəcəli hakim, idman ustası Hicran Şərifov bildirib ki, qələbə ilə başa çatan İkinci Qarabağ müharibəsinin başlamasından artıq bir il ötür: "Şəhid kapitan Ceyhun Həsənov kimi



igid oğullarımız müharibənin ilk günündən sinəsini qabağa verib döyüş meydanına atılmasaydı, düşmənin gözünə dik baxmasaydı, müharibəmiz Qələbə ilə başa çatardımı? Belə Vətən oğullarının göstərdikləri şücaət digər əsgərlərimizi də Zəfərə ruhlandırıb. Şəhidin ailə üzvlərinin, yaxınlarının qarşısında baş əyirik. Allah bütün şəhidlərimizə rəhmət eləsin."

Daha sonra tədbirdə şəhidin ailə üzvləri çıxış edərək Ceyhun Həsənovla bağlı xatirələrini bölüşüb, onun şərəfli həyat və döyüş yollarından söz açıblar. Çıxış edənlər şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıya görə dövlət başçısı İlham Əliyevə və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Şəhidin atası Aydın Həsənov qeyd edib ki, Ceyhun və onun əsgərləri müharibə başlayanda 7 BMP, 4 tank, bir neçə başqa texnika ilə döyüşlərə qatılıblar. Ermənin 3 postunu, hər postda da 10-11 nəfər düşmən əsgərini məhv edib. Geri qayıdarkən minaya düşərək şəhid olub. Mənim öz atam da 1941-45 illərin Böyük Vətən müharibəsində iştirak edib, bacımın oğlu, xalamın nəvəsi Vətən müharibəsində şəhid olublar. Bizim qanımızda Vətənə bağlılıq, xalqa sevgi var və bu da nəsildən-nəsilə keçir.

A.Həsənov Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevə öz minnətdarlığını bildirib: "Ona görə ki, heç bir şəhidimizin qanını yerdə qoymadı, qisas alındı, tarixi ədalət bərpa olundu, şanlı Qələbə qazandıq. Şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin təşəkkürlərimi bildirirəm. Həmçinin Xətai rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyevə və əziyyəti keçən hər kəsə şəhidlərimizin adının, xatirəsinin əbədiləşdirilməsi istiqamətində gördükləri işə görə minnətdaram."

Şəhidin anası Səmayə Həsənova bildirib ki, Ceyhun evimin tək oğlu idi: "Fəxr edirəm ki, bu cür oğul böyütmüşəm. Bu gün

də qürurla onun qarşısında dayanmışam. O, çox mərd, qürurlu və vətənpərvər oğul olub. Onun haqqında nə qədər danışsam yenə də bitməz. Deyirdi ki, mən bu Vətənin övladıyam. Vətənim uğrunda da öz vətəndaşlıq borcumu yerinə yetirməliyəm. Onun itkisi mənim üçün ağırdır. Amma yenə də fəxr edirəm ki, mənim Ceyhun kimi oğlum var. Ceyhun tabeliyində olan 80 nəfər heyətlə döyüşə girib, ilk səddi yarıb, Qarabağa ilk yol açıblar. Allah bütün şəhidlərimizə rəhmət eləsin.”

Şəhid Ceyhun Həsənovun bacısı Xatirə xanım çıxışında qeyd edib ki, “1 il öncə torpağa tapşırdığımız qardaşım cəmi bir neçə saatın içində Vətən Müharibəsi Qəhrəmanı adını qazanıb. Füzuli döyüşlərinin necə ağır olduğu hamıya məlumdur. Ceyhun məhz belə ağır döyüşün qəhrəmanıdır. O, cəmi bir günlük döyüşü ilə bir neçə düşmən postunu darmadağın edib. Qardaşım əsl döyüşçü, əsgərlərinin sevimli komandiri olan bir zabit idi. Doğma Vətəni bütün varlığı ilə sevən kapitan Ceyhun Həsənov düşmən əlində əsir qalan, nalə çəkən Qarabağı azad etmək arzusu ilə yaşayırdı.”

Mərasimin sonunda məktəblilərin ifasında Vətənə, ordumuza, şəhidlərimizə həsr olunan şeirlər səsləndirilib, ədəbi-bədii kompozisiya nümayiş olunub.

Qeyd edək ki, Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Ceyhun Həsənov ölümündən sonra “Vətən Müharibəsi Qəhrəmanı” (09.12.2020) adı, “Vətən uğrunda” (15.12.2020), “Füzulinin azad olunmasına görə” (25.12.2020) və “Qubadlının azad olunmasına görə” (29.12.2020) medalları ilə təltif olunub.

**Yaqut Ağaşahqızı,**
**Vüsal Cahanov (foto),**
**“İki sahil”**
**29 sentyabr 2021**





## Şəhid kapitan Ceyhun Həsənovun xatirəsi anılıb

Xətai rayonunda şəhid kapitan Həsənov Ceyhun Aydın oğlunun xatirəsi anılıb.

Ordu.az xəbər verir ki, anım günündə II Fəxri Xiyabanda şəhidin məzarı ziyarət olunub.

Şəhidin yaşadığı evin qarşısında xatirə lövhəsinin önündə keçirilən tədbirdə Xətai Rayon İcra Hakimiyyətinin nümayəndələri, şəhidin ailə üzvləri və döyüş yoldaşları iştirak ediblər.

Tədbirdə şəhidin xatirəsi anılıb, keçdiyi döyüş yolundan danışılıb, aparılan siyasətin şəhidlərimizə, Vətən müharibəsi qəhrəmanlarına, qazi və şəhid ailələrinə sonsuz ehtiramın nümunəsi olduğunu bildirilib.

Şəhidin ailə üzvləri doğum günündə onun xatirəsinə göstərilən hörmət və ehtirama görə təşəkkür edib.

***Ordu.az.***
***29 iyul 2021-ci il.***





## Xətai rayonunda Vətən Müharibəsi Qəhrəmanı, şəhid kapitan Ceyhun Həsənovun anım mərasimi keçirilib

Xətai rayonunda Vətən Müharibəsi Qəhrəmanı, şəhid kapitan Ceyhun Həsənovun yaşadığı ünvanda xatirə lövhəsinin qarşısında anım mərasimi keçirilib. Anım günündə II Fəxri Xiyabanda şəhidin məzarı ziyarət edilib.

Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev, YAP Xətai rayon Təşkilatının sədri Vüqar Rəhimzadə, ictimaiyyət nümayəndələri, şəhidin ailə üzvləri və döyüş yoldaşları iştirak ediblər. Tədbirdə şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib, dövlət himni səslənib.

Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev şəhidin Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında göstərdiyi şücaətdən söz açıb, onun döyüş yolunun gələcək nəsillər üçün nümunə olacağını, Vətən uğrunda canını fəda edən qəhrəmanların əbədiyyətədək xalqımızın yaddaşında yaşayacağını, onların xatirəsinin dövlətimiz tərəfindən daim uca tutulacağını bildirib.

Digər çıxış edənlər müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində iştirak edən hər bir əsgər və zabitinin Böyük Zəfərimizin əldə olunmasında misilsiz xidmətlər göstərdiklərini, onların qəhrəmanlıqlarının heç zaman unudulmayacağını vurğulayıblar.

Daha sonra məktəblilərin ifasında ədəbi-bədii kompozisiya nümayiş olunub.

Şəhidin ailə üzvləri doğum günündə onun xatirəsinə göstərilən hörmət və ehtirama görə təşəkkür ediblər.

***"Yeni Musavat", Onlayn ictimai-siyasi qəzet, 29.09.21.***





## VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANI CEYHUN HƏSƏNOVUN DOĞUM GÜNÜ QEYD OLUNUB

Ceyhun Həsənov 29 oktyabr 1985-ci ildə Tovuz rayonunun Çeşməli kəndində anadan olub. 1992-2001-ci illərdə Bakı şəhəri Xətai rayonu Ə.Abbasov adına 257 nömrəli tam orta məktəbin, 2001-2003-cü illərdə Cəmşid Naxçıvanski adına hərbi liseyin, 2004-2008-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin (AAHM) məzunu olub.

7BMP, 4 tank, bir neçə texnika ilə Füzuli istiqamətində 1-ci bölüyün komandiri, 310 nömrəli BMP, 80 nəfər şəxsi heyyət ilə düşmənin əlverişli ərazilərdə yerləşməsinə, inadlı müqavimətinə baxmayaraq ilk hücum edən, səddi yaran, işğal altında olan torpaqları azad edən və düşməni tam məğlubiyyətə uğradan, qarşıya qoyulmuş döyüş torpaqlarını və Azərbaycan Respublikasının dövlət sərhəddinin bərpa edilməsi üzrə əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, döyüş əməliyyatlarında göstərdiyi şəxsi qəhrəmanlığı hesabı-

na ucalan şəhid kapitan Ceyhun Həsənovun bu gün doğum günüdür. Ceyhun Həsənov ölümündən sonra Vətən Müharibəsi adı və medalı, Vətən uğrunda medalı, Füzulinin azadlığı uğrunda medalı, Qubadlının azadlığı uğrunda medalı, Şuşanın azadlığı uğrunda medalı ilə təltif olunub.

Bu gün səhər saatlarından məktəbin 6 ç sinif şagirdləri və məktəbin dil-ədəbiyyat müəllimləri A.Rəşidova, B.Hüseynova şəhidin ailə üzvləri ilə birgə Ceyhun Həsənovun dəfn olunduğu 2-ci Fəxri Xiyabanı ziyarət ediblər.

Tədbirin aparıcısı Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbani məktəbin qonağı olub, şagirdlərlə görüşüb, xatirələrini bölüşüb. Müəllifi olduğu "Vətən Müharibəsi Şəhidləri" kitabını məktəbə hədiyyə edib.

Tədbirdə Xətai rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quliyev, Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, məktəbin direktoru Qarat Qaratov, döyüş yoldaşları, qazilər, kursantlar, ailə üzvləri, müəllim və şagird kollektivi və digər ictimaiyyət nümayəndələri iştirak edirdilər. Tədbirdə çıxış edənlər şəhidin ailəsinə bir daha başsağlığı verərək Azərbaycan Ordusunun qüdrətindən, şəhidimizin döyüşdə göstərdiyi şücaət və qəhrəmanlıqdan söz açdılar. Vətən üçün belə gərəkli övlad böyütdükləri üçün bir daha şəhidin valideynlərinə təşəkkür etdilər. Diqqətə çatdırdı ki, torpaqlarımızın azadlığı uğrunda canlarından keçən Vətən övladlarımızın xatirəsi daim əziz tutulacaq, onların işıqlı əməlləri qəlblərdə əbədi yaşayacaqdır.

Şəhidin ailə üzvləri çıxış edərək xatirələrini bölüşdülər. Vətən uğrunda canından keçən oğullara və onların ailə üzvlərinə göstərilən diqqət və qayğıya görə rayon ictimaiyyətinə minnətdarlıqlarını bildirdilər.

Tədbirdə şəhidin xatirəsinə şeirlər söyləndi, mahnılar oxundu. Sonda şəhidin xatirə lövhəsi önündə şəkillər çəkildi.

***Şəhid Ədalət Abbasovun adını daşıyan 257 nömrəli tam orta məktəb, bakimektebleri.edu.az***



## Tarix Muzeyinə Vətən müharibəsinin şəhidi Ceyhun Həsənovun şəxsi əşyaları təhvil verilib



Azərbaycan Silahlı Qüvvələrinin kapitanı, Vətən müharibəsinin şəhidi Ceyhun Həsənovun şəxsi əşyaları ailəsi tərəfindən AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinə təhvil verilib, eyni zamanda Zəfər müzeyi və istiqlal müzeyinə də təhvil verilib.

Həsənov Ceyhun Aydın oğlu 29.10.1985-ci ildə Tovuz rayonunun Çeşməli kəndində anadan olub. 1992-ci ildə Bakı şəhəri Xətai rayonu Ədalət Abbasov adına 257 saylı orta məktəbdə təhsil alıb. Orta məktəbdə təhsil aldığı müddətdə basketbol yarışlarında, fənn olimpiyadalarında fəal iştirak edib və naliyyətləri olub.




2001-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olub. 2002-ci ildə həmin liseydə 26 iyun Silahlı Qüvvələr gününə həsr olunmuş “Azərbaycan Əsgəri” bədii qiraət müsabiqəsində uğurlu çıxışına görə diplomla təltif olunub.

C.Həsənov 2004-2008-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. Həmin məktəbi motoatıcı ixtisası üzrə bitirdikdən sonra Ceyhun Həsənova leytenant rütbəsi verilib.

Daha sonra təhsilini davam etdirmək üçün C.Həsənov Təlim Tədris Mərkəzinə zabit ixtisası kursuna göndərilib. 2009-cu ildə zabit ixtisas kursunu bitirib, 2 iyun 2010-cu ildə Müdafiə Nazirinin əmrinə əsasən Naxçıvan Muxtar Respublikası N saylı hərbi hissəyə taqım komandiri vəzifəsinə göndərilib. 27 iyun 2011-ci ildə Ceyhun Həsənova baş leytenant hərbi rütbəsi verilib. Əlahiddə Ümumqoşun Ordu komandanının əmrinə əsasən 4 noyabr 2011-ci ildə N saylı hərbi hissədə bölük komandiri, 17 yanvar 2013-cü ildə taqım komandiri vəzifəsinə təyin olunub. 15 sentyabr 2015-ci ildə C.Həsənova kapitan hərbi rütbəsi verilib.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində göstərdi-







yi xüsusi xidmətlərinə görə Prezident İlham Əliyevin Sərəncamına əsasən kapitan Ceyhun Həsənov “Vətən Müharibəsi Qəhrəmanı” adı, “Vətən uğrunda” medalı, “Füzulinin azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

Ceyhun Həsənovun ölümündən sonra 01.11.2021-ci il tarixində Bakı şəhər İcra Hakimiyyətinin sərəncamına əsasən Sadıqcan küçəsinə, həmçinin Azərbaycan Prezidentinin Vətən Müharibəsi qəhrəmanlarının adlarının əbədiləşdirilməsi barədə müvafiq sərəncamına əsasən 04.11.2021-ci il tarixdə Bakı şəhəri Xətai rayonu 48 nömrəli məktəbə kapitan Ceyhun Həsənovun adı verilib.

Qeyd edək ki, şəhid Ceyhun Həsənovun şəxsi əşyaları muzeyin Vətən müharibəsi fonduna təhvil verilib. ***(www.science.gov.az)***

## MÜƏLLİFDƏN:

## XXI ƏSRİN ZABİTİ

### (Vətən Müharibəsi Qəhrəmanı kapitan Ceyhun Həsənovun ömür kitabını vərəqləyərkən)

...Bakının ən köhnə parklarından biri Zabitlər parkı adlanır. Bu park XX əsrdə - yəni sovetlər dönəmində alman faşizminə qarşı döyüşlərdə həlak olan qəhrəman azərbaycanlı zabitlərin xatirəsinə salınıb...

Azərbaycan yenidən müstəqilliyini bərpa etdikdən sonra erməni faşizminə qarşı Qarabağ uğrunda döyüşlərdə həlak olan milli zabitlərimizin məzarlarına bu gün respublikamızın hər bölgəsində rast gəlmək olar. Şəhidlər və Fəxri xiyabanlarda, Qəhrəmanlıq parkları və el qəbiristanlıqlarında əbədi məskən salıb abidələşən şəhidlərin hər biri and yeri kimi müqəddəslik qazanıblar. Şəhid - yüksək amal, məslək, əqidə, yurd, vətən uğrunda ölən, canını fəda edən şəxsə deyilir. Hər bir şəhid - Tanrının əbədi zirvəyə yüksəltdiyi məkanda - "behişti-əla"da yer tutan sakinidir. Qədim Oğuz elinin belə bir deyimi var: "Cənnətin qapısını comərdlər açar."

Ədəbiyyat və incəsənət sahəsində öz dəsti xətti ilə sayılıb-seçilən sənətkarlar olduğu kimi, hərb tariximizdə də özünəməxsus dəst-xətti, imzası ilə tanınan hər bir peşəkar zabitin xüsusi və müstəsna yeri vardır. Azərbaycanın zabit heyəti Vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə həmişə ön cəbhədə olublar; Birinci Qarabağ müharibəsində, Aprel döyüşlərində, Günnüt əməliyyatında, Tovuz döyüşlərində və 44 günlük Vətən Müharibəsində böyük hünər, igidlik və rəşadət göstərərək canlarından keçiblər...





Hərbi mütəxəssislərin və siyasi ekspertlərin fikrincə, Tovuz döyüşlərinin qəhrəmanı, Azərbaycan hərb tarixinin nümunəsi olan general Polad Həşimov əsgərlərə sovet ordusundan qalma yanaşmanı darmadağın edən əsl türk sərkərdəsiydi...

Bəli, Polad Həşimov XXI əsrin generalı idi. Generalın qəhrəmancasına şəhadətə ucalması Vətən müharibəsində QƏLƏBƏMİZƏ vəsilə oldu. Azərbaycan xalqı və əsgəri gördü ki, milli ordumuzda bu cür ləyaqətli, peşəkar, böyük əqidə sahibi olan vətənpərvər zabitlər var... Müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin bu barədə televiziya kanallarına verdiyi açıqlamada dediyi kimi, belə yüksək rütbəli zabitlərin döyüşdə, səngərdə tabeliyində olan əsgərlə birlikdə şəhidlik zirvəsinə ucalması onu sübut etdi ki, Azərbaycan zabiti heç vaxt arxada oturmağı ağlına gətirmir. Bizim komandirlər canının hayına qalmır, əksinə canını Vətən naminə, ölkəsinin ərazi bütövlüyü yolunda qurban verməyə hər an hazırdır və qadirdir...

Deyirlər, örnək varsa, öyrənmək də var. Vətən Müharibəsinin Qəhrəmanı Ceyhun Həsənov da XXI əsrin həm öyrənən, həm də





öyrədən zabiti idi. “Bir türk bir orduya bərabərdir - deyimi günümüzə qədər təsdiqini tapmaqdadır. Vətən Müharibəsi Qəhrəmanı Ceyhun Həsənov da həmin türklərdəndir...” Beynəlxalq Mahmud Kaşğari Mükafatı laureatı Gülnar Səma şəhid kapitana həsr etdiyi silsilə yazılarının birinə əbəs yerə bu fikirlə başlamırdı.

Çağdaş türk dünyasının tanınmış şairi, Beynəlxalq "ALAŞ" ədəbi mükafatı laureatı, qələm dostum Əkbər Qoşalı isə Ceyhunun ulu şahımız, qılınc və söz sərkərdəsi Şah İsmayıl Xətainin adını daşıyan rayonda yaşadığını önə çəkərək, onun milli, soykökə bağlı, vətəncanlı, xeyirxah, gözəl qamətli – əsl Azərbaycan zabiti olduğunu bildirir...

Ceyhunun daxili aləminə əsl hərbiçi ruhu, zabit mənliyi hakim kəsilmişdi. Zabit şərəfini gələcəkdə hər şeydən uca tutmağı, bu peşənin çətinliklərinə qatlaşmaq hissi də yeniyetməlik çağlarından özü ilə bərabər böyümüşdü. Müasir dövrdə peşəkar zabit olmağın yolunun isə həm də yüksək təhsildən keçdiyini Ceyhun çox yaxşı bilirdi. Oxuduğu hərbi liseydə və daha sonra Ali Hərbi Məktəbdə ilk gündən qrup yoldaşlarının, müəllimlərinin sevimlisinə çevrilməsi də Ceyhunun məhz şərəfli zabit peşəsinə sevgisindən qaynaqlanırdı. Təbii ki, həyatda hər kəs öz seçdiyi peşəsi ilə Vətənə xidmət edir. Lakin heç kimi sirr deyil ki, Vətəni qorumaq peşəsi bütün peşələrin fövqündə dayanır. Poetik dillə desək, şərəfli zabit ömrünü Ceyhun Aydın oğluna Tanrı özü pay vermişdi. Çiynində parlayan və getdikcə sayı artan ulduzları isə sanki özü göydən bir-bir dərmişdi... Ömrü uzandıqca, hərbi səriştəsi artdıqca sözsüz ki, bu ulduzlar da böyüyəcəkdi, daha parlaq olacaqdı. Çünki Ceyhunun içində general olmaq arzusu da vardı. Uşaqlıq dostu İsa Əliyev Ceyhunla bağlı xatirəsində yazır ki, hərəkəti, danışığı, davranışları ilə aramızda ən “ağsaqqal” o, idi. “Ağsaqqal qardaşımızla məsləhətləşərdik. Gələcək üçün xəyallar qurardıq. Məsələn, mən Türkiyədə oxuyub gələcəkdim və yüksək karyera quracaqdım. O isə Vətənimizə xidmət edəcək və ən yüksək hərbi rütbəyə qədər ucalacaqdı...”



Bəlkə də general olmağı Ceyhun ilk dəfə Azərbaycan xalqının rəşadətli oğlu, igid sərkərdə, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun həyat və döyüş bioqrafiyasından bəhs edən “Sizi dünyalar qədər sevirdim” bədii filminə baxarkən arzulamışdı... “Uşaqlıqdan döyüşkən ruhlu bir oğlan idi Ceyhun! Böyüyəndə general olacam, deyərdi.” Bu fikirlər də qəhrəmanın bacısı Xatirə xanıma məxsusdur.

Ceyhun gənclik arzularını reallaşdırmaq üçün yola çıxanda, bəlkə də onu da ağlına gətirmişdi ki, hərbi qulluqçunun yolu ön cəbhə xəttindən, ölüm-itimlərdən, qanlı-qadalı savaşlardan keçib-gedir... Əmisi Balakişiyə deyirmiş ki, ordumuzda 21 - ci əsrin zabitləri yetişir, tez bir zamanda düşməndən qisasımızı alacağıq...

Tale Ceyhuna fitri istedad da bəxş eləmişdi. O, bədii qiraət qabiliyyətinə malik idi. Naxçıvanski adına Hərbi Liseyin Azərbaycan dili və ədəbiyyat müəllimi, filologiya üzrə fəlsəfə doktoru, dosent Əzizağa Nəcəfzadə xatirəsində yazır ki, hələ liseydə kursantlar arasında təşkil olunan hərbi-vətənpərvərlik mövzusunda inşa müsabiqəsində də, bədii qiraət müsabiqələrində də Ceyhun həmişə qaliblər sırasında olurdu... Güləş yarışlarında təmsil etdiyi liseyin komandasına dəfələrlə fəxri fərman, kubok və medal gətirmişdi. Əlamətdar günlərdə sıra toplantılarında, hərbi keçidlərdə liseyin bayrağını daşıyan üçlükdə Ceyhun daim yer alırdı, avtomatı sinəsinə basıb, üçrəngli bayrağa qürurla baxaraq mətn addımlarla irəliləyirdi...

## Zabit şərəfi

...Ali hərbi təhsilini müvəffəqiyyətlə başa vurandan sonra Ceyhun Həsənov zabit kimi xidmətinə davam etmək üçün Naxçıvanda yerləşən hərbi hissələrdən birinə göndərilmişdi. On il ərzində Culfa, Şahbuz, Ordubad, Şərur, Sədərək rayonlarında ön xətdə Əlahiddə Ümumqoşun Ordu komandasında hərbi qulluqçu kimi vəzifəsini şərəflə yerinə yetirərək kapitan rütbəsinə yüksəlmişdi...

Zabit şərəfini hər şeydən üstün tuturdu Ceyhun. Azərbaycan dilinin İzahlı lüğətində ŞƏRƏF sözünün leksik mənası belə təqdim olunur: İnsanın ictimai və şəxsi davranışında tutduğu mənəvi-əxlaqi prinsiplərin məcmusu; mənəvi yüksəklik, ululuq, heysiyyət... Qısaca desək, şərəf hər bir insanın daxili, mənəvi ləyaqətidir.

Təqribən 220 il bundan əvvəl bütün dövrlər üçün aktual olan Rusiya İmperator Ordusunda zabit üçün "Şərəf Kodeksi"ndə isə deyilirdi ki, müqəddəs vəzifəsi onu təmiz və qüsursuz saxlamaq olan zabit üçün şərəf əsas XƏZİNƏDİR. Zabit hər bir rütbəyə hörmət göstərməli, özünü cəmiyyətin bütün təbəqələri ilə bərabər ləyaqətlə aparmalıdır.

Zabit şərəfi anlayışı mücərrəd olmasına baxmayaraq, özünü bu peşəyə həsr etmiş hərbçilər tərəfindən qəbul edilib, tanınıb və riayət olunub. Zabit şərəfinin üstün tutulduğu ölkələr sırasında Almaniyanın da adı yer alır. İstər Birinci, istərsə də İkinci dünya müharibələrində alman zabitlərinin zabit şərəfi haqqında sonralar müxtəlif ölkə hərbçilərinin qələmə aldıqları xatirələinrdə, çəkilmiş filmlərdə də yer alıb. Faşist feldmarşalı Fridrix Paulsun müharibə müddətində, sovet əsiri olduğu dövrdə belə alman zabiti uniformasını daşımaq icazəsi olub...

Dünya hərb tarixində qardaş Türküyənin zabitləri tarix boyu möhtəşəm şərəf salnaməsi yaradıblar. Azərbaycan zabiti də dünya ordularında mövcud şərəf kodeksində öz əksini tapan bütün yüksək keyfiyyətləri özündə cəmləşdirib. Azərbaycan zabiti Xalqına, Vətəninə, Dövlətinə sonuna qədər sadiq qalan, yüksək mənəvi, əxlaqi, dünyəvi və mili keyfiyyətlərə malik insan, peşəkar hərbçi, fədakar vətəndaşdır.

Təsadüfü deyildi ki, Azərbaycan kinematoqrafçıları general Polad Həşimovun dəfn mərasimindən bəhs edən kadrların birində onu haqlı olaraq "Əbədiyyətin zabit şərəfi" adlandırıblar.

Öz vətəninə möhkəm tellərlə bağlanan kapitan Ceyhun Həsənov da zabit şərəfinin nə demək olduğunu xidməti boyunca or-



taya qoyub, geniş erudisiyası olan bir kadr kimi əsgərlərinə Vətən naminə necə ləyaqətlə döyüşməyi, bu yolda canından keçməyi öyrədirdi.  Sözün həqiqi mənasında istər gündəlik xidmətdə, istərsə də təlimlərdə, məşqlərdə Ceyhun kimi komandirlərin rolu həlledici rol oynayırdı... Ceyhun Həsənov hərbi anda sadiq olan, xidməti vəzifələrini və döyüş tapşırıqlarını vicdanla yerinə yetirən, xalqın, dövlətin marağını öz şəxsi marağından, mənafeyindən qat-qat üstün tutan əsl komandir idi...

2018-ci ildə 32 yaşında ailə həyatı qurmuşdu... Bir il sonra - 2019-cu il 6 avqustda əkiz övladları dünyaya göz açanda sevincindən yerə-göyə sığmamışdı. Fəqət  sevib-seçdiyi hərb sənətinin öz qanun - qaydaları vardı. Anası Səmayə xanımın təəssüf hissiylə deyir ki, Ceyhun öz övladlarını uzaqdan telefon vasistəsi ilə görə bilirdi, bəzən də onlar üçün burnunun ucunun göynədiyini dilə gətirirdi....

Ata olandan sonra Ceyhunun təbii ki, övladları ilə bağlı böyük arzuları, şirin xəyalları var idi.  Amma bütün arzularından yüksəkdə Vətənini azad, bütöv və qalib görmək idi... Xatirələrdən belə məlum olur ki, Ceyhun döyüş əmrinin veriləcəyi günü səbirsizliklə gözləyirmiş... Belə bir deyim var ki, heç bir şeydən qorxmayan adam, hamının qorxduğundan daha güclüdür...

Kapitan Ceyhun Həsənov el arasında necə deyərlər, ailəsinə bir köynək yaxın olsun deyə, 2019-cu ilin oktyabrdan artıq Beyləqan rayon N saylı hərbi hissəsinin korpusunda qərargah rəisi vəzifəsində çalışırdı... Əkiz övladları Cahid və Cavidanın 2020-ci il avqustun 6-da bir yaşlarını yenicə qeyd edib, qulluq etdiyi hərbi hissəyə dönmüşdü. Elə həmin avqust ayında hərbi təlimlərdə 1-ci yer qazandığına, eyni zamanda qüsursuz fəaliyyətinə görə  komandanlıq tərəfindən qol saatı ilə mükafatlandırılmışdı.

...2020-ci il sentyabrın 27-də yaşayış məntəqələrimizi, mülki əhalimizi atəşə tutan, artilleriya zərbələri endirən və yeni ərazilər zəbt etmək xülyasına düşən azğınlaşmış düşmənin genişmiqyaslı





təxribatlarına cavab olaraq Ali Baş Komandan əks-hücum əmrini verdi. "İrəli" əmrini alan Azərbaycan zabiti Ceyhun Həsənov öz şəxsi heyəti və ona məxsus olan 7 PDM, 4 tank, bir neçə texnika ilə düşmən üzərinə hücum ərəfəsində əsgərlərinə səslənərək: "Biz güclü olmalıyıq, hamı bir nəfər kimi ardımca irəli..." - dedi və əsir yurd yerlərimizi başdan-başa ağuşuna almış ən ağır, sərt istehkamları yararaq irəli atıldı...

Azərbaycan zabitinin bu addımından, cəsarətindən, şücaətindən ruhlanan əsgərlər ölümün gözünə dik baxaraq düşmən üzərinə yeridilər. Bir neçə döyüş texnikası sıradan çıxsa da, erməni faşistlərinin birinci eşalonu darmadağın edildi. Kapitan Ceyhun Həsənovun bacarığı sayəsində bir neçə yüksəklik geri alındı, üç erməni postu ardarda məhv edildi. Döyüş yoldaşları da təsdiqləyir ki, onun verdiyi istiqamətlər, qurduğu əməliyyat planları çox böyük nəticələr verirdi.

Amma heç kim o gün bilmirdi ki, bu, şəxsi igidlik nümayiş etdirən Ceyhunun ilk və son döyüş olacaq. Sanki onun özünə hər şey qabaqcadan agah olmuşdu: "Ola bilər mənfur düşmən mən oturduğum PDM-i vurar, amma mənim igidlərim, birdən dayanarsınız ki, mənə kömək göstərəsiniz. Sizə mən əmr verirəm və tapşırıram ki, dayanmadan irəli..."

Və necə demişdisə də, elə də oldu. Sonralar kamandirinin ilk və son savaş gününün təfərrüatlarını döyüş yoldaşlarından biri, çavuş Şahin Mehdiyev belə nəql edəcəkdi: "Son nəfəsində Cehun belə dedi: Şahin, sonuncu mövqeni vurduq?" Mən isə cavab verdim: "Bəli, komandir, vurduq!.. Gülümsəyərək əlimi sıxdı. Gözlərini yumaraq şəhidlik zirvəsinə yüksəldi..."

O gün təkcə zabit şərəfini, ləyaqətini deyil, həm də Vətən qarşısında öz müqəddəs borcuna sədaqətini nümayiş etdirərək Füzulinin uğrunda gedən döyüşlərdə Ceyhun hər şeydən əziz bildiyi Vətən uğrunda canından keçdi. Ölümü ilə artıq əlçatmaz bir zirvəni fəth etmişdi. Bu şərəf naminə şəhid olan təkcə Ceyhun olma-



dı. Yüzlərlə qəhrəman zabitimiz fədakarlıq və böyük sevgi ilə bu yolun könüllü yolçuları olub, şöhrətin əbədi zirvəsinə ucaldılar...

Kapitan Ceyhun Həsənovun dəfn mərasimində mən də iştirak edirdim. Azərbaycan himninin sədaları və fəxri qarovul dəstəsinin yaylım atəşi altında İkinci Fəxri xiyabanda Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimovun məzarının yaxınlığında torpağa tapşırılandan sonra şəhid zabitimizin tabutu üzərindəki Azərbaycanın üçrəngli bayrağı atası Aydın Həsənova təqdim ediləndə onun dediyi: “İndi o, tək bizim ailənin deyil, bütün Vətənin övladıdır” kəlmələri məni çox kövrətmişdi.

## Qısa ömrün böyük dastanı

Belə deyirlər ki, hər şey qanla keçir, gendən gəlir, ailədən, düzgün tərbiyədən başlayır, halalıqdan əmələ gəlir – Vətəni sevmək də, sağlam əqidə də, cəsarət də... Vətən Müharibəsi Qəhrəmanı Ceyhun Həsənov haqqında yazılan məqalələr, danışılan xatirələr onun qısa ömrünün böyük dastanına bənzəyir. Ceyhunun babası Əli kişi alman faşizminə qarşı döyüşmüşdü, dayısı Məstan Novruzov 90-cı illərdə Qarabağ uğrunda döyüşlərdə həlak olmuşdu. Hazırda Tovuzun Çeşməli tam orta məktəbi şəhid Məstan Novruzovun adını daşıyır. Məktəbin qarşısında şəhidin xatirəsinə abidə ucaldılmışdır.

...Könüllərdə özünə ölməzlik abidəsini ucaldan Azərbaycan Silahlı Qüvvələrinin kapitanı Ceyhun Həsənov isə Vətənimizə, xalqımıza xoş müjdəli bir savaşdan - elə Vətən müharibəsinin başladığı ilk günün ilk saatlarında soraq verdi... Yaşasaydı, general da olacaqdı... Çünki Ceyhun öz işini də, Vətənini də çox sevirdi. Ceyhun - sözünün mənası coşan, coşqun, güclü, igid deməkdir. Vətəni Ceyhun Həsənov kimi işini bilən, ləyaqətli, qorxmaz övladların fədakarlığı Vətən edir... Kapitan Ceyhun Həsənov canının Vətənə qurban verdi, özü də dönüb bir VƏTƏN oldu...

Bəli, Ceyhun Həsənov insan kimi adına, zabit kimi andına, komandir kimi SÖZÜNƏ SAHİB çıxıdı və düşmən çaynağından azad etdiyi TORPAĞI VƏTƏNLƏŞDİRDİ...

Yer üzündə baş vermiş savaşların tarixi göstərir ki, düşməni girdiyi torpaqlardan Vətənin igid oğulları çıxarar. Düşməni işğal etdiyi torpaqdan çıxaran, Ceyhun kimi zabit oğulların Böyük Qələbəyə aparan YOLU odlu-alovlu səngərlərdən, ölümün gözünə dük baxan igidliyindən, canından-qanından, şəhidliyindən keçib gedirdi...

El arasında geniş yayılan məşhur bir deyim var: "O bu dünyaya kişi kimi gəldi, kişi kimi yaşadı, kişi kimi də köçüb getdi." Xalqımızın mərd kişilər, ər oğullar, gözünü qırpmadan Vətən naminə şirin canından keçən qəhrəmanlara şamil etdiyi bu deyim əsrlərin, qərinələrin sınağından keçib bu günümüzə gəlib çatıb. Kişi olmaq əhdə sadiqlik, haqq-salama hörmət, comərdlik, vətənpərvərlik və gücdür... Kişilik anlayışı yaşından asılı olmayaraq insanın istər mənəvi, istərsə də fiziki cəhətdən üstünlük meyarıdır... 35 yaşı tamam olmağa bir ay qalmış, iki övlad atası kapitan Ceyhun Həsənov da kişi kimi döyüşdü, kişi kimi şəhid oldu...

Müharibə təkcə anaları övladsız qoymur, həm də taleyinə ağır zərbələr vurulan ailələr davanın vurduğu yara və faciəni yaşamaqda davam edirlər. Ən böyük qələbələrlə başa çatan müharibələrin belə, nəticələri çox acı olur.

İndi Vətən Müharibəsinin Qəhrəmanı Ceyhun Həsənovun atası Aydın kişi ilə tez-tez görüşürəm. Bəzən onunla birlikdə Ceyhun Həsənovun adını daşıyan küçədə gəzib dolaşırıq. Qəhrəmanın adı veriləndən sonra küçə əsaslı təmir olunub, səkilərin işıqlandırılması ilə paralel olaraq bir tərəfdə kiçik park salınıb. Parkda Ceyhun qara mərmərə həkk olunmuş şəklindən bizə boylanır. Şəkil dil açır, danışır zaman... Şəhid atası baxışlarını oğlunun şəklinə dikib susur, elə bilrəm ki, Ceyhunun uşaqlıq, gənclik illərinin xatirəsini göz önünə gətirir. Bəzən də Ceyhunla bağlı xatirələrini dilə gə-



tirəndə mənim gözlərim önündə qəhrəman zabitimizin əzəmətli obrazı canlanır... Düşünürəm ki, Ceyhun kimi qəhrəman oğullar artıq yalnız öz ailəsinə, öz el-obasına deyil, bütün Azərbaycana, dünya azərbaycanlılarına əzizdir, doğmadır... Şair bu müqəddəsliyi, ömrün bu əbədiliyini belə dilə gətirib:

Şəhidi qocaltmaz illərin yaşı,
Şəhid yatan torpaq oyaqdır, yatmaz!
Şəhidi ağlasın bahar yağışı,
Ona - anaların göz yaşı çatmaz.

Boy verir ürəkdə hünər nəğməsi,
Nəsillər dinləyir bu məğrur səsi.
Şəhidlər - Vətənin qələbə rəmzi,
Şəhid oğulları Vətən yaşadır!

...Yuxarıda qeyd etmişdim ki, Ceyhunun övladları barədə böyük arzuları var idi. Ömrü yarımçıq qalsa da, inşallah arzuları yarımçıq qalmayacaq. Vətənə yadigar qoyduğu və dövlətinin qayğısı ilə əhatə olunan əkiz oğul övladları - Cahidlə Cavidanın atalarının yarımçıq arzularını gələcəkdə doğruldmağa ölkəmizdə hər cür şərait var...

Bəli, qəhrəmanlığı və şəhidliyi alın yazısı seçən kapitan Ceyhun Həsənov kimi mərd zabitlərimiz dünən də olub, bu gün də var, sabah da olacaq!..

**Nurəddin ƏDİLOĞLU,**
***yazıçı-jurnalist***
***07.07.23***

# TARİXİ SƏNƏDLƏR VƏ ŞƏKİLLƏRDƏN BOYLANAN CEYHUN DÜNYASI


Xətai rayonu Ə.Abbasov adına 257 saylı orta məktəb.

DİPLOM

TƏLTİF EDİR

Həsənov Ceyhunun Diplomu

Direktor : K.Ş.Karatov

"01" 04 1998 il.



DİPLOM

Һәсәнов Зејһун

САМБО КУЛӘШИ УЗРӘ ЈЕНИЈЕТМӘЛӘРИН

ХӘТАИ РАЈОН БИРИНЧИЛИЈИ ЈАРЫШЫНДА

65 КГ. ЧӘКИДӘ III ЈЕРИ ТУТДУГУНА

КӨРӘ ТӘЛТИФ ОЛУНУР.

15.04.2001

ASF-nin Prezidenti Z.Məmmədli



AZƏRBAYCAN
HƏMKARLAR İTTİFAQLARI
KONFEDERASİYASI

*2002-ci ildə C.Naxçıvanski adına Hərbi Litseydə 26 iyun Silahlı Qüvvələr gününə həsr olunmuş "Azərbaycan Əsgəri" bədii qiraət müsabiqəsində uğurlu çıxışına görə*

*17-ci tağımın müdavimi*

*Ceyhun Həsənovu*

DİPLOMLA

TƏLTİF EDİR

17 may2002-ci il

AZƏRBAYCAN HƏMKARLAR
İTTİFAQLARI
KONFEDERASİYASININ SƏDRİ S.MEHBALIYEV





Azərbaycan Respublikası Yeni İctimai Nəzarət Təşkilatı

# FƏXRİ DİPLOM

Torpaqlarımızın azadlığı uğrunda
44 gün davam edən hərbi əməliyyatlar zamanı
düşmənin silahlı qüvvələrini darmadağın edərək,
böyük zəfərə imza atmış Vətən müharibəsi
ŞƏHİDİMİZ

**Ceyhun Həsənov**

Yeni İctimai Nəzarət Təşkilatı
tərəfindən təsis edilmiş
Qarabağın və Qələbəmizin simvolu olan
"XARI BÜLBÜL" Fəxri Diplomu ilə
təltif edilir.

YİN Təşkilatının Sədri: ________ Ramil Şükürov



Azərbaycan uğrunda!

AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİ

FƏXRİ FƏRMAN

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Cüdo üzrə birinciliyində 100 kq çəki dərəcəsində III yeri tutan TTM saylı hərbi hissənin yığma komandasının üzvü l-vt Həsənov Ceyhun

TƏLTİF OLUNUR!

Səfər ƏBİYEV
general-polkovnik
AZƏRBAYCAN RESPUBLİKASININ
MÜDAFİƏ NAZİRİ

«12» mart 2009-cu il





FƏXRİ FƏRMAN

*Baş leytenant Həsənov Ceyhun Aydın oğlu*

Əlahiddə Ümumqoşun Ordu üzrə
"Cüdo" güləşi birinciliyində 100 kq çəki dərəcəsində
**III yerə** layiq görüldüyünə görə

**TƏLTİF OLUNUR**

**Əlahiddə Ümumqoşun Ordu**
**Komandanının müavini**

**polkovnik** Teymur Eyyubov

18 iyun 2015-ci il



FƏXRİ FƏRMAN

Baş leytenant
Həsənov Ceyhun Aydın oğlu

21.10.2014-cü il tarixdə bölüyün taktiki təliminin keçirilməsi zamanı əldə etdikləri nailiyyətlərə, döyüş və humanitar hazırlığında fərqləndiklərinə görə

TƏLTİF OLUNUR

050 №-li hərbi hissənin komandiri

polkovnik Tehran Mənsimov

oktyabr 2014-cü il



AZƏRBAYCAN RESPUBLİKASI
MÜDAFİƏ NAZİRLİYİ

181 NÖMRƏLİ HƏRBİ HİSSƏ

2-Cİ BÖLÜK 3-CÜ TAQIM

KAPİTAN HƏSƏNOV CEYHUN AYDIN OĞLUNUN KOMANDİR HAZIRLIĞI DƏFTƏRİ

- Oriyentirlər
Kim, nə zaman, nə [illegible], [illegible] [illegible] [illegible] edəsən.
[illegible] [illegible]
- Əmr edirəm
Səfər, döyüş [illegible], döyüş
- [illegible].

1. [illegible] Ceyhun – 50
2. Xəlil – 20 [illegible]
3. Hüseynov – 50 [illegible]
4. İbadov Rəhim – 30
5. Yusibov Arif – 30
6. Bəhramli [illegible] – 50

14.02.2019
- İcrada – Oriyentirlər açıqlanır
- Niyyət qərarın əsasını təşkil edir
- Nişangah sıfırlama
- Silah normal döyüş vəziyyətinə gətirilir
- MDRO 25 300m [illegible] edir
- 1 klip 2,55m

- Səfərbərlik 48 saat



25.01.2018.

Taktiki hazırlıq

Tağımın dayaq məntəqəsinin sxemi

- (Ərazi) Oriyentirlər
- tağımın atəşini idarə etmək üçün
- tağımın atıcı silahların atəş mövqelərini qazmaq
- DŞ vəziyyəti
- Dayaq məntəqəsi tğ atəş zolağı və əlavə atəş sektoru, manqaların döyüş mövqeləri
- [illegible] zolaqları və atəş sektorları
- PDM əsas və ehtiyat atəş mövqeləri. əsas və əlavə sektorları
- [illegible] atəş əhatəsi CAS manqaların yerləri
- Dayaq məntəqəsində
- PDM və dayaq atəş vasitələrindən atəş açma
- maneələr və mühəndis qurğuları
- qonşu bölmələrin mövqeləri və cinahlarda atəş əlaqəsinin [illegible]
- Tğ KMM yeri

1100 adam sat. tğ. dayaq məntəqəsi hazırlamaq

Tağımın döyüş əmri

- Vəziyyət
• DŞ tərkibi, vəziyyəti, güclü və zəif cəhətləri, ehtimal olunan fəaliyyəti
• Tğ əlavə verilən əlavə güc və vasitələr
•
• Qonşu bölmələrin və yuxarı dayaq bölmələrin tapşırıqlarını bilmək
- Tapşırıq



Şəxsi vəsiqə

Həsənov

Ceyhun Aydın

Azərbaycan Respublikası Silahlı Qüvvələrində həqiqi hərbi xidmətdədir

1. Şəxsi №

2. Anadan olduğu ... 19

3. Şəxsi imza

MN № 0055213 2

4. Anadan olduğu yer Tovuz rayonu Çeşməli kəndi

5. Milliyyəti Azərbaycanlı

6. Vəsiqə verən 215 nömrəli hərbi hissə

7. Vəsiqə verən vəzifəli şəxsin imzası

215 nömrəli hərbi hissənin komandiri polkovnik ... Həzad

8. Verilmə tarixi "14" avqust 2019 il



DİPLOM ALİ TƏHSİL HAQQINDA

DÖVLƏT SƏNƏDİDİR

B № 107864

DÖVLƏT ATTESTASİYA KOMİSSİYASININ SƏDRİ

General-leytenant

REKTOR

General-mayor

AZƏRBAYCAN RESPUBLİKASI

DİPLOM

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi

DÖVLƏT ATTESTASİYA KOMİSSİYASININ

"21" iyun 2008-ci il TARİXLİ QƏRARI İLƏ

Həsənov Ceyhun Aydın oğluna

İxtisas

ALİ PEŞƏ İXTİSASI VERİLİR

Bakı 2008-ci il



# AİLƏ ŞƏKİLLƏRİ












Cavidan Ceyhun oğlu Həsənzadə





Cahid Ceyhun oğlu Həsənzadə












WISEFIN






CEYHUN
HƏSƏNOV






















ARILAR





# HƏRBİ ANDLA BAŞLANAN VƏTƏN
































RAYON








Həsənov Ceyhun
Aydın oğlu
10.1985-27.09.202
Ceyhun Həsənov adına 48 nömrəli tam orta məktəb








Ceyhun
Həsənov


Ceyhun
Həsənov










20:08
...0,5KB/s
CEYHUN OGLUM
Allah babasi sene wukur olsun 18:05
Bulari verdiyin yerde 18:05
Bir biriyle oynayib qeh qehe ceken qaqalar bax sen birce 18:05
Oldum mende burda gulmekden 18:06
Wiwdimde heleee 18:06
Yaxwi a pota a pota 18:06
Sen bunun gulmeyine bax birce 18:06
Gor birce sesde cixmirdi eeee 18:07
Mesaj yazın




CEYHUN OGLUM
10 aprel 2020
Bay bay yakiwiqli qaqalar
23:47
Bu paltarlarini kim alib
23:48
? 23:48
Hele sosqayi agzina
soxana bax
23:48
12 aprel 2020
17:21
17:21
Mesaj


CEYHUN OGLUM
08:25
08:27
08:28
08:30
Bay bay bular qeweng oglanlardi bele
14:09
Siz
Video (1:03)
Bu vidoda da ele bil piyandi
14:10
Yada yuxusu gelir
14:10
Balaca qaqamda oz alenidendi eee
14:10
Mesaj




SƏFƏRBƏRLİK VƏ HƏRBİ XİDMƏTƏ ÇAĞIRIŞ ÜZRƏ DÖVLƏT XİDMƏTİNİN XƏTAİ RAYON İDARƏSİ

Vətəni, milləti, bayrağı, ölkəsinin suverenliyi, ərazi bütövlüyü uğrunda mübarizədə misilsiz cəsarət və rəşadət göstərmiş və ən böyük fədakarlığı edərək candan keçmiş şəhidimizin ailəsini hərbi rəşadət, şərəf və igidlik bayramı olan 26 iyun-Silahlı Qüvvələr Günü münasibətilə təbrik edir, qəhrəman şəhidimizi qürur və rəhmətlə anır, ailəsinə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti adından minnətdarlığımızı bildiririk.







# SON SÖZ YERİNƏ

**Biz ölmədik, xalqımızın qəlbinə,**
**Vətənimizin tarixinə köçdük...**

*(Bu esseni şəhidlərin dilindən "İki sahil" qəzetinin əməkdaşı Nüşabə xanım Səməndər qələmə alıb)*

...Biz hələ uşaq ikən Qarabağ müharibəsindən, erməni vəhşiliyindən bəhs edən filmlərə baxdıqca, Şəhidlər xiyabanında uyuyan şəhidlərimizi ziyarət etdikcə körpə qəlbimizdə ermənilərə qarşı nifrət, qəzəb yaranır, hər birimiz böyüyəndə yağı düşməndən bunun heyfini alacağımızı düşünürdük. Biz böyüdükcə qəlbimizdəki nifrət, düşməndən intiqam almaq hissi daha da böyüyür, alovlanırdı. Böyüyəndən sonra Ali Baş Komandanın torpaqlarımızı azad etmək uğrunda "İrəli" əmrini intizarla gözləyirdik. Nəhayət, o gün gəlib çatdı. Mən də minlərlə gənc kimi torpaqlarımızın azadlığı uğrunda başlanan haqlı savaşımıza könüllü yollandım.

Məni müharibəyə uğurlayarkən anam – Vətən də sənin anandır, elə bil ananı dardan qurtarmağa gedirsən, düşmənə acıma, qan uddur, - dedi. Sonra məni bağrına basıb - Allaha əmanət ol, südüm sənə halaldır, deyə pıçıldadı. Atamsa əlini çiynimə qoyub – torpaq namusdur, oğlum, ermənilərin murdar ayaqlarını torpaqlarımızdan kəsin. Kişi kimi vuruşacağınıza, bizim yarımçıq qalan görəvimizi tamamlayacağınıza əminəm, haqqım sənə halaldır, - dedi. Toxtaq dayanıb, büruzə verməsələr də, odun-alovun içinə getdiyimi, bu yolun dönüşü olmayacağı ehtimalını gözə alaraq, ata-anam bəribaşdan haqlarını mənə halal etdilər. Bunu hiss etdiyim üçün gülümsəyib diqqətlə baxaraq onları sanki gözlərimə

köçürmək istədim.

Bu müharibə filmlərdə gördüklərimizə bənzəmirdi. Hər tərəf alov saçırdı, hər an ölümlə burun-buruna gəlirdik. Ancaq heç birimiz ölümdən qorxmur, o barədə düşünmürdük. Ac-susuz qaldığımız zamanlar da olurdu, yemək-içməyi belə unutmuşduq. Haqlı savaşımızda bircə hədəfimiz vardı-torpaqlarımızı son qarışınadək düşməndən azad etmək, yəni Böyük Qələbə! Bu amalla atılırdıq irəli odun-alovun içinə və birər-birər torpaqlarımızı azad edirdik. İtirdiyimiz silahdaşlarımızın-qardaşlarımızın acısı ürəyimizi göynətsə də, azad etdiyimiz torpaqlarımızın sevinci, qazandığımız qələbələrdən doğan ruh yüksəkliyi dərdimizə üstün gəlirdi.

Torpaqlarımızı azad edə-edə nəhayət, Şuşaya yaxınlaşdıq. Şuşanı heç vaxt görməsək də, onun alınmaz qala olduğunu, düşmənlərə baş əymədiyini, ermənilərin onu xəyanət nəticəsində əldə etdiyini müəllimlərimizdən və valideynlərimizdən öyrənmişdik. Vaxtilə düşmənlərin girə bilmədiyi Şuşaya onun əsl sahibləri olan biz-igid Azərbaycan oğulları böyük şücaət və mətanətlə girdik. O günə qədər yalnız şəkillərdə gördüyümüz Şuşaya girərkən yerdən bir ovuc torpaq götürüb qoxusunu ciyərlərimizə, sonra da tutya kimi gözlərimizə çəkdik. Gözəl Şuşamızı da düşmənin murdar caynağından xilas etdik – böyük Qələbə qazandıq, ancaq bu bizə çox igid oğullarımızın canı-qanı bahasına başa gəldi.

Mən də ağır yaralandım, hiss etdim ki, şəhadətə qovuşmağıma lap az qalıb, son dəqiqələrimi yaşayıram. Ancaq bu məni kədərləndirmirdi, çünki artıq Şuşa bizim idi və mən qalan torpaqlarımızın da azad olunacağına – Böyük Qələbəmizə əmin idim. Ağrılarımı hiss etmirdim, ruhum bədənimi tərk edir, yavaş-yavaş yüngülləşirdim. Əsgərlərin Qələbəmizdən doğan sevinc nidalarını eşidirdim. Bu səslər məni xoşbəxt edirdi, mən gülümsəyirdim... Gözlərimi Şuşanın azad, mavi səmasına dikmişdim... Bir anlıq ata-anam, bacı-qardaşım, sevdiyim qız gözlərimin önündən kino lenti kimi keçdi... Onlara yaşadacağım acı üçün üzüldüm, ancaq



onların mənimlə fəxr edəcəklərini bilirdim, axı, mən Vətənimizin bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda şəhid olurdum... Son dəfə artıq dumanlanan gözlərimlə Şuşanın azad, mavi göylərini seyr edib, ətirli havasını ciyərlərimə çəkib, xalqımın xoşbəxt gələcəyinə əmin halda gözlərimi bu dünyaya əbədi qapadım.

Hərdən evimizə baş çəkirəm. Ata-anamı kədərli görmək məni çox üzür. Keçən gecə yenə evimizə getmişdim. Mən gedəndən sonra anam yenə də həmişəki kimi mənim yatağımda yatmışdı. Daha doğrusu, mənim ətrim hopan yastığımı sinəsinə sıxaraq qoxulaya-qoxulaya röyasında məni görmək ümidi ilə uyumağa çalışırdı.

Atam evdə mənim şəxsi əşyalarımdan və şəkillərimdən düzəldilmiş guşədə böyüdülmüş şəklimin qarşısında dayanıb gözlərini şəklimə zilləyərək, kimsənin duymasını istəmədiyi üçün mənimlə, daha doğrusu, şəklimlə qəlbində danışırdı. Gözlərində dərin bir kədər vardı. Ancaq qəddi əyilməmişdi, duruşu şax, vüqarlı idi. Əlini qaldırıb çiynimi oxşayırmış kimi əsgər paltarımı çiyinlərində gəzdirdi. Sonra kədər qarışıq qürurla – Səninlə fəxr edirəm, oğlum, - deyə pıçıldadı. Bacım şəklimi sinəsinin üstündə yuxuya getmişdi. Görünür yatmazdan əvvəl hər zamankı kimi yenə də şəklimlə danışıb, dərdləşmişdi. Rəngi solğun idi, mənim dərdim bacımı da xeyli sınıxdırmışdı. Hələ ibtidai sinifdə oxuyan kiçik qardaşım paltarımın içindən əsgər kəmərimi götürərək belinə bağlayırdı. Atam onun arzusu ilə kəməri qardaşımın belinin ölçüsündə kiçiltmişdi. Yatmış balaca qardaşımı görəndə gülümsədim, çünki yatanda da kəməri belindən açmamışdı. Qəhrəman saydığı böyük qardaşına, yəni mənə bənzəmək istəyən qardaşım yuxusunda mənimlə birlikdə mənfur düşməni məhv edirmiş kimi üzündə məmnun bir ifadə vardı.

Sonra sevdiyim qıza baş çəkdim. Güzgünün qarşısında dayanıb kədərlə gözlərinə baxırdı. Həmişə mən onun əllərindən tutub, gözlərimi qaçırmadan uzun-uzadı gözəl gözlərinə baxırdım. Bir dəfə - Nədən gözlərimə belə çox baxırsan, - deyə xəbər aldı. Mən

zarafatla – Gözlərinə köçmək istəyirəm, - dedim. İndi o, gözlərində məni görəcəkmiş kimi diqqətlə güzgüdə gözlərinə baxırdı. Sonra əllərini ehtiyatla dodaqlarına yaxınlaşdırdı, sanki əllərində qalan əlimin istisinə, təmasına toxunmaq, oxşamaq istəyirdi.

Daha sonra azad olunmuş torpaqlarımızda gəzdim. Şükürlər olsun, bu torpaqlardan düşmənlərin ayağını kəsdik. Artıq yolların çəkilişinə, bəzi yerlərdə quruculuq işlərinə başlanılıb. Şuşada böyük abadlıq işləri aparılır. Yaxın gələcəkdə Ali Baş Komandanın rəhbərliyi və xalqımızın əli ilə bizim qanımızın töküldüyü bütün azad olunmuş torpaqlarımız abadlaşıb gülüstana çevriləcək. Xalqımız bu torpaqlarda firavan yaşayacaq. Bundan böyük xoşbəxtlik ola bilərmi?! Dövlətimiz, qədirbilən xalqımız biz şəhidləri unutmur, daim ehtiramla yad edir, böyük dəyər verirlər. Biz şəhid olub Allahın dərgahında ali məqama yüksəlməklə yanaşı, eyni zamanda, xalqımızın qan yaddaşında əbədi yaşayacağıq.

Biz ölmədik ki... Sadəcə, bu dünyadan xalqımızın qəlbinə, tarixinə köçüb, yeni şanlı tarix yaratdıq...



## KİTABIN İÇİNDƏKİLƏR:

Ön söz: Tarix qəhrəmanlığı unutmur
VƏTƏN QƏHRƏMANI- KAPİTAN CEYHUN HƏSƏNOV
Ceyhunun döyüş yolu
Şəhidlər ölməz – Vətən bölünməz (Qənirə PAŞAYEVA)
Yusif surətli, dəmir səsli şəhidimiz (Əzizağa NƏCƏFZADƏ)
Şah Xətainin adını daşıyan rayonun igid oğlu (Əkbər QOŞALI)
Qəhrəmanlar ölmür (Gülnar SƏMA)
"Yalnız irəli!" (Gülnar SƏMA)
Getmə desəm, qalarmı görən... – (Ötərxan ELTAC)
İgid oğulların qələbə əzmi tükənməzdir (Nurəddin MUĞANLI)
Vətən qəhrəmanları, biz sizi unutmadıq... (Nurəddin MUĞANLI)
Ceyhun Həsənov (Muşfiq MİRZƏ)
AİLƏ ÜZVLƏRİ CEYHUN HAQQINA
Ceyhunun qısa taleyi (Xatirə AYDIN QIZI)
KURSANT VƏ ZABİT YOLDAŞLARI CEYHUN HAQQINDA
Şəhid dostum, mənəvi qardaşım Ceyhun Həsənov haqqında (İsa ƏLİYEV)
Vətənpərvərliyin ən ali məqamı (Gülmirə MƏMMƏDOVA)
Bizə zəfər bəxş edənlərə borcluyuq (İsmayıl MUĞANLI)
QƏHRƏMANA HƏSR OLUNMUŞ ŞEİRLƏR
Yanan qəlbin məlhəmi ol Ceyhunum (Lətifə RƏŞİD)
Qəlbimizdə yaşayacaq! ( Gülxar ƏMRAHQIZI)
Çin oldu (İsmayıl ZƏNGİLANLI)

ŞƏHİDLƏR ÖLMƏZ Kİ… (Arif FƏRZƏLİ)
Şəhid məktubu (Balayar SADİQ)

ŞƏKİLLƏRDƏN BOYLANAN CEYHUN DÜNYASI..........
VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANI CEYHUN HƏSƏNOVUN DOĞUM GÜNÜ QEYD OLUNUB
Tarix Muzeyinə Vətən müharibəsinin şəhidi Ceyhun Həsənovun şəxsi əşyaları təhvil verilib........
Ceyhun XXI əsrin zabiti idi... (Nurəddin ƏDİLOĞLU)
Son söz yerinə:
Biz ölmədik, xalqımızın qəlbinə,
Vətənimizin tarixinə köçdük...(Nüşabə Səməndər)
Vətən Müharibəsi Qəhrəmanlarının siyahısı.............



# *Sonunu düşünən qəhrəman ola bilməz!*

*Vətən Müharibəsi Qəhrəmanı*
*kapitan Ceyhun Həsənov.*



**Nurəddin ƏDİLOĞLU**

# XXI ƏSRİN QƏHRƏMANI

**Bakı-2023**


**Korrektor:** Gülmirə Ramazanqızı
**Dizayner:** İbrahim Qasımov

Çapa imzalanıb: 20.09.2021
Format: 60x90 1/16. Ofset kağızı.
Həcmi:
Sifariş: № . Tiraj:

CBS POLYGRAPHIC PRODUCTION
Tel: (012) 433-75-05, Faks: (012) 433-75-05
mətbəəsində çap olunmuşdur









